# ATALARIN ÖZÜ ÖLSƏ DƏ, SÖZÜ ÖLMƏYİB



# ATALARIN ÖZÜ ÖLSƏ DƏ, SÖZÜ ÖLMƏYİB

Bakı - 2022

**Toplayanı:** **filologiya e.d. Əhməd Cəfərzadə**

**Tərdib edəni və redaktoru: filologiya ü.f.d. Tacir Səmimi**

**Korrektoru: Vüsal Abiyev**

**Naşiri: Turan İbrahimov**

**Ataların özü ölsə də, sözü ölməyib.**
**(Folklor örnəkləri: rəvayətlər və əfsanələr).**
Bakı, "SkyE", 2022, 192 səh.

Oxuculara təqdim edilən bu kitabda filologiya elmləri doktoru Əhməd Cəfərzadənin müxtəlif yerlərdən (Göyçay, Quba, Sabirabad, Salyan, Bakı, Dəvəçi, Qonaqkənd, Qusar, Dərbənd, Xaçmaz, Kürdəmir, Şuşa, Qubadlı, Saatlı və s.) toplayıb yazıya aldığı rəvayətlər və əfsanələr verilmişdir.

Bu folklor örnəklərində xalqımızın azadlıq mübarizəsi, əski inam və inanclara, təbiətə, canlı aləmə sevgisi, halallığa tapınmağı əks olunmuşdur.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-440-31-7

@Turan İbrahimov, 2022

## ÖN SÖZ

Burada yüzdən çox əfsanələr və rəvayətlər toplanıb. Bu, Əhməd Cəfərzadənin "Nanaylar"dan sonra ikinci toplama işidir, onun arxivindən götürmüşük. Əfsanələr rəvayətlərə nisbətən sayca çoxluq təşkil edir. Bu folklor örnəklərinin maraqlı cəhəti Əhməd əminin, yəni Əhməd Cəfərzadənin cavanlıq vaxtlarına təsadüf olunur. Toplayıcı qeydlərindən bu folklor materiallarının 1948-1963-cü illəri əhatə etdiyi bəlli olur. Toplama işi təkcə Şirvanı, Şamaxını deyil (əlbəttə, Şirvan, Şamaxıdan toplanan materiallar üstünlük təşkil edir), digər əraziləri (Göyçay, Quba, Sabirabad, Salyan, Bakı, Dəvəçi, Qonaqkənd, Qusar, Dərbənd, Xaçmaz, Kürdəmir, İsmayıllı, Şuşa, Qubadlı, Saatlı və s.) əhatə edir. Təbii ki, qeyd olunan yer-yurd adları Əhməd Cəfərzadənin çox yerləri gəzib-dolaşdığını təsdiqləyir. Bu toplama işində yer-yurd adları xüsusilə adamın diqqətini cəlb edir. Gavuryaran, Güllübatan, Ağlayan dağ, Yetimlər, Sənəm bulağı, Qanlı qaya, Zöhrab qalası, Qırxlar gölü, Diri qəbristanı, Axundlar, Zəncirli dağ, Haramı dağı, Qazıyanan, Qanlı qala, Dəli dağ, Maral gölü, Yengəyanan, Qırx qızlar və s. bu qəbildəndir.

Əhməd Cəfərzadənin bu toplama işi özünəməxsus cəhətləri ilə adamı cəzb edir. Burada tarixi olaylar, folkor örnəklərinin çoxunda xalq müdrikliyi, hikmətamiz düşüncələr, dədə-babalarımızın əski inanc və etiqadlarına sədaqəti, xalqımızın azadlıq və istiqlaliyyət ideyaları, onun yadellilərə qarşı mübarizəsi, dirənişi, bir sözlə, şanlı tariximizin pozulmaz izləri verilmişdir. Burada ərəb, monqol işğalları, Teymur Ləng, Nadir şah kimi cahangirlərin Azər-

baycana hücumlarını əks etdirən örnəklər sırf tarixi göstərməsə də həmin tarixi olayların müəyyən anlarını təsvir etməkdədir.

Bu qeyd edilənləri daha aydın anlamaq üçün bəzi folklor örnəklərinə baxmaq məqsədəuyğundur. Öncə ərəb işgalı ilə səsləşən nümunələrə nəzər salaq. Əfsanələrdən “Gavuryaran”, “Diri qəbristanı”, “Nazlı əfsanəsi” ərəb işğalı ilə bağlı örnəklərdir.

“Gavuryaran”da təsvir olunur ki, ərəblər yerli əhalini bir dağa tərəf sıxışdırıblar. Adamlar dağın zirvəsini səngərləyib yağılara qarşı müdafiə olunurlar. Onlar on bir ay müdafiə olunurlar, amma təslim olmurlar. Müdafiəçilər susuzluqdan korluq çəkdiklərindən qayanı yarıb torpağa çıxır, ordan da 85 metr uzunluğunda lağım atıb, çayın sahilinə yetişib ordan ucuna su qabı bağlanan iplə çaydan su götürürlər. Ərzaqları qurtarandan sonra aclıqdan tələf olur, sağ qalanlar özlərini qayalardan atırlar. Onlar əsir düşməkdənsə ölməyi üstün tuturlar.

Ərəb zülmü ilə əlaqəli folklor örnəklərindən “Diri qəbristanı” xüsusilə təsirlidir. Rəvayətdə deyilir: “Bir ərəb kənddəkilərdən də pozğun olur və onun evində kiçik qız uşağına sataşır. Bunun üstündə iki ərəb bir-biri ilə vuruşur və qılınc yarasından hər ikisi ölür”. Buna baxmayaraq hakim bu işdə yerli əhalinin əli olduğunu zənn etdiyindən günahsız yerə adamları cəzalandırmağı qərara alır. Bu, həmin örnəkdə belə təsvir olunur: “Heç bir and-amana inanmayan hakim camaatı kəndin qırağına çıxarır; əllərinə bel verib qəbir qazmağa məcbur edir. Sonra adamları qəbirlərə saldırıb diri-diri üstlərini torpaqlatdırır.

O vaxtdan həmin qəbristanlıga "Diri qəbristanı" deyirlər. Zalımlıq və müstəbidlik bəlli olduğundan zənn edirik ki, əlavə şərhə ehtiyac yoxdur.

İndi də Əmir Teymurla baglı materiallardan iki nümunəyə nəzər salaq. "Daş oğlan" əfsanəsində göstərilir ki, Teymurun qoşunları susuzluqdan çox əziyyət çəkirlər, odur ki, o, suyun yerini nişan verəcək adama xeyli qızıl verəcəyini vədd edir. Amma ilan mələyən səhrada kimsə görünmür, onlar bir oğlana rast gəlirlər. Teymur ondan suyun yerini soruşanda deyirlər:

– Bu heç nə danışmayacaq, çünki nə qədər döyüb əzab versək də danışmadı.

Teymur fərraşları çağıran kimi oğlan daşa dönür. Burada oğlanın canı bahasına olsa da yadlara sirr verməməsi, vətən yolunda şirin canından keçməsi, xalqın bir qəhrəman oğlunun surəti ustalıqla yaradılmış, belə oğulları olan yer-yurdun alınmazlığı əks olunmuşdur.

"Teymurlənglə Kəmaləddin Şirvanı" rəvayəti də maraqlı örnəklərdəndir. Bu nümunədə qeyd olunur ki, Teymur Kəmaləddin Şirvanını də Səmərqəndə aparmaq istəyir, amma öncə onu imtahan edir. Şairin hikmətamiz və məntiqli cavabları hökmdarın xoşuna gəldiyindən onu Səmərqəndə aparmır.

Bu kitabda dahi şairimiz Nizaminin əsərləri ilə səsləşən əfsanələr də kifayət qədərdir. Bunların xeyli hissəsi Makedoniyalı İsgəndərdlə baglıdır. "İsgəndərlə dul arvad", "İsgəndərlə falçı", "İsgəndərin qarıdan vergi alması", "İsgəndərlə Dara", "Əflatunla kəniz", "İsgəndərlə Şirvan şahı", "İsgəndərin Şirvana gəlməsi" kimi nümunələr Makedoniyalı İsgəndərin ədalətli və hikmətə dəyər verən padşah

obrazını əks etdirir. Bunu "İsgəndərlə dul arvad"da aydınca görürük. Orada göstərilir ki, Makedoniyalı İsgəndər bir dəfə saçından asılan bir qadın görüb maraqlanır. Qadın deyir:

– Dörd uşağım var, kəndin darğası məni almaq istəyirdi, sonra razı oldum, evləndik. Bu, böyük qızıma sataşanda mən hay-küy salınca darğa acıqlandı:

– Elə buna görə səni almışdım.

Bundan sonra məni günahkar çıxarıb cəza verdilər – saçımdan asdılar.

Bunu eşidən kimi Makedoniyalı İsgəndər darğanı cəzalandırır. Bu, həmin rəvayətdə belə verilir: "Onun əmri ilə darğanı öldürdülər. Bütün varidatını arvada verdilər, qızını da qaytardılar".

İsgəndərlə baglı folklor nümunələrindən "İsgəndərin qarıdan vergi alması" daha ibrətamizdir. Orada deyilir ki, bir qarı vergi vermir, onu məcbur edəndə qarı bir balaca torba verir və bundan başqa heç nəyi olmadığını deyir.

Rəvayətdə deyilir:

"Dedilər:

– Qarı, İsgəndər Zülqərneyn torpağı neynir?

Dedi:

– Sizin nəyinizə lazımdı? Aparıb verin, deyin ki, filan kənddə filan qarı verdi".

Həmin torbanı gətirib İsgəndərə verirlər. Bu həmin nümunədə belə göstərilir: "İsgəndər torbadakı torpağı görüb fikrə getdi. Öz özünə dedi: "Ey dili-qafil, mən heç ölümü yada salmıram. Qarı mənə qara torpaq göndərməklə başa salmaq istəyib ki, sənə yaxın gündə gərək olan bu qara torpaqdır.

İsgəndər həmin kənddən alınan şeyləri dala qaytardı və vergiləri ləğv etdi.

Kitabda verilən "Ağamurad yeri", "Şəhidlər", "Adsız qəhrəman", "Ananın qərarı" adlı rəvayətlər Nadir şahın yürüşü ilə əlaqədar yaranan folklor materiallarıdır.

Birinci materialda Buğut qalasının Nadirin hücumundan müdafiəsi təsvir olunur. Nadir şah deyir:

– Qoşunu Buğut qalasına aparana min qızıl verəcəyəm.

Amma adamlar buna razı olmurlar. Şah acıqlanır:

– İki adamdan birini öldürtdəcəyəm.

Bunu eşidəndə biri deyir ki, o bələdçilik edəcək, axşam üstü yola çıxmaq lazımdı.

Dərhal bir böyük dəstə yola düşür. Bələdçi irəlidə sürətlə gedir, bir tərəfdən də qaranlıq düşür, qar yağır. Əskərlər zorla onun ardınca gedib ona çatmağa çalışırlar, bir tərəfdən də soyuq onların əhdini kəsir. Az keçmir ki, aldadıldıqlarını anlayıb bələdçini tikə-tikə eləsələr də, qalanın müdafiəçiləri onları mühasirəyə salıb hamısını qılıncdan keçirirlər. Bələdçinin adı Ağamurad olduğundan onun öldürüldüyü yerə o vaxtdan "Ağamurad yeri" deyilir. Yəni bu yer bir xalq qəhrəmanının adını yaşatmaqdadır.

Digər örnək də diqqətəlayiqdir. Bu rəvayətin özünəməxsusluğu odur ki, burada qız-gəlinlərimizin, qadınlarımızın da kişilər, igidlər kimi cəsurluğu, cəngavərliyi qeyd olunur. Orada göstərilir ki, Nadir şah qoşunla Şamaxıya yaxınlaşır. Qabaqda dar dərə keçidində cəmi on iki kişi durubmuş. Dərhal fikirləşirlər ki, qalaya xəbər vermək lazımdı, amma bu dar keçiddə qoşunun qabağını saxlamaq vacibdir, ona kimi qalaya da xəbər çatdırmaq olar. Rəvayətdə deyilir:

Qadınlar dedilər:

– Siz qalaya xəbər verin, biz düşmənin qabağını saxlayarıq.

Qız-gəlin kişi paltarı geyib Nadirin qoşununun qabağını kəsir. Dərəni keçməyə qoymurlar. Keçidi keçməyə imkan vermirlər.

Hamısı həlak olur, geri çəkilmirlər. Baxırlar bunlar qız-gəlin imişlər. Şəhid kimi onları paltarlı dəfn edirlər. Digər bir rəvayət də onunla paralellik təşkil edir, burada da yaşlı bir qadın canını heçə sayıb uşaqları ölümdən xilas edir. Örnəkdə deyilir ki, Nadir şahın adamlarından Ənvər xan zəhərlənib ölür. Heç kəs bunu boynuna almır. Şahın əmri ilə tonqal qalanır. Şah əmr verir:

– Bütün uşaqlı qadınlar öz körpələrini gətirib tonqala atsınlar.

Bu vaxt bir qoca qarı meydana çıxır:

– Camaatda təqsir yoxdu, Ənvər xanın xörəyinə zəhəri mən qatmışam.

Dərhal onu tikə-tikə edirlər. Bu əhvalatdan xeyli sonra bir qoca şəhərli deyir:

– Ənvər xanın xörəyinə zəhəri mən qatmışdım.Bəs o qarı niyə boynuna aldı?

Təbii ki, bu sualın cavabı bəllidir: qarı körpə uşaqların tonqalda yandırılmasına razı olmur, axı onlar böyüyüb vətənin müdafiəçiləri olacaqlar – bunu o yaxşı bilirmiş.

Burada rast gəldiyimiz müsbət insani cəhətlər təqdir edildiyi kimi, insanlığa yaraşmayan, mənfi cəhətlər də pislənir, fanatizmin bəla olduğu qeyd olunur. Bunu "Hüseyn daşı"ında görmək mümkündür. Oradan bəlli olur ki, Hüseyn adlı gənc iki mollanın cəfəngiyyat danışıqlarına inan-

madığından mollalar mövqelərindən istifadə edib onu diri-diri tonqalda yadırırlar. Buna görə də həmin ərazidəki daş "Hüseyn daşı" adlanır. Digər bir örnəkdə ("Şıxeyubla Pərnaz") bir şeyx bir kəndlinin arvadına (Pərnaza) aşıq olduğu deyilir. Bu qadın özünü hikmət sahibi kimi göstərən bu adamın məqsədini anladığından onu pərt edib utandırmaq qərarına gəlir. O, bilərəkdən şeyxin qabındakı aşın altına toyuq qoyur. Şeyx qaba baxanda orda toyuğu görməyib deyir:

– Səhvən mənim qabıma toyuq qoymayıblar.

Pərnaz ona belə cavab verir:

– Ya şeyx, bəs necə olur ki, sən altı aylıq yolda Məkkəni görürsən, plovun altında toyuğu görmürsən?

Şıxeyub pərtliyindən çıxıb gedir. Yəni ağıllı kəndli qadını şorgöz, məqamından sui-istifadə edən bir din xadimini beləcə pərt eləyir, ustalıqla bu hiyləgər adamı adamlar arasında utandırır.

Haqqında söz açdığımız folklor örnəklərindən "Kəklik", "Qırx qızlar", "Haramı dağı" kimi əfsanələr qız-gəlinlərimizin aydan arı, sudan duru olduğunu, abır-həya, nəcib əxlaq sahibi olduqlarını təsdiq etməkdədir. Birinci folklor materialında bir dövlətli oğlu onu sevməyən Kəklik adlı qızı qaçırıb atla dağlara aparır. Zorla qızı özünə arvad etmək istəyir. Qız işi belə görüb Allaha yalvarır ki, onu bu rəzillikdən qurtarsın, quş eləsin.

O saat qız quş olub qayalığa düşür.

"Qırx qızlar" da birinci əfsanəyə oxşayır. Burada Bakı xanının qızı Xədicə xanımın başındakı 39 qızla dərya kənarına seyrə çıxması təsvir olunur. Onlar bu vaxt qırx haramıya rast gəlirlər. Haramılar onlardan əl çəkmək istəmirlər.

Onların vəziyyəti belə qeyd olunur: "Burada əllərini göyə qaldırıb ağlaya-ağlaya dedilər:

– Allah, bizi rüsvay eləmə!

Elə o dəqiqə hamısı dönüb bir qaya oldu. O qayadan qızların göz yaşları  damla-damla axmağa başladı.

O qayaya "Qırx qızlar" deyilir".

Bu göstərdiyimiz üçüncü nümunədə ("Haramı dağı") də haramılar arxasına bağlı körpəsi olan bir gəlini zorla dağa qaçırıb namusuna toxunmaq istəyirlər. Gəlin razı olmayanda onun körpəsinin hər iki qolunu kəsirlər. Gəlin yenə razı olmur. O, Allaha yalvarır ki, onu bu bəladan xilas etsin. Əfsanədə deyilir: "Qadın da, iki haramı da, onların iti də dönüb daş oldu. İndi də "Haramı dağın"da yan-yana durur".

Verilən materiallarda halallıq, qonşu haqqını gözləmək, haqqı göz önündə tutmaq kimi nəcib sifətlər də təqdir olunur. Bu qeyd etdiyimiz insanlığın gözəl cəhətləri əks etdirən iki nümunəyə baxaq. Təsvir olunur ki, Şuşadakı Məşədi Rza adlı tacir tanımadığı bir nəfərlə alış-veriş edir.O gedəndən sonra Məşədi Rza hesablayıb görür ki, həmin adamın onda iki şahı pulu qalıb, çox narahat olur. Dükanı baglayın həmin adamı axtarmağa gedir. Bir həftədən sonra axtarıb həmin kişini tapır, onun iki şahını ona verir. Geri qayıdanda deyirlər:

– İki şahıdan ötürü dükanın bir həftə bağlı qaldı, bir aləm ziyana düşdün.

Deyir:

– Adam gərək düzgün ola, halal ola. Bundan ötrü ziyana düşsə də eybi yoxdu.

Burda adamın yadına bir atalar sözü düşür: "Doğruluq dost qapısıdır".

Əhməd Cəfərzadənin bu toplama materialları arasında varlıların kasıb olanlara yuxarıdan aşağı baxması, onları adam saymaması, varlı qızları ilə ailə qurmaqlarına qarşı olmaları da bir neçə örnəkdə ("Qız daşı", "Hacıbaba bulağı") göstərilir. Birinci materialda bəlli olur ki, Müslüm bəy qızını öz əmisi ogluna vermək istəsə də, qızın könlü bir kasıb oğlundadır. Buna görə də qız ona qoşulub qaçır. Bəy bunu eşidəndə dərhal göstəriş verir, gedib oğlanı öldürüb, qızı da gətirirlər. Bəyin əmri ilə onu daşqalaq edirlər. Orada deyilir: "Daş üstünə qalaqlanıb bir təpə olur". İkinci də birinciyə oxşayır, deyilir ki, Hacıbaba adlı yetim oğlan Murtuz ağanın qızına vurulur. Təbii ki, qız da ona biganə olmur, işin qəlizliyi odur ki, oğlan ağanın çobanıdır. Bunu qızın anası da başa düşdüyündən ərinə deyir: "Nə olar, a kişi, iki könülü qırmaq Allaha da xoş getməz". Amma ağa buna razı olmur. Hacıbaba anlayır ki, ağa bu işə razı olmayacaq, Allaha dua eləyib onu bulaq eləməyini arzu edir, o saat bulaq olur. Qız bunu görəndə Allahdan onun daş olub bulağa tökülməsini xahiş edir. Bu da daş olub bulağın içinə tökülür. Sevgililər bir-birinə belə qovuşurlar. Maraqlıdır ki, "Deşik daş" adlı əfsanə də buna çox bənzəyir. Burada söhbət Şamaxı xanı Mustafa xandan gedir. Deyilir ki, xanın nökəri ilə kənizi bir-birini sevirlər. Xan bunu eşidəndə çox acıqlanır, onların ikisini də zindana, yan-yana iki otağa saldırır. Bunların ah-naləsindən ortadakı daş divar əriyib oyuq açılır deyə sevgililər bir-biri ilə görüşürlər. Bunu görən xan bu saf sevginin möcüzəsi qarşısında güzəştə gedib onların ailə qurmasına razılıq verir.

"Yaxşı qonşu qardaşdan irəlidir" rəvayəti xüsusilə yaddaqalan və qonşuluq münasibətlərinin gərəklilliyini

adamların diqqətinə çatdırmaqdadır. Rəvayətdə nağıl olunur ki, bir tacir böyük ziyana düşür. Odur ki, nəyi var satıb ziyanlığa versə də baxır bunu ödəyə bilmir. Düşünür ki, ev-eşiyi satıb borcunu ödəyəndən sonra köçüb başqa bir yerə getsin. Xəlvəti bir alıcı da tapır. Razılaşırlar. Alıcı pulu verəndə tacir deyir:

– Qardaş, bu verdiyin evin qiymətidir. Amma mən sənə canlara dəyən bir qonşu da satıram. Bəs ona nə verirsən?

Alıcı gülür:

– A kişi, dəli olmamısan ki, qonşunu da satarlar?

Tacir deyir:

– Qardaş, vallah, bu bir qonşudur ki, misli-bərabəri yoxdur. Sən gəl belə qonşu üçün də beş-altı qızıl əlavə ver.

Alıcı hirslənib dəllal çağırır, söz uzanır, səs-küy qalxanda qonşunun da xəbəri olur. O, tacirə deyir:

– Sən niyə evini satırsan? Bəs mənə niyə deməmisən?

Tacir başına gələnləri ona danışan kimi onun evə getməyi ilə geri qayıtmağı bir olur. Gətirdiyi pulu, qiymətli şeyləri tacirə verir. Tacir borclarını ödəyib alıcıya deyir:

– Bax, qardaş, mən sənə belə bir qonşu satırdım.

Bu folklor örnəkləri sanki hikmət qaynağıdır, insanı düşündürür, xeyirxahlığa, həqiqətə, halallığa istiqamətləndirir, hər kəsə xeyirli işlərin dəyərini və əhəmiyyətini anladır. Burada xalqımızın arzu-diləkləri, insanlığın gözəl xüsusiyyətləri (mərdlik, cəsarət, vətən sevgisi, canlı aləmə tükənməz məhəbbət, halallıq, cəfakeşlik, əməlisaleh olmaq və s.) əks olunsa da, hakim siniflərin nümayəndələrinin mənfi sifətləri (mövqeyindən sui-istifadə, kasıblara, yoxsullara zülm etmək, onları aşağılamaq, həmişə özlərinə haqq qa-

zandırmaq və s.) də verilmişdir. “Qazıyanan”, “Axundlar”, “Qanlı qaya”, “Maral gölü” kimi örnəklərdə bu qeyd olunanları görmək mümkündür. Öncə “Qazıyanan”a baxaq. Burada göstərilir ki, Gülxanımın əri təzəcə ölüb. Bu qadın altı kiçik yaşlı uşağı ilə başsız qalıb. Qazı dərhal ona xəbər göndərir ki, onu özünə siğə etmək istəyir. Qadın bu namərd adama rədd cavabı versə də, qazı ondan əl çəkmək istəmir, çünki qadın həm gözəldir, həm də varlı-hallıdır. Qazı qonşu kəndin qazısına Gülxanımın kəbinini özünə kəsdirir, gəlir qadının həyətinə. Gülxanımın əli hər yerdən üzüldüyündən əllərini göyə açıb Allaha yalvarır:

– İlahi, hər kim ki sənin adınla nahaq iş tutur, onu odlayasan.

O saat evdən tüstü qalxır. Qazı yana-yana həyətə çıxır. Amma adamlar nə qədər çalışsalar da onu qurtara bilmirlər, qazı yanıb kül olur. Həmin yer də “Qazıyanan” kimi tanınır.

“Axundlar”da deyilir ki, iki axund bir gəlinə rast gəlir. Gəlin onlara yalvarır ki, ona kömək etsinlər, kəndxudanın oğlu ona sataşmaq istəyir. Amma gəlin görür bu namərdlər də ona təcavüz etmək istəyirlər. Odur ki, deyir:

– Allah, axundları daş elə.

Axundların ikisi də daş olur.

“Qanlı qaya” da maraqlı folklor örnəklərindəndir. Göstərilir ki, Dürdanə Niyaza könül verib. İşin çətinliyi odur ki, Niyaz bir kasıb ailədəndir. Dürdanə isə Davud xanın qızıdır. Xan bu xəbəri eşidəndə az qala dəli olur, oğlanı da, qızı da diri-diri qala divarına hördürür.

“Maral gölü”ndə qeyd olunur ki, İsmayıl bəyin oğlu Tapdıq bəy bağbanın qızı Zəhranı zorla özünə arvad elə-

mək istəyir. Onun ata-anasını, qardaşını öldürüb qızı qaçırdır. Qız işi belə görüb dua edən kimi maral olur, gölü üzüb o yana keçir.

Bu göstərdiyimiz folklor materiallarından da göründüyü kimi, haqq nazilsə də üzülmür, halal və ismətli adamların istəkləri yerinə yetir, zalımlıq, başqalarını aşağılamaq, onlara zülm etmək tənqid olunur. Bir sözlə, bu toplanan folklor örnəkləri didaktik düşüncələrlə, hikmətlə zəngindir.

Maraqlıdır, "Şah İsmayılla bağban" adlı rəvayətdə "Haqqın nizamını pozmaq olmaz" düşüncəsi əks olunmuşdur. Əgər bu baş verərsə ana təbiət də buna reaksiya verəcəkdir – bu, rəvayətdə aydın verilib. Həmin rəvayətdə təsvir olunur ki, Şah İsmayıl ova çıxanda gəlib bir bağa rast gəlir. Susadığından bağbandan su istəsə də o, bir nar dərib onun suyunu sıxaraq qabda şaha təqdim edir. Şah deyir:

– Narın hamısı belə sulu olur?

Deyir:

– Bəli, bu ağacları bir-bir özüm əkmişəm. Bunun gəliri ilə dolanıram.

O saat şah fikirləşir ki, bağbanlardan da vergi almaq lazımdır. Bu vaxt bağban yenə bir nar dərir, onu sıxsa da ondan ancaq iki-üç damla şirə çıxanda deyir:

– Narın şirəsi qurudu, şah xəzinəsi bağlardan vergi almaq istəyir.

Şah deyir:

– Bu, pis narmış, başqasını üz. Suyu çox olsun.

Şah fikrini dəyişir. Odur ki, yeni dərilən narın suyu çox olur. Bağban deyir:

– Ədalətli şahın zamanında narın da suyu artıq olar, insanların da canı sulu olar.

Azərbaycan əfsanələrinin toplanıb yazıya alınmasında, tədqiqində professor Sədnik Paşa Pirsultanlının böyük əməyi vardır. Filologiya elmləri doktoru Əhməd Cəfərzadənin bu toplama işi əfsanələr haqqında yeni söz deməyə əsas verir, bununla bağlı tədqiqatların aparılmasını zəruriləşdirir. Bu istiqamətdə gənc tədqiqatçıların da elmi axtarışları diqqətəlayiqdir. Məhsəti İsmayılın "Naxçıvan əfsanələri", Elxan Yurdoğlunun (Məmmədov) "Folklorda janr daxilində janr" monoqrafiyaları belə tədqiqatlardandır.

Bu folklor örnəkləri dədə-babalarımızın əski inanc və inamlarını, eləcə də mənəvi dünyalarını əks etdirir, bizi düz yola – Haqq yoluna dəvət edir, bələdçimizdir.

Əlbəttə, bu kitabda toplanan rəvayətlər və əfsanələr haqqında çox söz demək olar. Fikirləşirik ki, indi də növbə dəyərli oxucularındır. "El gözü tərəzidir" – deyiblər. Elin sözü hikmətsiz, dədə-baba söyləntiləri dəyərsiz, qiymətsiz olmaz. Burada dədə-babalarımızın bir atalar sözünü də xatırlayırıq: "Dədələrin özü ölsə də, sözü ölməyib". Bir sözlə, elin sözünü elin özünə ad edirik.

**Tacir SƏMİMİ**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

## GAVURYARAN

Ərəblər bu yerə yetişən kimi camaat oğul-uşağını, mal-heyvanını götürüb uca bir dağın başına çəkildi, orada məskən saldı. Bu dağın hər tərəfi çıxılmaz, sərt qayalıq idi. Yerli əhali dağın başına çıxılası mümkün olan yeganə cığırın da qabağını kəsmişdi.

Ərəblər Qalağ adlanan bu dağı dövrəyə alıb durdular: aşağıdan atılan oxlar yuxarıdakılara heç bir ziyan vura bilmir, lakin yuxarıdan atılan daşlar ərəbləri qırırdı.

Mühasirə altı ay davam etdi. Qaladakıların azuqəsi qurtardı, mal-heyvanı kəsib yedilər. Nəhayət, isti yay günlərində qışda qazıb doldurduqları quyuların suyu da qurtardı. Susuzluq dərdi adamları ciddi düşünməyə vadar etdi. Onlar dağın ətəyində dövrə vuran Pirsaat çayını görür, suyun şırıltısını eşidir, lakin onun həyat verən suyundan içə bilmirdilər.

El ağsaqqalları çaydan su götürmək məqsədilə sal qayanı yarıb otuz metr aşağı düşməyi, sonra isə lağım atıb çaya yaxınlaşmağı qərara aldılar. Hamı işə girişdi: gündüz ərəblərin üstünə daş-kəsək, yanar kösöv tökür, gecələr isə sal qayanı yarırdılar. Əlbir iş öz bəhrəsini verdi: beş gecəyə otuz metr uzunluğu, bir metr eni, dörd metr hündürlüyü olan bir yol çapıb torpağa çıxdılar. Sonra torpaqla səksən beş metr uzunluğunda adam keçə bilən bir lağım atıb, çaydan üç-dörd metr hündürlüyə çıxdılar. Oradan gecələr ip vasitəsilə çaydan su götürürdülər.

Dağın mühasirəsi on bir ay çəkdi, nəhayət, dağdakıların bütün sursatı tükəndi. Lakin onlar təslim olmadılar. Acından tələf oldular, qalanları isə özünü qayalardan uçuruma atdı.

O zaman ərəblər hələ İslam dinini qəbul etməmiş olan yerli əhalinin sal qayada çapdığı o yolu "Gavuryaran" yer adlandırırdılar.

Oranı indi də belə alandırırlar.

## AĞAMURAD YERİ

Nadir şahın qoşunları Şirvana girmiş, Şamaxını almışdı. Şah Şirvan bəylərinin və igidlərinin sığındığı Buğurt qalasına getmək, oradakıları da təslim etmək istəyirdi. Lakin qışın oğlan çağında Şamaxıdan xeyli aralıda, keçilməz meşələrin içində, sıldırım qayaların üstündə duran bu qalaya getmək, özü də nəzəri cəlb etmədən getmək müşkül iş idi. Bundan ötəri bu yerləri qarış-qarış tanıyan, diribaş, cavan bir bələdçi lazım idi. Şahın əmrilə şəhərdə qalan bütün kişiləri sarayın qabağına yığdılar.

Şah dedi:

– Sizlərdən hansı biriniz mənim qoşunumu xəlvəti yollarla Buğurt qalasına aparsa, ona min qızıl verəcəyəm.

Heç kim dillənmədi.

Nadir şah səsini ucaltdı:

– Əgər qalanın yolunu göstərməsəniz, hər iki adamdan birini öldürtdürəcəyəm.

Yenə də heç kim dillənmədi.

Nadir şah nökərlərə əmr elədi:

– Bunları cərgə-cərgə düzün, cəllad işinə başlasın, hər iki adamdan birinin boynunu vursun.

Camaatı cərgəyə düzdülər. Cəllad əlində siyirmə qılınc irəli yeridi. Elə birinci adamın boynunu vurmaq istəyirdi ki, dal cərgələrdəki kişilərdən biri səsləndi:

– Əl saxla! Mən o yolu tanıyıram, qoşunu da xəlvəti yollarla aparıb qalaya çıxarda bilərəm.

Nadir şah dedi:

– Camaatı buraxın getsin. Qoşun böyüklərinə xəbər verin, axşamüstü yola çıxılacaq.

Həmin axşam Nadir şahın qoşunundan bir neçə böyük dəstə bir-birindən bir o qədər aralı yola düşdü.

Bələdçi irəlidə gedirdi. Bir azdan hava qaraldı, quşbaşı qar yağmağa başladı. Qoşun başçıları əsgərlərin çətinliklə yeridiyini, soyuqdan əziyyət çəkdiyini, qaranlıqda heç bir yerin görünmədiyini görüb dedilər:

– Bəlkə sabaha qədər birtəhər buralarda daldalanaq? Axı həm soyuqdur, həm də bu meşələrdə aza bilərik.

Bələdçi dedi:

– Yeriyən adama soyuq olmaz. Azmaqdan da heç nigaran olmayın, bu yerləri ovcumun içi kimi tanıyıram. Xoruzun ikinci banında qalaya yetişəcəyik. Əsgərlərə buyurun, bir az yerişlərinə haram qatsınlar.

Qoşun böyükləri onun belə arxayın danışmağını görüb ürəkləndilər, əsgərləri həvəsləndirmək məqsədilə mükafat vəd etdilər. Hamı həvəslə irəliləməyə başladı. Onlar qaranlıq, sıx meşənin içilə getdikcə gedirdilər, lakin meşə qurtarmaq bilmirdi. Hamı narahat olmağa başladı. Lakin bələdçi daha böyük bir sürətlə irəliləyirdi. Qoşun əhli ona güclə çatırdı. Birdən bələdçi dayandı və uca səslə:

– Ağarəfi, ay Ağarəfi! – dedi.

Elə o dəqiqə lap yaxından:

– Can dədə, – səsi eşidildi.

Qoşun böyükləri tələsik soruşdular:

– Ay kişi, bu nədir, kimi səsləyirsən, birdən düşmən-zad olar?

Bələdçi gülüb dedi:

– Məgər burada sizin dostunuz var? Elə hamı düşməninizdir də...

Qoşun böyükləri yalnız indi başa düşdülər ki, bələdçi onları niyə piyada və gecə gətirirmiş. Onlar elə o dəqiqə bələdçini tikə-tikə doğradılar. Lakin bələdçi də öz işini görmüş, onları qala müdafiəçilərinin mühasirəsinə salmışdı. Şamaxılılar yorğun, yuxusuz, piyada qoşunu bircə anda qırdılar.

O vaxtdan bələdçinin (adı Ağamuradmış) dəfn olunduğu yerə "Ağamurad yeri" deyir və oranı müqəddəs hesab edirlər.

## DÖRDLƏR PİRİ

Bəyalı xanın oğlu çayın sahilindəki qumsallıqda öldürülmüşdü. Xan oğlunu elə oradaca dəfn etməyi və üstündə gümbəz tikdirməyi qərara almışdı. Neçə-neçə adlı-sanlı ustalar gümbəzi tikmişdisə də, o, uçulmuş, zəhmət hədərə getmişdi.

Gümbəzin dördüncü dəfə uçulduğunu eşidən xan hirslənib dedi:

– Bu ustaların hərəsinə yüz çübüq vurub, özlərini də cərimə eləyin, əllərindən iş gələn deyilmiş. Sonra isə bir yaxşı usta tapın, özü də tələsin, qış düşməmiş gümbəz tikilib qurtarsın.

Bu mahalda tikinti işindən başı çıxan bir usta var idi. Lakin gördüyü iş kobud, özü acıdil olduğundan heç kim

ona iş gördürməzdi. Odur ki, bir parça çörəyə möhtac idi. Bu usta xanın əmrini eşidib sevindi, gecəykən həmin yerə baş çəkib vəziyyəti öyrəndi, nəhayət, sübh tezdən saraya gəlib xana dedi:

– Xan sağ olsun, mən həmin gümbəzi tikərəm, özü də uçulmaz, əgər uçulsa, boynumu vurdurarsan. Amma bir iş var ki, bu çağacan gümbəz tikən o dörd nəfər usta sənə qəsd ediblər, bilə-bilə gümbəzi möhkəm tikməyiblər ki, sənin oğlundan dünyada nişanə qalmasın. Mən bu gecə yuxuda görmüşəm ki, o dörd nəfəri gümbəzin bünövrəsinə qoyub hörsəm, gümbəz heç vaxt uçulmaz.

Xan qəzəblə səsləndi:

– Necə?! Deməli, mənə ziyan vurublar?! Deməli, oğlumun nişangahı olmağını istəməyiblər?! Çox yaxşı, sən öz işində ol, mən onları elə bu gecə zindana saldıraram, gərək olanda sənə verərəm.

Ustaları tutub zindana saldılar.

Sabahı gün paxıl usta çoxlu adam istədi; qumsallıqda gümbəzin yerini bütöv qazdırıb gil torpağa çıxartdı, sonra ustaların hərəsini bir küncə qoyub bünövrəni hörüb qaldırdı. Tezliklə möhkəm, dərin bünövrə üstündə tikilən gümbəz başa çatdı. Lakin camaat ona xanzadənin gümbəzi yox, dörd günahsızın adı ilə "Dördlər piri" dedi.

## GÜLLÜBATAN

İsmayıl xanın səbri-qərarı kəsilmişdi. Neçə gün bundan əvvəl bulaq başında gördüyü gözəlin kim olduğunu öyrənə bilmirdi. Nəhayət, o, yengə Zərnişanı yanına çağırıb dərdini ona açdı. Zərnişan ətraf kəndlərdəki qız-gəlini birbəbir onun üçün saydı. Xanın dediyi görkəmdə, boy-buxunda, geyimdə olan qız-gəlinə keçdi. Nəhayət, xanın səbri tükənib dedi:

– O gözəlin sol yanağında bir qara xalı da var.

Zərnişan duruxdu, sonra səsini alçaldıb:

– Başına dönüm, xan! O dediyin gözəl, qız deyil, İsrafil kişinin oğlu Hüseynin arvadıdır. Adı da Güllüdür, bu yaz toyları olub.

Xan dedi:

– Bilmirəm, qızdır, ya gəlindir, mənim üçün təfavütü yoxdur. Nə təhər var, gərək onu alam.

Zərnişan çox dedi, xan az eşitdi, axırda onun üstünə bir neçə qızıl atıb dedi:

– Nə fənd-fərəzən var, işlət, amma elə et ki, Güllünü bir də yaxından görüm. Bəlkə elə özüm razı sala bildim.

Zərnişan bir-iki gündən sonra bir bəhanə ilə Güllünü evinə gətirdi. Xanı da irəlicədən içəridə gizlətmişdi. Güllü içəri gircəyin xan pərdənin dalından çıxıb onu qamarladı.

Güllü abır-həyasına qısılıb qıy-qışqırıq salmadı. Astadan dedi:

– Xan, belə iş sənə layiq deyil. Mən özgəsinin kəbinli arvadıyam. Məndən aralı dur. Yaxşı deyil.

O, xanı birtəhər özündən araladı.

Xan dedi:

– Bax, Güllü, istəyir yer göyə qovuşa, göy də yerə, yenə səndən əl çəkəsi deyiləm. Ya öz xoşunla mənə arvad ol, ya da zorla səni aparacağam evimə.

Güllü gördü ki, burada buna kömək əli uzadan olmayacaq. Odur ki, hiyləyə əl atıb dedi:

– Yaxşı, mən razıyam. Amma burdan səninlə getmərəm. Sabah gəl Girdiman çayının qırağındakı kolluğa. Ordan sənə qoşulub gedərəm. Qoy desinlər ki, xan Güllünü qaçırtdı.

Xan Güllüyə inanıb çıxıb getdi. Güllü də öz evlərinə qayıtdı. Həmin gecəni yatmayıb bu zalım, qudurğan xanı məhv etmək üçün çarə düşündü.

Səhər ertədən Güllü Girdimançayın sahilindəki kolluğa gəldi. Xan artıq orada idi. Güllünü görcək sevindi. Güllü xanı çayın dərin bir yerinə tərəf apardı. Orada dedi:

– Xan, mənim boynumda qüsl var. Qoy çimim, pak olum. Sonra gedək sənin evinə.

Xan bir söz demədi. Güllü soyunub özünü suya atdı. O, çox gözəl üzə bilirdi. Amma bir qədər əl-qol atandan sonra özünü batırmış kimi göstərib çığırdı:

– Vay, kömək elə, boğuluram!

Xan əməlli-başlı üzmək bilməsə də, pallı-paltarlı qurşağa qədər suya girdi, əlini Güllüyə uzatdı. Güllü onun əlini tutan kimi var qüvvəsilə dərinə çəkdi, qucaqlayıb suyun altına basdı. Özü də boğuldu, zalım xanı da batırdı.

O vaxtdan bəri həmin yerə "Güllübatan" deyirlər.

## AĞLAYAN DAĞ

Qəmərin gözəlliyi dillərdə dastan olmuşdu, bir görən bir də görmək istəyirdi. Xançobanı elatının Dəmirli obasında belə bir gözəlin peyda olması xəbəri Eyvaz xanın oğlu Ağabəy xana da yetişdi. Əvvəl inanmadı, "tərəkəmədən sadır iyi, his iyi gələr, onlarda bir elə gözəl ola bilməz". Amma bir gün qəsdən yolunu Dəmirlinin düşdüyü yaylağdan saldı, hərləndi, fırlandı, axırı ki, Qəməri gördü. Başa düşdü ki, doğru deyirlərmiş, Qəmər şah saraylarına layiq gözəlmiş.

Ağabəy bir könüldən min könülə Qəmərə aşiq oldu. Evdə iki arvadı, bir neçə uşağı olmağına baxmayıb, cavan oğlan kimi qızı görmək üçün bulaq başını, çay qırağını, yalyamacı kəsdirdi. Amma Qəməri görürdüsə də, qız ona məhəl qoymurdu, axırda isə açıqca dedi:

– Ay xan, incimə, könülə zor yoxdur. Mənim də öz sevgilim var, məndən əlini üz.

Ağabəy tezliklə öyrənib bildi ki, Qəmərin sevgilisi Kərbəlayi Fəttahın çobanı yetim Ağabaladır. Öz-özünə dedi: "Sən Allah, bir qızın ağlına bax. Mənim kimi adlı-sanlı, varlı-karlı kişini qoyub, gör kimə aşiq olur! A kişi, Ağabalanın heç yerə sancmağa qırx çubuğu da yoxdur ki..."

Günlər ötdükcə Ağabəyin səbri tükənirdi, yemir, içmir, heyva kimi saralırdı. Oğlunun birdən-birə belə dəyişilməsi xanın nəzərindən yayınmadı. Xülasə, tezliklə öyrənib bildi ki, Ağabəy Qəmərə aşiq olub.

Xan oğlunu yanına çağırıb dedi:

– Bala, sənin qəziyyəni eşitmişəm. Əvvəla gərək belə olmayaydı, çünki sənin arvad-uşağın var. Amma indi ki,

olub, daha bundan ötəri niyə ürəyini sıxırsan? Mən o qızı elə günü bu gün gətizdirib sənə verərəm.

Ağabəy sıxıla-sıxıla dedi:

– Xan baba, nə qədər ki, çoban Ağabala sağdır, o qızdan mənə arvad olmaz.

Xan bir az da fikirləşib:

– Yaxşı, – dedi, – onda əvvəlcə Ağabalanı aradan götürtdürək, sonra qızı gətirək.

Xanın əmrilə elə həmin gecə Abağalanı qoyunu yaylıma çıxardanda öldürdülər. Səhərisi onun meyidi obanın ortasında yerə qoyuldu. Camaat hamısı ora toplaşdı, Ağabalanın öldürülməyini hərə bir cür yozurdu. Arvadlar ağı deyib, şaxsey vururdular. Elə bu vaxt Qəmər gəlib yetişdi, ağlaya-ağlaya belə bayatıladı:

Mən aşiq bir də, bir də
Kim olar mən səbirdə?
İkimiz bir öleydik,
Yateyduğ bir qəbirdə.

Ağabalanı obalıqla kəfin-dəfn elədilər. İki gün sonra xanın adamları Dəmirliyə basqın edib Qəməri zorla Ağabəy üçün apardılar. Gecə ikən kəbin kəsdirib qızı Ağabəyə verdilər.

Aradan üç-dörd gün keçdi. Qəmər zahirən sakit görünür, hətta Ağabəylə də danışırdı; qulluqçuların otağa gətirdiyi yemək-içməyi də özü qəbul eləyir, Ağabəylə birgə yeyirdi. Hamı belə düşünürdü ki, qız çobanı unudub, qismətilə razılaşıb.

Sən demə, belə deyilmiş. Qəmər nə yollasa zəhər tapıbmış; bir gecə zəhəri şərbətə qatıb Ağabəyə verir. Ağabəy gecə ikən öldü. Səhər gördülər ki, Ağabəy ölüb, özü də gömgöy göyərib. Həkim baxıb dedi ki, buna zəhər verilib.

Hamı başa düşdü ki, zəhəri Qəmər verib.

Xan əmr elədi:

– Onu diri-diri torpağa basdırın. Hərə gətirib üstünə bir torba torpaq töksün.

Qəməri torpağa basdırdılar, hamını məcbur elədilər ki, gətirib üstünə bir torba torpaq töksün. Qəmər yerin altında ağlaya-ağlaya qaldı. Tökülən torpaqdan onun üstündə böyük bir dağ əmələ gəldi. Həmin gündən o dağın döşündən bir neçə yerdən göz yaşı kimi su axmağa başladı. Hamı dedi ki, bu, Qəmərin gözünün yaşıdır.

O vaxtdan həmin dağa "Ağlayan dağ" deyirlər.

## YETİMLƏR

Şərəfnisənin əri təzəcə ölmüşdü, hələ heç qırxı da çıxmamışdı. Cavan, gözəl-göyçək gəlin üç körpə uşaqla ac-yalavac qalmışdı. O özü yetimliklə böyümüş, yetimliklə böyüyən naxırçı Murada ərə getmişdi. Gücə-pislik bir qarakeçə düzəltmişdilər. Uşağın böyüyünün beş, kiçiyinin bir yaşı vardı. Qohum-əqrəba yox, mal-pul yox, bu yetimlər nə ilə böyüyəcəkdi? Şərəfnisə bunları fikirləşdikcə göz yaşları dayanmır, ürəyi partlamağa gəlirdi. Belə bir vaxtda gecə ikən qapıda kimsə səsləndi:

— Ay qız, Şərəfnisə, yatmamısan?

Şərəfnisə yerindən dik atıldı, tələsik şalı başına atdı, çırağı yandırıb çölə çıxdı. Gələn kəndin mollası İmamverdi idi. O, əlindəki pulu Şərəfnisəyə verib dedi:

– Al bu pulu, ay qız, uşaqlara xərc elə, ac qalmasınlar.

Şərəfnisə dili dolaşa-dolaşa razılıq elədi. Molla İmamverdi getdi. Lakin o, gündə-günaşıra bir bəhanə ilə gəlir, ətdən, yağ-pendirdən, puldan və s. verib gedirdi. Şərəfnisə bilmirdi necə razılıq eləsin.

Muradın vəfatından beş ay keçmişdi. Bir gün molla İmamverdi həmişəkindən çox gec gəldi. Təklif-zad gözləmədən ocağın qırağında oturdu, bir qədər susduqdan sonra dedi:

– Hə, Şərəfnisə, nə təhərsən, məndən razısanmı?

Şərəfnisə tələsik:

– Allah səndən razı olsun, molla qardaş, – dedi, – mən səndən yerdən-göyəcən razıyam.

Molla İmamverdi səsini yavaşıtdı:

– Əvvəla, mənə qardaş demə, sonra da mən səndən razı deyiləm.

Şərəfnisə duruxdu:

– Mən nə iş tutmuşam ki, məndən narazı olursan?

Molla səsini bir az da yavaşıtdı:

– Ona görə ki, ərin öləni beş aydır. İddən çoxdan çıxıb. Özün də görürsən ki, mən bu qapıdan aralanmıram. Niyə demirsən ki, kəbinimi kəs özünə?

Şərəfnisəni elə bil ilan vurdu:

– Bu nə sözdür danışırsan, ay molla? Ərimin hələ torpaqda kəfəni saralmayıb. Əvvəli də mən heç kimə ərə gedən deyiləm. Oturub yetimlərimi saxlayacağam.

Molla əvvəl çox yalvardı, dilə çəkdi; olmadı. Axırda durub gedəndə dedi:

– Şərəfnisə, sən ki, məni naümid eləyirsən, bir cadu eləyib sənin yetimlərini daşa döndərəcəyəm.

O gündən molla daha Şərəfnisənin qapısında görünmədi. Gəlinin olan-olmazı qurtardı, qonum-qonşudan istəməyə üzü gəlmədi. Çarəsiz qalıb uşaqları evdə qoyub uzaq obalara dilənməyə getdi. O, səhər obaşdan gedir, bir də şər qarışanda qayıdırdı.

Günün birində evə qayıdarkən kəndin qırağında Molla İmamverdi ilə qarşılaşdı. Molla dedi:

– Sən mən deyənə razı olmadın. Mən də sənin uşaqlarını daşa döndərdim. Odur ey, alaçığın döşündədir. Nə vaxt "hə" desən, döndərib adam elərəm.

Şərəfnisə əvvəl inanmadı. Sonra qaça-qaça alaçığa girdi; uşaqlar yox idi. Qapıda isə ikisi böyük, biri isə xırda daş var idi. Şərəfnisə mollanın uşaqları daşa çevirdiyinə inanıb bir dəli qiyyə çəkdi, özündən getdi. Ayılanda isə artıq dəli olmuşdu. Qapıdakı daşları qucaqlayıb ağlayır, "yetim balalarım" deyirdi.

Sən demə molla onu yola gətirmək üçün uşaqları qonşu kənddə gizlətmiş, üç daşı isə qapıya qoyubmuş. Şərəfnisə uşaqları görsə də, daha ağıla gəlmədi, "yetimlər" deyə-deyə öldü.

O vaxtdan həmin daşlara "Yetimlər" deyirlər.

## SƏNƏM BULAĞI

Hüseynəli xan çaydan keçəndə pal-paltar yuyan qadınların içində bir gözəl gördü. Elə o görməklə də aşiq-məşuq oldu. Daha nə gecə yuxusu gəldi, nə gündüz qərarı tutdu. Axırda yengə Pərizad qarı vasitəsilə öyrəndi ki, aşiq olduğu qız cütçü Niyazın qızı Sənəmdir, özü də əmisi oğlu Səftərə deyiklidir, yaxınlarda toyu olacaq.

Hüseynəli xan öz adamlarını Səftərin üstünə göndərdi, fağırı kəndin içindəcə tikə-tikə doğradılar. Oğlanın meyidi dəfn olunmamış Sənəmi zorla xanın evinə apardılar. Sənəm nə qədər ağladı, yalvardı, çığırdısa da, köməyinə gələn olmadı. Xan onu zorla özünə arvad elədi.

Lakin Sənəmin üzü gülmədi, elə hey ağlayırdı. Göz yaşı onun lalə yanaqlarını soldurdu, heç bir il keçməmiş başı ağardı, arıqlayıb çöpə döndü, axırda xanın gözündən düşdü. Xan onun talağını verib evindən qovdu.

Sənəm daha ata evinə qayıtmadı: qəbristana getdi, Səftərin qəbri üstündə bir çadır qurub oturdu, nə illah elədilərsə də, dediyindən dönmədi. Gecə-gündüz qəbrin üstündə ağlayırdı. Axırda gözləri tutuldu, daha qəbri görə bilmədi. Odur ki, belə bir dilək dilədi:

Qaradır qaşın sənin,
Dərdlidir başın sənin.
Ölüb yanında qalam
Olam baş daşın sənin.

Sənəm öldü, onu Səftərin yanında basdırdılar. İkisinə bir baş daşı qoydular. Baş daşı qoyulan kimi onun iki yerindən su axmağa başladı – sanki iki göz ağlayırdı.

O vaxtdan daşa "Sənəm bulağı" deyirlər.

## QANLI QAYA

Süleyman xan eşidəndə ki, çoban Əsəd onun qızı Mədinəyə aşiq olub, əvvəl inanmadı. "Əşi, çox söz danışarlar, Əsəd elə qələti eləməz", – dedi. Amma bu sözü arvadından eşidəndə qəzəbləndi:

– Necə? – dedi, – Çölün iti nə cəsarətlə mənim qızımın adını tutur? Vallahi, bir də bu sözü eşitsəm, onu tikə-tikə doğrayıb itlərə ataram.

Lakin iş-işdən keçmişdi. Əsəd çobançılığı buraxıb dağa-daşa düşmüşdü, yemir-içmir, "Mədinə" deyə-deyə gəzirdi. Sonralar, deyəsən, ona vergi verildi, özündən söz qoşub oxuyurdu. Sözü-söhbəti də ki, Mədinə idi. Başqa söz soruşsaydın, cavab vermirdi.

Aradan bir neçə ay keçdi. Əsədin Mədinənin eşqindən Məcnun olub çöllərə düşməyi məsələsi hər yana yayıldı: məclislərdə danışıldı, xeyirdi-şərdə deyildi. Axırda el ağsaqqalları Süleyman xanın yanına gedib dedilər:

– Xan sağ olsun, Əsəd Mədinənin dərdindən dəli-divanə olub. Müsəlman bəndədir, nə olar kasıb olanda. Gəl sən bir savab iş tut, iki aşiq-məşuqu bir-birinə qovuşdur.

Süleyman xan gördü ki, burada xoş cavab vermək məsləhətdir. Odur ki, dedi:

– Çox sağ olun ki, zəhmət çəkib gəlmisiniz, amma gərəkdir mən də qızımın rəyini bilim. Əgər onun da məramı olsa, mənim sözüm yoxdur.

Hamı razılıq eləyib getdi. Xan tələsik qızını yanına çağırtdırdı, qapını örtüb astadan dedi:

– Qızım, çoban Əsəd dəli olub, çöllərə düşüb. Camaat deyir, guya sənin dərdindəndir. Bu necə olan sözdür?

Mədinə bir qədər tutulsa da:

– Dədə, – dedi, – gərək məni bağışlayasan. Sən soruşursan, mən də cavab verirəm. Düzünə qalsa, mən bu söhbəti çoxdan bilirəm.

Xan hirsini güclə boğdu:

– Deməli, sənin də məramın var?

Mədinə daha dinmədi. Xan onu bir otağa salıb qapını qıfılladı; çörəyi-suyu kiçik pəncərədən verdirdi. Ağsaqqallara da xəbər gönrdərdi ki, qızımın Əsədə könlü yoxdur, ona deyin, daha Mədinənin adını çəkməsin.

Lakin Əsəd gündə yüz dəfə "Mədinə" deməsə, ona şeir qoşmasa, yaşaya bilmirdi.

İşi belə görən Süleyman xan qazını yanına çağırdı. Bir qədər pul verib yola gətirdi. Sabahı günü qazı hökm verdi:

– Özgənin qızının adını çəkdiyi, onu rüsvay elədiyi, şəriətə zidd getdiyi üçün Əsədin qanı halaldır.

Xanın adamları tez Əsədi tutub uca bir qayadan atdılar. Qorxudan heç kim onun meyidinə də yaxın durmadı.

Əsədin öldürülməsi xəbəri Mədinəyə çatan kimi o, kənizlərdən birinə boyunbağısını verib qapını açdırdı və birbaşa Əsədin atıldığı qayaya tərəf qaçdı. Aşağıda Əsədin nəşini görüb "səni orada tək qoymaram" – deyə özünü qayadan atıb öldürdü.

O vaxtdan bəri həmin qayaya "Qanlı qaya" deyiirlər.

## LALƏ ƏFSANƏSİ

Xanzadə-bəyzadələr kef məclisinə toplaşmışdılar. Söz gözəllərdən düşəndə birisi dedi:

– Əgər siz Hüseynqulu kişinin qızı Laləni görsəniz, deyərsiz ki, daha dünyada bundan savayı gözəl yoxdur.

Bu, hamını çox maraqlandırdı. Kefdən, şərabdan başı dumanlanmış dəliqanlı əsilzadələrin bir neçəsi Lalənin gözəlliyinə tamaşa etmək üçün atlanıb yola düşdülər. Gündüzün günorta çağı Hüseynqulu kişinin evinə basqın edib qızı qapıya çəkdilər. Gördülər ki, həqiqətən də bunun tayı heç mahalda yoxdur. Cəld qızın əl-qolunu bağlayıb ata qoydular və dağlara çəkildilər.

Dağda qızı yerə düşürtdülər. Qızın gözəlliyindən ağlını itirmiş cavan xanzadələrin hər birisi qıza sahib olmaq istəyirdi. Heç kim o birinə güzəştə getmir, biri o birinin sözünü eşitmirdi.

Nəhayət, xanzadələrdən biri dedi:

— Bura baxın, bir qız nə şeydir ki, ondan ötəri bir-birimizlə pozuluşuruq? Biz altı nəfərik, narazı olmamaqçın gəlin qızı qılıncla altı yerə bölək, qurtarsın getsin.

Hamı ucadan şaqqanaq çəkib güldü və qızın əl-qolunu açıb "qaç" dedilər. Lalə ağ güllər bitmiş çəməkliyə tərəf qaçdı. Əsilzadələr atlandılar, qılınclarını siyirib qıza hücum etdilər. Qız qaçdıqca bunlar qılıncla onu yaralayırdı. Qızın axan qanı ağ çiçəklərin üstünə töküldükcə çiçəklər qızarırdı.

Qız bir xeyli qaçıb dayandı; əsilzadələr onu doğram-doğram eləyib, gülüşə-gülüşə çıxıb getdilər.

Lalə öldü. Lakin onun qanına bulanmış ağ çiçəklər sonradan həmişə al rəngli çiçək açdı. O vaxtdan həmin çiçəklərə "Lalə" deyirlər.

## ŞƏHİDLƏR

Nadir şahın qoşunları Şamaxıya yaxınlaşırdı. Acı dərənin qırağındakı kiçik köçəri obasının igidləri belə qərara gəldilər ki, tez şəhərə xəbərə getmək, camaatı davaya dəvət etmək lazımdır. Obada cəmi on iki kişi var idi. Onlar nə edəcəklərini bilmirdilər: əgər getməsələr, nizami qoşun onsuz da obanı dağıdıb Şamaxıya gedəcək, qəfil hücumla şəhəri alacaq; yox, əgər getsələr, bəs bu qoşunu heç olmazsa, bir-iki saatlığa kim ləngidəcək?

Onlar bu barədə söhbət edəndə obanın qız-gəlini yaxınlaşdı. Qadınlar onların vəziyyətini bilib dedilər:

– Siz şəhərə, elə-obaya xəbərə gedin, biz sizin paltarlarınızdan geyib qoşunun qabağını kəsərik; onu Acıdərədən keçməyə qoymarıq. Gün batana siz də gələrsiz, kömək də yetişər.

Kişilər atlanıb şəhərə doğru çapdılar. Qız-gəlin kişi paltarı geyib Nadirin qoşununun qabağını kəsdi. Onlar şirnər kimi vuruşur, qoşunu dərəni keçməyə qoymurdular. Dərədən güclü sel axırdı, odur ki, qoşun mütləq obanın qabağındakı əldəqayırma körpüdən keçməli idi, oranı da qadınlar kəsmişdi.

Nadir şah aralıdan baxıb körpünün o tayına cəmi onon beş nəfərin qoşunun qabağını kəsmiş olduğunu gördü. O, acıqlandı:

– Utanmırsınız, – dedi, – onlar ki, cəmi on-on beş nəfərdir. Gün batmamış bu lənətə gəlmiş dərəni keçib Şamaxı görünən yerə çıxmaq lazımdır. Gedin mənim adımdan əsgərlərə deyin ki, körpünü keçəndən sonra onların hərəsinə üç qızıl veriləcək, dərəni keçən kimi Şamaxı görünəcək və orada hamısı çoxlu qənimət alacaq. Haydı, irəli, hücum!

Nadirin əmri qoşunu həvəsləndirdi, əsgərlər sel kimi körpüyə sarı axmağa başladı. Lakin müdafiəçilər körpüdən çəkilmədi. Nəhayət, onların qüvvəsi zəiflədi, oxları qurtardı; yaralansalar da, körpüdən çəkilmədilər.

Qoşun yeni bir qüvvə ilə hücuma keçib müdafiəçilərin hamısını qılıncla doğradı və körpünü keçdi. Nadir bu igid adamların kim olduğunu bilmək üçün onlardan birinin papağını götürdü və təəccübdən donub qaldı – bu, kişi paltarı geymiş qadın idi. Şahın əmrilə o biri müdafiəçilərin də papağını götürüb qadın olduğunu gördülər.

Həmin qadınları şəhid kimi paltarlı dəfn etdilər.

Həmin qəbirlərə o zamandan bəri "Şəhidlər" deyirlər.

## DƏLİ PİLPİLƏ

Hacı Rəsul əfəndinin yeganə oğlu Səlim atasının təklifinə qol qoymur, Alxas bəyin qızını almağa razı olmurdu. Nəhayət, əfəndi bunun səbəbini öyrənə bildi. Sən demə, Səlim misgər Səbzəlinin qızı Məleykəni sevirmiş.

Hacı Rəsul əfəndi hirsindən bilmədi nə eləsin: əvvəl oğlunu yanına çağırıb çox məzəmmətlədi, yalvardı, "məni Alxas bəydən ayırma", "qanımı it qanına qatma" – dedi. Gördü bundan bir şey çıxmır. Sonra hədə-qorxu gəldi, yenə bir nəticəsi olmadı. İşi belə görən əfəndi Səbzəliyə xəbər

göndərdi ki, qızının əl-ayağını çöldən yığsın, axırı yaxşı olmaz. Arada-bərədə söz gəzdirən arvadlara bir az pul verib öyrətdi ki, hər yerdə Məleykəyə qara yaxsınlar, sonra da biir fəndlə bunu Səlimə çatdırsınlar.

Lakin bütün bunların heç bir naicəsi olmadı – Səlim sözündən dönmədi, "Məleykə hər nə cür olsa, qəbulumdur" – dedi.

Hacı Rəsul əfəndi bu yolla bir iş görə bilməyəcəyini başa düşüb başqa çarəyə əl atdı. Kimin qəfil inəyi-camışı öldü, kitaba baxıb dedi ki, misgər Səbzəlinin qızının iştahatlarına görə Allahın camaata qəzəbi keçir; kimin uşağı xəstələndi, yenə həmin sözü dedi; qəflətən öləni, oğurluğu, çapqınçılığı, ziyanı, xəstəliyi, itiyi – hər bir işi Məleykənin "bəd əməllərinə" görə Allahın cəzası, qəzəbi elan etdi. Bir neçə arvada pul verib şəhərin canına saldı. Bu arvadlar and içib, aman eləyirdilər ki, guya Məleykəni gecələr başı açıq çayda hal anası ilə danışan, gecə ciyər yuyan, qəbristanda qəbir eşən, əxlaqsızlıq edən və s. görüblər. Yavaş-yavaş camaat bu söz-söhbətə inandı və əfəndidən bunun çarəsini soruşdu.

Əfəndi birdən-birə cavab vermədi, kitaba guya beş gün baxdı və axırda dedi:

– Kitab göstərir ki, nə qədər bu cindar, goreşən, əxlaqsız qız sağdır, Allahın dərdi-bəlası bu şəhərdən əskik olmayacaq. Gərək o qızın əli-ayağı sarına, diri-diri pilpiləyə atıla ki, yerin təkinə gedə; yoxsa onu heç torpaq qəbul eləməz.

Elə həmin gün biçarə Məleykəni tutub sarıdılar və şəhərdən xeyli aralıda yerləşən pilpiləyə atdılar.

O gecə pilpilə guruldadı, nərə çəkdi, daşı, palçığı çölə tökdü, od püskürdü, səsindən yatmaq mümkün olmadı.

İllərdən bəri səsi eşidilməyən pilpilə o vaxtdan daha susmadı, uğuldadı, guruldadı, səs-küy saldı, sanki dəli olmuşdu.

Həmin pilpiləyə camaat "Dəli pilpilə" deyir.

## ZÖHRAB QALASI

Zöhrab kəndin ən gözəl, ən igid cavanlarından idi. Sözü düz, əməli düz cavandı. Hamı onun xətrini əziz tuturdu. Axır vaxtlarda kəndə belə bir söz yayılmışdı ki, guya Zöhrab, Saleh xanın qızı Güləndama aşiq olub.

Söz xana çatanda o, tədbirini pozmadı; nə acıqlandı, nə də çığır-bağır saldı. Əvvəlcə Zöhrabın özünü çağırtdırıb bu sözün düz olduğunu bildi. Sonra isə kənd ağsaqqallarını çağırtdırıb təmkinlə dedi:

– Şübhəsiz ki, siz də eşitmisiniz: Zöhrab mənim qızımı istəyir. Hərçənd o, nəinki xan-bəy, heç bir əməlli nəsildən də deyil; hərçənd malı-pulu, adlı qohumu-əqrəbası yoxdur; hərçənd bir babət dam-daşı da yoxdur, amma mən bunlara əhəmiyyət vermirəm. O da özü üçün bir adamdır. Amma gərəkdir ki, heç olmazsa, bir şücaət göstərsin ki, mən də el içində başı aşağı olmayım: deyim ki, qızımı filan şücaət sahibinə vermişəm. Mənim belə bir istəyim var: Zöhrab, kəndimizin ayaq tərəfindəki təpənin başında bir qala tiksin, bacarığını göstərsin. Qala tikilib başa çatan kimi özüm toy eləyib qızımı ona verim. Ona gərək olan köməkçiləri, daşı da özüm verəcəyəm.

Ağsaqqallar razılıq edib getdilər. Zöhrab bu təklifi xoşhallıqla qəbul elədi. Sabahı günü xanın əmrilə qala tikilən yerə daş daşındı, Zöhraba çoxlu köməkçilər verildi.

Zöhrab işə başladı. O, gecə-gündüz bilmir, yorulmur, dincəlmir, dayanmır, qalanı tezliklə bitirməyə çalışırdı.

İki ay keçdi. Qala qurtarmaq üzrə idi. Xan özü gəlib tikintiyə baxdı, razılığını bildirdi.

Qalanın axırıncı daşları qoyulurdu. Xan öz yaxın adamları ilə aşağıdan işə göz qoyurdu. Zöhrab axırıncı daşı da qoyub yuxarıdan:

– Xan sağ olsun, – dedi, – mən öz işimi bitirdim. İndi sən də əhdinə vəfa et.

O, bu sözü deyib qurtarmışdı ki, onun əlinə palçıq və daş verən adamlardan biri aşağı baxdı. Xan əlini saqqalına çəkdi. Elə o saat köməkçilərdən birisi Zöhrabı qalanın başından yerə itələdi. Zöhrab yerə dəyib həlak oldu.

O vaxtdan həmin qalaya "Zöhrab qalası" deyirlər.

## QIRXLAR GÖLÜ

Avar xanı Xasay xanın bu dəfəki basqını xüsusilə gözlənilməz olmuşdu. Basqınçılar bir neçə kəndin bütün var-dövlətini, xalça-palazını almış, heyvanatını aparmışdı. Onlardan biri özünü xüsusilə pis aparmış, gəlinlik pərdəsinin dalında gizlənmiş gözəl bir gəlinə əl atmaq istəmişdi. Gəlinin harayına obanın adamı tökülüb gəlmiş və basqınçını öldürmüşdülər.

Tələm-tələsikdə Xasay xan bunu bilməmiş, talan edilmiş var-dövləti, heyvanatı çəkib aparmışdı. Üç gündən sonra o, yenidən obaya qayıtmış və qanlısını tələb etmişdi. Ona vəziyyəti danışmış və izah etmişdilər ki, bu iş bir nəfər tərəfindən yox, basırıqda hamı tərəfindən olub.

Xasay xan dəli kimi qızmış, həmin obanın camaatını kəndin kənarından axan çayın qırağına yığmışdı. Orada çay sahilində dərin bir çala qazdırmış, obanın qırx nəfər kişisini bir-birinə bağlatdırıb çalaya salmış, üstlərinə daş düzmüş və çayın suyunu çalaya axıtmışdı.

O zamandan həmin çalaya "Qırxlar gölü" deyirlər.

## DİRİ QƏBRİSTANI

Kəndə vergi yığan təyin edilmiş ərəb özünü çox pis aparır, qıza-gəlinə sataşırdı. Lakin ərəblərin cəzaları o qədər dəhşətli idi ki, gözü qorxmuş adamlar dinə bilmirdilər.

Bir müddətdən sonra ərəblərin başqa bir nümayəndəsi də kəndə gəlir və vergi yığan ərəbin evinə düşür. Bu ərəb kənddəkindən də pozğun olur və onun evində saxladığı kiçik qız uşağına sataşır. Bunun üstündə iki ərəb bir-birilə vuruşur və qılınc yarasından hər ikisi ölür.

Kənddə iki ərəbin ölməsi xəbəri ərəb hakiminə yetişir. O, qoşun dəstəsilə kəndə gəlib camaatı bir yerə yığır və bu ölümün səbəbini soruşur. Hadisəni olduğu kimi ona danışırlarsa da, hakim inanmır, ərəblərin öldürülmüş olduğunu bildirir və qatili tələb edir.

Heç bir and-amana inanmayan hakim camaatı kəndin qırağına çıxartdırır; əllərinə bel verib qəbir qazmağa məcbur edir. Sonra adamları qəbirlərə saldırıb diri-diri üstlərini torpaqlatdırır.

O vaxtdan həmin qəbristana "Diri qəbristanı" deyirlər.

# QIZ DAŞI

Heybət kişi ilə arvadı selə düşüb ölmüşdülər. Bunların altı uşağı qalmışdı. Böyüyü on beş yaşlı Durna idi. Qız çox gözəl, ucaboy və şirindil idi.

Molla Qədir yas yerində qaldığı qırx gün ərzində Durnadan gözünü çəkə bilmirdi; dili yasindən, Qurandan, şəriətdən danışırdısa da, ürəyi Durna ilə məhəbbətdən bəhs edirdi. O, arzu edirdi ki, bu evdəki yas qurtarmasın, Durna da səhər-axşam ona çay-çörək gətirsin, dəstəmaz üçün su versin, "sabahın xeyir", "axşamın xeyir" desin. Lakin onun arzusuna baxmayaraq qırx gün başa çatdı və Molla Qədir evinə qayıdası oldu.

Evdə olduğu günlərdə molla başa düşdü ki, Durnasız dayana bilməyəcək. Gecəni sabaha kimi guya Quran oxuyur, əslində isə xəyalən Durnaya öz eşqindən danışırdı. Molla Qədir cavan deyildi. Əgər altmışı haxlamasaydı, bəlkə də heç utanıb-eləməz, el adətincə Durnanı istərdi. Amma bu, mümkün olan iş deyildi. Onun evdə üç arvadı vardı, oğul nəvəsi Durnanın tayı idi.

Molla Qədir çox fikirləşdi, axırda düşünüb bir hiylə tapdı. Zülmət gecələrin birində büsbütün ağ parçaya bürünüb, üz-gözünü sarıyıb Durnagilin qapısına gəldi, astadan pəncərəni döydü. Durna qorxmuş halda:

– Kimsən? – deyə soruşdu.

Molla səsini dəyişdirib yavaşca dedi:

– Qızım, mənəm, dədənəm. Sizin üçün çox darıxmışam. İnkir-minkirdən bu gecəlik izn alıb gəlmişəm, sabah üzü gərək qəbrə qayıdam. Qapını aç.

Durna sevincək qapını açdı və ağ kəfənli mollanı içəri buraxdı. Molla onu azdırmaq üçün bir-bir yatmış uşaqların üzündən öpdü, sonra isə Durnanı sinəsinə basdı.

Durna qaranlıq içərisində sevindiyindən nə edəcəyini bilmirdi; "dədəsinin" başına tovlanırdı. Nəhayət, molla dedi:

— Ay bala, sabaha az qalır, gəl bir hovur dədə-bala uzanıb yataq, sonra mən getməliyəm. Yoxsa inkir-minkir məni incidər, nə də daha evə buraxmaz.

Molla Durnanı qucağına alıb uzandı və bir qədər sonra yuxulamaqda olan qızı zorladı. Sonra isə:

– Ağlama, qızım, – dedi, – bu gerçək iş deyil, ölülərdə belə şey olar. Heç qorxub eləmə, nə də mənim gəldiyimi bir adama danışma.

Molla Qədir bundan sonra bir neçə dəfə də həmin fırıldaqla evə girir və Durnaya sataşırdı.

Nəhayət, bir neçə aydan sonra qızın hamilə olması xəbəri kəndə yayıldı. Qız ağlaya-ağlaya danışır, dədəsinin gecələr gəlib onunla yatdığını deyirdi.

Buna, əlbəttə ki, heç kim inanmadı; söz-söhbət böyüdü, ağsaqqallara çatdı. Onlar Molla Qədirlə məsləhətləşdilər. Molla kitaba baxıb dedi:

– O qıza cin-şəyatin sataşıb. Onun sağ qalmağı kəndə ziyan verər. Şəriət qanununa görə gərək o, daşqalaq edilsin.

Durnanı kənddən aralı bir yerdə daşqalaq elədilər. Qız, daşların altında qalıb öldü. Üstündə iri bir daş təpəsi əmələ gəldi.

O daş yığınına "Qız daşı" deyirlər.

# QIZ QALASI

İmran bəyin arvadı sancı çəkirdi. Altı qızı olan bəy oğul arzusunda idi. İntizarla şad xəbər gözləyirdi. Muştuluğa gələnlər üçün məcməyiyə qızıl, faxir libas, tirmə, zər-ziba yığmışdı. Qohum-əqrəbası da yanında idi. Nəhayət, qonşu binadan "Allah, sənə şükür!" sədası eşidildi. Bəyin ürəyi yerindən oynadı: "Görəsən bu şükür oğlan olduğunadır, yoxsa arvadın səlamət qurtarmağına?" – deyə düşündü.

Bu vaxt zahının yatdığı otaqda da bərk narahatçılıq və həyəcan vardı. Bəyin arvadı yenə qız doğmuşdu. Lakin nə o, nə də bahalı xələt gözləyən mamaça bu sözü bəyə deməyə cəsarət etmirdilər. Nəhayət, mamaça ayağa durub:

– Rəhmətliyin qızı, – dedi, – bəy bizə can verib can almayacaq ki… özüm gedib deyərəm.

O, qapıya çıxdı, kişilər olan binaya tərəf yeridi. İmran bəy mamaçanın özünün gəlməyini şad xəbər bilib, məcməyini əlinə götürüb özünü həyətə atdı. Yazıq mamaça duruxub durdu, bəyi pərişan eləmək istəmədi. Bəy xələtlər olan məcməyini onun başına qoydu. Bəyin qohum-əqrəbası da geri qalmadı, hamı mamaçaya xələt, bəyə gözaydınlığı verdi.

Bir dəqiqədə elə-obaya səs düşdü; uzaq-yaxın qohumlar muştuluq verdi. Mamaça özünü zahının yanına salıb:

– Şabəyim, səni and verirəm Allaha, bəyi məyus eləmə. Dilim gəlmədi deyəm ki, qız olub. Bəy oğul bilir, aləm yerindən oynayıb.

Zahı çaş-baş qaldı:

– Ay nənə, nə danışırsan?! Bu boyda zarafat olar?! Belə şeyi gizlətmək olar?!

Elə bu dəmdə qapının ağzından səslər gəldi, bəy qapını açıb kandardan:

– Şabəyim, – dedi, – sən ki, məni oğulsuz qoymadın, sənin ayağını qızıla tutacağam.

Şabəyimin zahılığı uzun çəkdi, dörd-beş ay yorğan-döşəkdən dura bilmədi. Tərslikdən bu müddətdə mamaça da öldü. Şabəyim dərdini kimə deyəcəyini bilmir, günü-gündən əriyirdi. İmran bəy hərdən otağa baş çəkir:

– Ay evimin dirəyi, — deyirdi, — nəyin fikrin çəkirsən? Allaha şükür, malımız-dövlətimiz, cavan canımız, altı qızımız var, bu da oğlumuz. Daha bu dünyada bizim nə dərdimiz nə ola bilər?

Şabəyim dinmirdi. Uşaq bir yaşa gəlmişdi, lakin hələ də atası onu bələksiz görməmişdi.

Şabəyim çox fikirləşəndən sonra yad yerdən gəlmiş mollanı xəlvəti yanına çağırdı. Ona xeyli pul verib dedi ki, sabah gündüz bura gəl, bəyin yanında fal aç, de ki, gərək təcili oğlun üçün kəndin kənarında bir qala tikdirəsən, arvadın və oğlun orada qala, bir bəni adəm onları on beş il görməyə. Əgər belə olmasa, hər ikisi öləcək.

Səhəri günü molla bu sözləri bəyə dedi. Bəy tez əl-ayağa düşdü, bir-iki aya qalanı tikdirdi, arvadını və oğlunu qalaya qoydu; qapısını qıfılladı, yemək-içməyi kiçicik pəncərədən verdirdi.

Qalada bir neçə otaq, rahatlıq üçün hər cür şərait var idi. Şabəyim bir az sakitləşdi. Hər gün pəncərədən ərini, uşaqlarını görürdü.

Xan uşağın adını Murad qoymuş, "Allah muradımı verdi" deyir, pəncərədən də olsa, onu görmək istəyir, lakin görə bilmirdi. Hərdən gün batandan sonra Şabəyim onu

oğlan paltarında qalanın başına çıxardırdı ki, atası və bacıları aralıdan görsünlər. Belə vaxtlarda bəyin uçmağa qanadı olmurdu.

Aradan səkkiz il gəlib keçdi. Bir gün bəy pəncərənin ağzına gəlib dedi:

– Şabəyim, bilirəm çox əziyyət çəkirsən. Amma bir iş var ki, gərək Murad sünnət oluna. Bəs buna nə çarə?

Şabəyim bunu çoxdan gözləyirdi. Odur ki, dedi:

– Ay kişi, sən ülgücü, qarğını, külü mənə göndər, əlac nədir, özüm sünnət elərəm.

Ertəsi gün bəy oğlu üçün sünnət toyu elədi. Sonralar birbəbir qızlarını ərə verdi, oğlu ilə arvadı isə hələ də qalada dustaq idilər.

Nəhayət, on beş il gəlib keçdi. Bəy və əqrəbası gəlib qalanın qapısını açdılar. Bəy oğlunu görəndə aralıdan ağladı; o qədər gözəl, incə, boy-buxunlu idi ki, deyirdin, ikinci Yusifdir.

Bəy, oğluna müəllim tutdu, oxutdu, tərbiyəçi tutdu: at minməyi, qılınc vurmağı öyrətdi.

Nəhayət, Muradın on səkkiz yaşı tamam olanda bəy dedi:

– Şabəyim! Daha qocalmışıq, gəlsənə Muradı evləndirək, arzumuz gözümüzdə qalmasın.

Şabəyim bir az karıxsa da, "hələ onun nə evlənən vaxtıdır" desə də, ərinə cavab qaytara bilmədi.

Ertəsi gün İmran bəy qonşu kəndli Səfəralı bəyin qızına elçi getdi, nişan taxdı. Bir aydan sonra toy elədi.

Laikn Murad toy gecəsini yalnız qalada keçirəcəyini bildirdi. İmran bəy nə illah elədisə də, Murad sözündən dönmədi.

Bəy tərifindən sonra Muradı və gəlini qalaya apardılar. Toy davam edirdi. Birdən kəndə səs yayıldı ki, bəy Muradla Şabəyim özlərini qaladan atıblar.

Toy yasa döndü. Meyidlər yuyularkən sirr açıldı: Muradın qız olduğu bilindi.

O vaxtdan həmin qalaya "Qız qalası" deyirlər.

## CANLI DİVAR

Şəhər əhlindən kimsə bəylərbəyi Saleh paşanın sevimli atının gözünü vurub çıxartmışdı. Paşa çox axtardı, soruşdu, vəd verdi – günahkarı tapa bilmədi. Axırda camaatdan iyirmi nəfər cavan, igid oğlan seçdi:

– Atın gözünü çıxardanı verməsəniz, bunları əza-cəza ilə öldürtdürəcəyəm – dedi.

Heç kim müqəssiri tanımadığı üçün dillənmədi. Belə olduqda Saleh paşa həmin iyirmi nəfəri bir-birinə zəncirlə bənd elətdirdi, bir-birindən aralı saxlatdırıb onları divar hörürmüş kimi daşla divara hördürməyə başladı.

Yenə müləssiri deyən olmadı.

Paşanın əmrilə otuz metr uzunluğunda, iki metr hündürlüyündə bir divar hördülər – iyirmi nəfər cavan oğlan hörgünün arasında qaldı. Bir neçə gün divardan zarıltı səsi gəldi.

O vaxtdan həmin divara "Canlı divar" deyirlər.

## SƏFİ QAZNAĞI

Tacir Heydərin Səfi adında aman-zaman bir oğlu vardı. Malının-dövlətinin hesabı yox idi. Amma Səfini mal-dövlət yox, ovçuluq maraqlandırırdı. Səhər-axşam işi-peşəsi dağda-daşda gəzib quş, heyvan ovlamaq idi. Çox vaxt gecəni də evə gəlmir, dağda, meşədə gecələyirdi.

Günlərin birində Səfi dağdan evə qayıtmadı; dedilər "yəqin dağda qalıb". Lakin o, sabahı günü də gəlmədi. Belə olanda onun atası narahat oldu, xeyli adam götürüb oğlunu axtarmağa getdi. Onlar çox gözlədilər, Səfi tapılmadı. Nəhayət, beş gündən sonra bir mağaraya rast gəldilər. Mağaranın ağzında Səfinin tüfəngi və papağı qalmışdı, ayaq izləri aşağı gedirdi. İzi tutub getdilər; iz sal daşa çatıb yox olmuş, geri qayıtmamışdı. .

Tacir Heydər yüzlərlə adam çağırıb mağaranı qazdırdı, sal daşı çapdırıb atdırdı, lakin izlər yenə aşağı gedirdi. Tacir bütün var-dövlətini torpaq qazmağa, torpaq atmağa sərf elədi, amma oğlunun nə ölüsünü, nə də dirisini tapa bilmədi. Artıq nəhəng bir qaznaq – çökək əmələ gəlmişdi. Birdən qaznağın dibindən güclü bir fəvvarə vurmağa başladı. Az bir vaxtda qazılmış yer su ilə doldu. Səfinin gəzdiyi yerlərin quş və heyvanatı bu suyun ətrafına cəmləndi. Səfi təbiətdən getdisə də, təbiət üçün şirin sulu bir qaznaq qoydu.

O vaxtdan həmin çökəyə "Səfi qaznağı" deyirlər.

## YEDDİ QURBAN

Məhəmməd xanın beş arvadı var idi. Lakin heç birisindən övladı olmurdu. Xanın yenidən evlənmək fikrinə düşdüyünü duyan arvadları bəxtlərindən gileylənirdilər. Lakin Səfiyə adlı kiçik arvadı cindara baxdırdı ki, görsün onun övladı olacaq, ya yox

Cindar kitaba baxıb dedi:

– Xanım, sənin taleyində övlad var. Amma o zaman uşağın olacaq ki, sən bir gündə yeddi qurban kəsəsən.

Səfiyə dərindən ah çəkdi:

– Ay qardaş, yeddi qurban nə olan şeydir, istəyirsən lap yetmişini kəsim, təki övladım olsun.

Cindar başını buladı:

– Xanım, – dedi, – mən mal-heyvan qurbanı demirəm. Kitab göstərir ki, gərək sən övladın olmaq üçün yeddi nəfər adamı qurban kəsəsən.

Səfiyə dəli kimi yerindən sıçradı:

— Necə? Adamı qurban kəsim? Özüm?

— Bəli. Kitab belə göstərir: gərək sən özün bir gündə yeddi adamı qurban kəsəsən.

Səfiyə kor-peşiman evə qayıdırdı. Birdən gözü məscid qabağında pay yığan dilənçi arvada sataşdı: onun yanında irili-xırdalı altı nəfər uşaq var idi.

Səfiyə ani olaraq ayaq saxladı:

– Bunlar ana-bala düz yeddi nəfərdir. Bəlkə elə bunları…

O gündən Səfiyə dəli kimi gəzdi, gülüb-danışmadı, əli bir işə yatmadı. Nəhayət, "mən ana olmaq istəyirəm" deyib, məscid qabağına getdi. Orada dilənən arvadı yetimlərilə bərabər sarayın uçuq-sökük evlərindən birinə gətirdi. Yedi-

rib-içirib bihuşdarı verdi. Hamısı dərin yuxuya getdi. Onda Səfiyə irəlicədən hazırladığı xəncəri götürüb bu yeddi nəfərin hamısının başını kəsdi.

Səhər saray həyatində yeddi nəfərin qətl olunduğu məlum oldu. Xan qəzəblənib, neçə-neçə günahsız adamları döydürdü. Heç kim qatili tapa bilmədi.

Onları qəbristanda yan-yana basdırdılar. O vaxtdan o qəbirlərə "Yeddi qurban" deyirlər.

## NAZLI ƏFSANƏSİ

Ərəblər uca dağ başındakı kiçik kəndi mühasirəyə almışdılar. Kənd əhalisi nə müsəlmanlığı qəbul etmir, nə də təslim olmurdu. Kəndə çıxmaq üçün bircə cığır var idi ki, onu da kənd əhalisi qoruyur, ərəblər ora ayaq basan kimi daşları aşağı yuvarladıb onları qırırdılar.

Son günlərdə ərəblər daha cığıra yaxınlaşmır, kənd əhalisinin yemək-içmək ehtiyatının qurtaracağını, təslim olacağı günü gözləyirdi. Mühasirədə olan kənd əhalisinin vəziyyəti, doğrudan da, çox ağır idi. Yemək bir yana dursun, içmək üçün bir qaşıq su da qalmamışdı. Lakin heç kəs təslim olmaq barəsində düşünmür, başqa çıxış yolu axtarırdı.

Kənddə Nazlı adlı bir gözəl qız var idi. O, xəstə anasına vermək üçün bir qaşıq suya canını da əsirgəməzdi. Lakin su yox idi. Düzdür, su dağın dibindən, ərəblərin düşərgəsinin qabağından axırdı, lakin ərəblərin keşikçiləri çox sayıq olurdu. Onlar suyu göz bəbəyi kimi qoruyurdular.

Nazlı aşağı baxıb gördü ki, bu gün də çayın qırağında keşik çəkən dünənki cavan ərəbdir. O, ərəbin diqqətini cəlb

etmək üçün aşağıya bir neçə xırda daş atdı. Ərəb yuxarı baxıb qızı gördü və gülümsündü.

Gecə düşdü. Nazlı yatmadı, anasına su tapmaq ümidilə yenə aşağı baxdı – cavan ərəb yenə də çayın qırağında idi. Nazlı xırda daşlardan birini aşağı atdı. Ərəb tez yuxarı baxdı və aşağı əyilib suyu şappıldatdı. Nazlı "hərçi badə bad" deyib kəndirin ucuna bağladığı su qabını aşağı salladı. Ərəb qabı açıb su doldurdu və yenidən ipə bağladı. Nazlı suyu yuxarı çəkib xəlvətcə anasına və başqa susuzluqdan huşunu itirənlərə verdi.

Növbəti gecə də beləcə ərəb Nazlıya su verdi.

Üçüncü gecə ərəb su vermədi, ipi yelləyib sanki Nazlıya nəsə demək istəyirdi. O, düşərgədən xeyli aralandı və işarə ilə Nazlını aşağıya çağırdı. Nazlı nə edəcəyini bilmədi. Ona su lazım idi: anası üçün, qohumları üçün — eli üçün, müdafiə üçün su gərək idi. Su da ərəbdə idi. Ərəb isə onu yanına çağırırdı. Getmək – rüsvay olmaq, ölmək, getməmək – susuzluqdan ölmək, məğlub olmaq demək idi.

Nazlı birinci yolu seçdi. O, yalnız özünün bildiyi xəlvəti cığırla dağdan aşağı enib ərəbə yaxınlaşdı. Ərəb əlini ürəyinə, başına qoyur, astadan öz dilində nəsə deyir, ehtimal ki, məhəbbətini bildirirdi. Onlar bir müddət beləcə gəzişdilər. Sonra Nazlı qabını su ilə doldurub geri qayıtdı.

Bir neçə gecə beləcə təkrar olundu. Müdafiə olunanlar suyun nə yolla əldə edildiyini, ərəblər isə mühasirədəkilərin susuzluğa nə üçün bu qədər dözdüyünü öyrənməyə çalışır, nəzarəti gücləndirirdilər. Hər iki tərəf sirdən agah oldu: ərəblər qızla oğlanı çayın qırağında tutdular. Oğlanı xəyanət etdiyinə, düşmənə satıldığına görə yandırdılar. Nazlını isə dağın dibinə gətirdilər ki, ölümünü mühasirədəkilər

yaxşı görə bilsinlər. Nazlı aşağı endiyi cığırı dağlardakılara göstərdi, xəlvəti enib su götürmək mümkün olduğunu ucadan dedi.

Ərəblər onun nə dediyini anlamadılar, belə güman etdilər ki, qız yalvarır, aman istəyir. Onlar qızı da dağın dibində yandırdılar.

Lakin ərəblər təəccüb qaldı. Mühasirə davam etsə də, dağdakılar təslim olmurdu. Nazlı ölsə də, öz işini görmüş, xəlvəti aşağı enmək yolunu yuxarıdakılara demişdi. Mühasirədəkilər gecənin qaranlığından istifadə edərək iki-üç gecədə həmin cığırı enib, mühasirədən çıxıb uzaq dağlara çəkilmişdilər.

## GÖYÜN QƏZƏBİ

Çox qədim zamanlarda buğdanın sünbülü taxılın bitkisinin gövdəsi boyunca olurdu. Məhsul çox bol idi. Lakin insanlar taxılın bolluğunu görüb onu qənaətlə işlətmir, qədrini bilmirdilər.

Bir gün bir qadın sacın üstündə yuxa bişirirdi. Bu zaman dəhlizdə iki yerə çirkab tökülmüşdü. Qadın yuxanın birini götürüb onunla çirkabı silmək istədi. Bu vaxt göydən nida gəldi:

— Al bu ipək yaylığı, çirkabı bununla sil!

O dəqiqə göydən bir yaylıq düşdü. Qadın gördü ki, bu, çox gözəl, zərif, ipək yaylıqdır. Tez büküb qoltuğuna vurdu ki, buşıma bağlayaram. Yenə də yuxa ilə çirkabı silməyə hazırlaşırdı ki. göydən yenə də bir yaylıq düşdü və səs gəldi:

– Götür bu yaylığı, çirkabı bununla sil!

Qadın gördü ki, bu yaylıq əvvəlkindən də gözəl və qiymətlidir. Hayıfı gəldi, bunu da qoltuğuna vurdu, çirkabı isə yuxa ilə silib həyətə düşdü.

Göyün buna qəzəbi tutdu. O dəqiqə taxıllardakı sünbülü yox etmək, insanları acından qırmaq qərarına gəldi. Sünbül yavaş-yavaş, gövdə boyunca yuxarı qalxmağa başladı. Sünbül lap azacıq, indiki qədər qalanda itlər hürüşməyə başladı:

– Ey göylər, bizim payımızı saxlayın!

Göyün bütün heyvanata rəhmi gəldi, sünbülün bir azacığını saxladı. İşi belə görən qadın özünü irəli atdı, lakin göyün qəzəbindən dönüb alaq otu – bəlküm oldu. İndi də taxıl olan yerdə mütləq bəlküm otu olur.

## SALXIM SÖYÜD

Sayad çox qənirsiz gözəl idi, uca boylu, uzun saçlı bir qız idi. Yeddi qardaşın bir bacısı idi. Onu çox yerdən istəyən var idisə də, heç kimə "hə" deməmişdi. Çünki qonşularındakı Yusif adlı bir kasıb oğlanı sevirdi. Yusifin isə qız qapısına getməyə gücü yox idi. Həmin kənddə Ziyadxan adlı bir oğlan da Sayadı dəlicəsinə sevirdi, lakin ona rədd cavabı verilmişdi. Ziyadxan bir dəqiqə də Sayadı unuda bilmir, həsrətdən qovrulub yanırdı. Axırda o belə qərara gəldi ki, bir fəndlə qızı kənddən çıxarıb dağda namusuna toxunsun. Ondan sonra qız əlacsız qalıb ona ərə gedəcək. Ziyadxan əl altdan bir qoca qarı tapdı. Bu qarı ondan peşkəş alıb söz verdi ki, mən hər şeyi öz yoluna qoyacağam.

Aradan bir neçə gün keçdi. Bir gün Sayadın qardaşları dağa, əkin əkməyə getmişdilər. Anası da o biri kənddə idi. Qarı özünü Sayadgilə yetirib dedi:

– Deməzsən ki, kiçik qardaşını dağda ilan vurub, ona qatıq içirtmək lazımdır. Tez ol, qatıq götür, gedək ora, bəlkə çarə oldu.

Sayad belə bəd xəbəri eşidib çaş-baş oldu, qatığı bardağa töküb ağlaya-ağlaya qarının yanınca dağa tərəf yönəldi. Bir qədər getmişdilər ki, Ziyadxan qabaqlarına çıxdı. Çatan kimi qarının köməyilə qızı zorla atın üstünə sarıyıb ata mindi və birbaş kənddən uzaqdakı dağlara sürdü.

Gün batdı. Nəhayət, Ziyadxan atı saxlayıb qızı bir xırda dağ çayının qırağında düşürtdü:

– Gəl öz xoşunla mənə arvad ol, – dedi. – Onsuz da əlimdən qaça bilməyəcəksən. Xoşla da olsa, zorla da olsa, sənə sahib olacağam.

Sayad ha yalvardı, təsiri olmadı. Dedi:

– Onda əl-ayağımı aç, bir az su içim, səriniyim, sonra danışaq. Sən atlı, mən piyada – qaçmayacağam ki…

Ziyadxan onun əl-ayağını açıb atdan düşürtdü. Qız suyun yanına gəldi. Su içməyə əyiləndə gur saçları suya töküldü. Sayad pıçıltı ilə dedi:

— Ay su, səni and verirəm dünyaya nüri-bərəkət verməyinə, məni öz yanında saxla, qoyma rüsvay olum.

Qız bunu deyən kimi dönüb söyüd ağacı oldu, aşağı sallanan saçları da budaq kimi əyildi.

O vaxtdan su qırağında bitən sallaq söyüdlərə "salxım söyüd" deyirlər.

## İSGƏNDƏRLƏ DUL ARVAD

İsgəndər öz qoşunu ilə Dərbənd tərəfdən geri qayıdırdı. Artıq bu yerlər onun tabeliyində idi. Hər yerdə öz adamlarını qulluq başına qoymuşdu. Kəndlərdən birindən keçərkən gördü ki, bir qadını həyətdə saçından asıblar. İsgəndər tez əmr elədi, gedib qadını ağacdan açıb yerə düşürtdülər və onun yanına gətirdilər.

İsgəndər arvaddan soruşdu:

– Ay bacı, səni niyə ağacdan asıblar?

Arvad ağlaya-ağlaya dedi:

– Ay bala, sən ki, mənim dərdimə əlac eləyən deyilsən, neynirsən, məni dindirirsən? Onsuz da ölürəm, qoy elə sirrim də qarnımda gora getsin.

İsgəndər dedi:

– Ay bacı, mən İsgəndəri-Zülqərneyəm, hər dərdin olsa, sənə kömək elərəm. De görüm, dərdin nədir?

Arvad İsgəndərin ayağına yıxılıb dedi:

— Ey yerin-göyün sahibi padşah, bil və agah ol ki, mən dul arvadam. Mənim dörd uşağım var. Böyüyü on üç yaşında bir qızdır. İki-üç aydan bəri idi ki, kəndin darğası mənim yanıma gəlib-gedirdi, məni almaq istəyirdi. Mən əvvəl razı olmadım. Sonra baxdım ki, kişisiz evi, uşaqları dolandıra bilməyəcəyəm. Ona görə də Allahın əmri, peyğəmbərin şəriəti ilə öz evimdə ona getdim. İnsafən, mənə əl tutur, az-çox çörək-paltarımızı verirdi. Axır günlərdə gördüm ki, kişi mənim böyük qızıma çox baxır. Əvvəl fikir vermədim, sonra şübhələndim, bunu güdməyə başladım. Amma kaş gözlərim kor olaydı, heç görməyəydim. Günün

birində gördüm ki, qızımla bir yerdə yatıb. Çox çığır-bağır salanda dedi:

– Ay kaftar, mən səni buna görə ad eləmişdim ki, qızın yanına arxayınlıqla gəlib-gedim.

Mən ağladım, yalvardım, olmadı. Kişi dedi ki, elə həmişə belə olacaq. Dedim:

– Şəhərə gedib İsgəndərə şikayət edəcəyəm.

Elə həmin gecə qəfil üç-dörd adamla evimə gəldi. Üzümə şahid durquzdu ki, guya mən qızımı pul ilə başqa kişilərə satıram. Qızı götürüb İsgəndərin qulluğuna apardılar, məni də sənin əmrinlə saçımdan asdılar.

İsgəndər bunu eşidən kimi darğanı gətirtdirdi. O, İsgəndəri görən kimi rəngi qaçdı, onun ayağına yıxıldı, tövbə elədi. Lakin İsgəndər dedi:

– Mənim zamanımda belə zülmkar adamlara aman yoxdur.

Onun əmrilə darğanı öldürdülər. Bütün varidatını arvada verdilər, qızını da qaytardılar.

## SƏMƏNDƏR ƏFSANƏSİ

Qədim zamanlarda Şirvan mahalının köçəri elatlarından birində Səməndər adlı igid, gözəl bir oğlan yaşayırdı. O, öz obalarından Qonça adlı gözəl bir qızı sevirdi. Qız da ona aşiq idi. Lakin elatın varlı-karlı sahibmənsəb şəxslərindən biri də Qonçanı sevirdi. Bir bəhanə ilə Səməndəri aradan götürüb özü qızı almaq istəyirdi. Bu oğlan gecə vaxtı obadakı dul bir arvadın evinə girdi, onun balaca qızının başını kəsdi, yaylığını qana bulaşdırıb, gətirib Səməndərin qapısına atdı.

Səhər açılan kimi obaya səs düşdü ki, bəs bu gecə bir uşağı öldürüblər. Dövlətli oğlanın dostları işdən xəbərdar olduqları üçün başlayıb qapıları gəzdilər və Səməndərin qapısında qanlı yaylıq tapdılar. Onu tutub obanın ortasına gətirdilər. Hamı oraya yığıldı. Səməndər nə qədər elədisə də, qulaq asan olmadı. Dövlətli oğlanın dostları camaatı qızışdırdılar, camaat bu qərara gəldi ki, nahaq qan eləyən Səməndəri tonqalda yandırmaq lazımdır. Tonqal qalandı. Qolları bağlı Səməndəri oda atdılar. O, yanmağa başladı.

Qonça da adamların arasında idi. O, Səməndərin oda atıldığını görüb çığıra-çığıra tonqalın ətrafında fırlanmağa başladı, sevgilisini oddan xilas etmək istədi. Dövlətli oğlan irəliləyib qızın qolundan tutdu və onu oddan aralamağa çalışdı. Qonça çırpındı, oğlanın əlindən çıxdı, tonqalın başına fırlanıb "Səməndər, Səməndər" deməyə başladı. Birdən dönüb alabəzək bir pərvanə oldu, tonqalın başına dolanmağa başladı, alov qanadlarını qarsdı.

Elə bu zaman odun içindən bir quş uçub qalxdı. O, Səməndər idi.

O vaxtdan bəri Səməndər quşu da, pərvanə də oda aşiqdir, görən kimi başına dolanırlar.

## DƏFNƏ YARPAQLARI

Dəfnə elin ən gözəl qızlarından biri idi. O, çox ağıllı və namuslu bir qız idi. Bir gün o, çəmənlikdən gül-çiçək dərən zaman bir yadelli dəstəyə rast gəlir. Onlar qızı tutmaq məqsədilə atı ona tərəf yönəltdilər. Qız basqınçıların fikrini başa düşüb çaya tərəf qaçmağa başladı. O, qaça-qaça öz-özünə

deyirdi: “Allah, bircə çaya çata bilsəydim, özümü qayadan atıb öldürər, düşmən əlinə keçib namussuz olmazdım.”

Deyəsən, çapqınçılar da qızın fikrini başa düşmüşdülər. Ona görə də atlarını tərpətdilər. Onlardan birisi atı qırmaclayaraq qıza yetişdi. Qız çaya çatmağa bir az qalmış ona çatdı və atdan düşüb onu tutdu.

Dəfnə çırpındı, oğlanın əlindən çıxmağa başladı, lakin çıxa bilmədi.

Çapqınçı onu bərk-bərk tutub dedi:

– Daha sən mənimsən, əlimdən heç yerə qaça bilməzsən.

Qız əllərini göyə doğru uzadıb:

– İlahi, sən məni düşmən əlində əsir eləmə, – dedi.

Elə o anda bədəni ağac qabığı ilə örtülməyə başladı. Yuxarı qalxmış əlləri ağacın budaqlarına, gur saçları isə dəfnə yarpaqlarına çevrildi.

O vaxtdan bəri həmin ağaca “dəfnə ağacı” deyirlər.

## OĞUL PİRİ

Bir orta yaşlı kişi ilə arvadın övladı olmurdu. Onlar çox nəzir-niyaz verdikdən sonra bir oğlanları oldu. Adını Tapdıq qoydular. Ata-ana Tapdığı çox əzizləyir, ərköyün böyüdürdü. Uşaq on dörd-on beş yaşına çatanda qəflətən yox oldu. Yazıq ata-ana nə qədər axtardısa, Tapdıqdan bir soraq çıxmadı. Onlar Tapdığı axtarmaq üçün bütün var-dövlətlərini sərf etdilər. Axırda tamam var-yoxdan çıxıb bir öynə ac, bir öynə tox yaşamağa başladılar.

Aradan on dörd-on beş il keçdi. Bir dəfə gecə vaxtı kimsə onların qapısını döydü. Ev yiyəsi soruşdu:

– Kimsən?

Həyətdən səs gəldi:

— Məni bu gecəliyə Allah qonağı saxlayın.

Ev yiyəsi qapını açdı. Gördü ki, qonaq iyirmi beş-otuz yaşlarında bir kişidir. O, qonaq üçün çay-çörək gətirmək istəyəndə qonaq dedi:

– Zəhmət çəkmə, atacan, çaydan-çörəkdən ehtiyacım yoxdur. Uzaq yol gəlib yorulmuşam. Yaxşısı budur, yer salın, yatım.

Ev yiyəsi daha arvadını oyatmadı, özü qonaq üçün yer saldı. Qonaq yatmazdan qabaq heybəsini ev yiyəsinə verib dedi:

– Bunun içərisindəki qızıllar mənim varidatımdır. Bu heybəni gizlət, yatarıq, evə oğru gələr, aparar. Az deyil, azacıq deyil, yüz min dirhəm puldur.

Qonaq bunu deyib yerinə girdi və yorğanı başına çəkib yatdı. Lakin ev yiyəsi yata bilmədi. Onu fikir götürdü, şeytan qəlbinə girdi, axırda balaca qəməni götürüb xəlvətcə qonağa tərəf süründü və yatdığı halda onun başını üzdü. Sonra arvadını oyatdı, hadisəni ona danışdı. Ər-arvad köməkləşib meyidi həyətə çıxartdılar. Gecə ikən qəbir qazıb qonağı orada basdırdılar. Sonra evə qayıdıb heybəni açdılar. Orada doğrudan da, yüz min dirhəm pul var idi. Kişi pulları bir torbaya yığan zaman arvad heybənin içindən bir bağlama çıxartdı. Bağlamanı açanda içindən bir dəstə köhnə uşaq paltarı, bir bazubənd və bir də bir parça kağız çıxdı. Arvad paltara diqqətlə baxıb dedi:

– A kişi, bu Tapdığın paltarlarıdır.

Kişi tez bazubəndə baxdı:

– Elə bu da Tapdığınkıdır.

Sonra kağızı açıb oxudu. Gördü ki, Tapdıq bura on beş il ərzində başına gələn qəziyyələri yazıb.

Qocalar çox götür-qoy elədilər, axırda fikirləşib çarə tapdılar. Səhər tezdən hər ikisi məscidə gəldilər və camaata belə dedilər:

– Ay camaat, bu gecə Həzrət Peyğəmbər bizim həyətdə nazil oldu. O, bizə dedi ki, hər kimin oğlu olmursa, onda oğlu olar.

Elə həmin gün onlar meyidin basdırıldığını yerin üstündə böyük bir gümbəz tikdirdilər. Özləri də gecə-gündüz orada oturub ağlamağa başladılar.

O vaxtdan bəri həmin qəbrin üstünə oğlu olmayanlar gəlməyə başladı. Elə həmin vaxtdan o yerə "Oğul piri" deyirlər.

## QARI KÖRPÜSÜ

Zübeydənin gözəllikdə tayı-bərabəri yox idi. Özü də çox ağıllı, namuslu-ismətli bir qız idi. Onun istəklisi də özü kimi gözəl, ağıllı, namuslu bir igid idi. Bir gün Zübeydə bulaqdan su gətirərkən Səlim ağa bunu görüb xoşladı. Axşam qızın atasına xəbər göndərdi ki, bəs qızı mənə verməlisən. Yazıq kişi gələn adamlara "yox" deyə bilmədi. Desəydi də, mənası yox idi. Ağa qızı zorla aparacaqdı. Zübeydə bunu eşidən kimi gecə ilə sevgilisini tapdı, əhvalatı ona danışdı, baş götürüb obadan qaçdılar. Elə gecə ikən çuğulçu Səlim ağaya xəbər verdi. Bunların dalınca at salındı. Zübeydə ilə sevgilisi gecənin qaranlığında özlərini hara gəldi vurdular, dağ-daşda gizlənməyə, bu vilayətdən uzaqlaşmağa çalışırdılar. Onlar aradan çıxa bildilər. Üç gün, üç

gecə yol gedib axırda gəlib bir dərin dərənin qırağına çatdılar. Nə illah elədilərsə, dərəni keçməyə mümkün tapa bilmədilər. Əlacsız qalıb dərənin qırağında gecələdilər. Elə həmin gecə Səlim ağanın adamları gəlib onlara yetişdilər. Bunları tutdular. Zübeydənin əl-ayağını bağlayıb ata sarıdılar, sevgilisini isə uçurumdan dərənin dibinə atıb öldürdülər. Onlar Zübeydəni gətirib Səlim ağaya verdilər. Səlim ağa toy elədi. Toy gecəsi Zübeydə qaçıb dağlara getdi, köçərilərə qoşuldu, eldən-obadan uzaqlaşdı. Sonra bir dövlətliyə qulluqçu durdu, illər uzunu qazandığı qəpiyi qəpik üstə qoydu, saxladı. Aylar, illər ötdü. Zübeydə qocaldı. Yığdığı pulları götürüb sevgilisi qayadan atılan yerə gəldi. Usta gətirtdirdi, həmin yerdən bir gözəl körpü saldırdı. Dedi:

– Mən bu dərəni keçə bilsəydim, xoşbəxt olacaqdım. Barı qoy məndən sonra zülm əlindən qaçanlar rahat keçsinlər.

O vaxtdan bəri həmin körpüyə "Qarı körpüsü" deyilir.

## KOROĞLUYLA KÜR

Koroğlunun buro-buro vaxtları idi. Bir gün Qıratı minib gəzməyə çıxmışdı. Atın başını buraxdı. O, bir də gəlib bir böyük çayın kənarında dayandı. Koroğlu atı ha tərpətdisə də, at çayı keçmək istəmədi. Koroğlu hirsləndi, ata bir qırmanc vurdu. Qırat özünü cəmləşdirib çayın üstündən atıldı. Doğrudur, çayı keçdi, amma dal ayaqları suya düşdü.

Koroğlu bunu görüb güldü, dedi:

– Ay çay, mən kür, sən kür, bizimki tutmaz.

Bunu deyib geri qayıtdı. O vaxtdan həmin çaya Kür çayı deyirlər.

## AXUNDLAR

İki tüllab Ərəbistanda ruhani təhsil aldıqdan sonra vətən qayıdırdı. Hər ikisinin kefi kök idi, sevinirdilər ki, hərəsi öz vilayətində axund olacaq, ömrünün axırına kimi naz-nemət içində yaşayacaqlar. Onlar gəlib-gəlib Talışın sıx meşəli dağlarına yetişdilər. Bir soyuq sulu bulağın başında özləri üçün çadır qurdular, bir neçə gün orada istirahət etdilər.

Bir gün hava qaralan vaxt gördülər ki, onlara tərəf bir qaraltı gəlir. Yaxınlaşanda gördülər ki, bir gözəl gəlindir. Gəlin bunlara yetişcək dedi:

– Ay axund qardaşlar, aman günüdür, mənə kömək eləyin.

Axundlar soruşdular:

– Ay bacı, sənə nə olub? Hardan gəlib, hara gedirsən? Bu vaxt çöldə nə gəzirsən?

Gəlin dedi:

– Ay qardaşlar, mən yeddi-səkkiz aydır ki, bir yetim oğlana ərə getmişəm. Yazbaşı ərim kəndxudaynan savaşdığı üçün tutub dama salıblar. İndi biçin vaxtıdır. Əlacım kəsilib arpanı özüm biçirəm, əkinimiz də kənddən çox aralıdır. İndicə taxıl biçirdim, kəndxudanın oğlu yanıma gəldi, mənə əl atmaq istədi, güclə əlindən çıxıb qaçmışam. Məni sabaha kimi yanınızda saxlayın, sabah açılanda gün işığına bu vilayətdən baş götürüb gedəcəyəm. Bir yerə qulluqçu duraram, ərim qurtarıb gələnəcən.

Axundlar bir gəlinə baxdılar, bir də gecənin qaranlığına. Fikir elədilər ki, belə gözəli əldən buraxsaq, bizə ax-

maq deyərlər. Odur ki, gəlinə əl atmaq istədilər. Gəlin gördü ki, yağışdan çıxıb, yağmura düşüb. Əlacı kəsildi, dedi:

– Qoyun barı bulaqdan bir az su içim, özümə gəlim, əl-üzümü yuyum, sonra mən burda – siz burda.

Gəlin bu fəndlə bulağa tərəf endi, suya yaxınlaşıb dedi:

– İlahi, özün bilirsən ki, mən namus ucundan qaçmışam, bu axundları daş elə, məni namussuz eləmə.

Gəlin bunu decəyin axundlar dönüb daş oldular. Daşlara indi də "Axundlar" deyirlər.

## ZƏNCİRLİ DAĞ

Hüseynəli ağanın Pəri adlı gözəl bir qızı var idi. Onu çox yerdən istədilər, amma qız heç kimə getməyə razı olmadı. Axırda ağaya xəbər verdilər ki, bəs sənin qızın nökərin Mahmuda aşiq olub, onunla görüşür.

Hüseynəli ağa əvvəlcə bu sözə inanmadı, səsə salmamaq üçün xəlvətcə əvvəl qızından, sonra nökərindən soruşdu. Gördü ki, nə deyiblərsə, doğrudur. Ağa nökərinə dedi:

– Mahmud, gəl sən bu fikirdən əl çək. Mənim qızım qoyun saxlayan, inək sağan, palaz toxuyan deyil. Sənin onu saxlamağa gücün çatmaz. Bax, xoşluqla sənə bir göyçək qız alım, öz əlimlə toy eləyim, sənə yüz qoyun da bağışlayım, toydan sonra köç bu kənddən get.

Mahmud dedi:

– Ağa, hörmətin artıq olsun. Ancaq mənə bu dünyada öz sevgilimdən başqa heç nə lazım deyil.

Hüseynəli ağa gördü ki, nə oğlan, nə də qız öz sözlərindən dönən deyillər. Ona görə də fikirləşib bir çarə tapdı.

Həmin kənddə bir dul arvad var idi. Hüseynəli ağa nökərlərrindən birinə xeyli pul verdi. Bu nökəri öyrətdi. Həmin nökər Mahmudun cib yaylığını və papağını götürüb gecə dul arvadın evinə soxuldu. Arvad hay-küy salanda papağı və yaylığı evə atıb qaçdı.

Arvad papaqla yaylığı ağsaqqallara göstərdi. O saat Mahmudu tutub sarıdılar. Hüseynəli ağa dedi:

– Belə namussuzu qayaya zəncirləmək lazımdır. Qoy qurd-quş onu diri-diri yesin.

Elə də elədilər. Mahmudu eldən-ayaqdan uzaq bir yerdə qayaya zəncirlədilər. Qurd-quş onu diri-diri yedi.

O vaxtdan həmin dağa "Zəncirli dağ" deyilir.

## HATƏM

Hatəm çox səxavətli idi. Belə ki, axırıncı tikəsinə kimi insanlara verərdi. Özü də çox dövlətli idi. Bir gün xan bunu eşidib dedi:

— Hatəm adicə bir kişidir. Səxavəti ilə tanınıb. Mənim xəzinəm var, neçə yüz kəndin sahibiyəm. Bu gündən mən də səxavətli olacağam. Elə bir ad açacağam ki, Hatəmin adı yaddan çıxacaq, mənimki deyiləcək.

Xan həmin gün yeddi yol ayrıcında bir bina tikdirdi. Bu binanın qırx qapısı vardı. Xan binanın içərisində oturdu. Kim gəlib birinci qapını döysəydi, xan qapını açıb ona bir qızıl, onuncu qapını döysəydi, on qızıl, qırxıncı qapını döysəydi, qırx qızıl verirdi. Günlər, həftələr ötdü. Bir gün bu yolla bir dərviş gəldi. Birinci qapıya yaxınlaşıb qapını döydü, xan ona bir qızıl verdi. Sonra ikinci, üçüncü və başqa qapıları döydü. Hər dəfə də xan ona qapının qədəriycən

qızıl verdi. Dərviş bu minvalla qızılları heybəsinə yığandan sonra yenidən əvvəlki qapıdan keçmək istəyəndə xan dedi:

– Baba dərviş, bu qapılar el-obaya kömək üçündür. Kimə nə qədər lazımdırsa, o qədər qızıl alır. Sən bu qırx qapının hərəsindən ayrı-ayrılıqda qızıl aldın. İndi yenə də əvvəlinci qapıya qayıtdın, axı belə olmaz.

Dərviş hirsləndi, qızılları yerə töküb dedi:

– Elə bu bərkliyinlə Hatəmin adını batırmaq istəyirdin? Sən Hatəmin yanında heç nəsən. O kişinin səxavəti dünyada heç kəsdə ola bilməz.

Dərviş bunu deyib çıxıb getdi. Xan çox fikirləşdi, axırda bu qərara gəldi ki, Hatəmi öldürtdürsün. "Onda bundan sonra daha Hatəmi yox, məni deyərlər" – deyə düşündü. Elə həmin gecə öz adamlarını Hatəmin evinə göndərdi. Xanın adamları Hatəmin həyətinə gəlcəyin Hatəm xəlvəti evdən qaçıb dağlara getdi. Xanın adamları Hatəmin varidatını çəkib apardılar, ev-eşiyini dağıtdılar.

Xan Hatəmin qaçmasını bilən kimi car çəkdirdi:

– Hatəmi kim mənə gətirsə, ona özü ağırlıqda qızıl verəcəyəm.

Camaat dağa-daşa düşdü, iynə gəzən kimi hər yeri gəzirdilər. Bu vaxt bir qoca ər-arvad da dağda odun yığırdı. Onlar da xanın əmrini eşitdilər. Arvad dedi:

– Ay kişi, ömrümüz uzunu əziyyət çəkmişik. Nə ola, Hatəm bizə rast düşə, aparıb xana verək. Xan bizə çoxlu qızıl verər. Qoca vaxtımızda rahat yaşayarıq.

Kişi dedi:

– Arvad, ağlını başına yığ. Hatəmi xana versək, xan onu öldürəcək. Rahat yaşamaqdan ötəri nahaq qana

düşəcəyik. Bu vaxtacan necə yaşamışıq, elə də yaşayarıq. Hatəmi neynirik?

Sən demə, Hatəm elə bu qocaların durduğu yerdə bir kiçik kahada gizlənibmiş. Onların söhbətini eşitcək gizləndiyi yerdən çıxıb dedi:

— Məni aparıb xana verin.

Qocalar dedilər:

— Yox, qardaş, Allaha xoş getməz. Biz səni aparsaq, xan səni öldürər.

Hatəm dedi:

– Mən bu dağda qalsam, onsuz da öləcəyəm. Aparın məni.

Qocalar razı olmadılar. Onda Hatəm dedi:

– Bax, məni aparmasanız, özüm gedib xana deyəcəyəm ki, bu qocalar sənin əmrini yerinə yetirməyib.

Bunların səs-küyünə dağı gəzən adamların bir neçəsi bura gəldi, tez Hatəmi yaxalayıb xanın yanına apardılar. Qocalar da odunu dağda qoyub onların dalınca düşdü. Camaat Hatəmi gətirib xana verdi. Xan soruşdu:

– Hatəmi kim tutubsa, irəli çıxsın, özü ağırlıqda qızılı alsın.

Hamı çığırmağa başladı: o dedi "mən tutmuşam", bu dedi "mən tutmuşam". Xan gördü bir şey başa düşmək olmayacaq, dedi:

— Ay Hatəm, özün de görək səni kim tutub?

Hatəm dedi:

— Məni tutan bax o dalda duran iki qocadır.

Xan qocaları irəli çağırdı:

– Deyin görüm niyə qızıl almaq istəmirsiniz?

Qocalar əhvalatı olduğu kimi danışdılar və dedilər ki, biz Hatəmi tapmamışıq, ancaq o özü bizə kömək etmək üçün özünü ölümə verir.

Hatəm dedi:

— Xan sağ olsun, daha mənim heç nəyim yoxdur. İnsanlara xeyir verməyən can nəyə lazımdır? Əgər mənim ölməyimlə bu iki nəfər xoşbəxt olacaqsa, mən canımdan keçirəm, çünki daha dövlətim yoxdur ki, bunlara verəm.

Xan gördü ki, bu səxavətin sahibi olan şəxsin adı unudulmayacaq. Ona görə qocalara xeyli qızıl verdi. Hatəmi azad etdi, var-dövlətini də özünə qaytardı.

## İSGƏNDƏRİN MEYMUNLARLA DAVASI

İsgəndər Zülqərneyn öz qoşunu ilə Hindistana təzə girmişdi ki, saysız-hesabsız meymun sürülərinə rast gəldi. Meymunlar qoşundan qorxub-çəkinmir, ələ keçən hər şeyi qapıb aparırdılar. İş o yerə çıxdı ki, meymunların əlindən yeyib-içmək, dinc yaşamaq mümkün olmadı. Qoşun əhli İsgəndər Zülqərneynə dedi:

– Biz daha dözə bilmirik. Bu işə bir tədbir tök, bizi bu meymunların əlindən xilas elə.

İsgəndər Ərəstunla məsləhətləşdi, çox götür-qoy elədilər, axırda bu qərara gəldilər ki, meymunlarla dava eləsinlər, bəlkə bunlardan əl çəkib gedələr.

Sabahı günü İsgəndər Zülqərneyn qoşuna əmr elədi ki, günorta zamanı hamı birlikdə meymunlara hücum eləsinlər. Sabahı günü günorta zamanı İsgəndərin işarəsilə qoşun əhli hamısı birdən meymunlara hücum etdi: minlərlə kaman gərildi, oxlar atıldı, nizələr, toppuzlar, dəyənəklər,

xəncər, qılınc və qəmələr işə düşdü. Lakin bunun təsiri az oldu. Cəmi bir neçə meymun zədələndi – qalanları tullanıb ağaclara dırmaşdı və birdən minlərlə meymun ağaclardan qozaları, iri meyvələri, quru budaqları qoşunun başına tökməyə başladı. Yüzlərlə əsgər ağır yaralandı, at, qatır və dəvələr ürküb əsgərləri yerə yıxdı, yükünü yerə töküb qaçdı. Qoşuna çaxnaşma düşdü. İsgəndər Zülqərneyn Ərəstuna dedi ki, tez bir tədbir tök, qoşun həlak olur. Ərəstun bir qədər fikirləşdikdən sonra dedi:

– Bizim bircə əlacımız var, o da sudur. Meymun sudan qorxur. Əgər bir çay, göl və ya dərya rastımıza düşsə, xilas olmuşuq, düşməsə, bu meymunlar axırımıza çıxacaq. İndilik isə çalışıb meşədən çıxmaq lazımdır. Düzənlikdə meymunlar bizə bir o qədər əziyyət verə bilməz.

İsgəndər qoşunu çox çətinliklə bir yerə cəmlədi; birgə qüvvə ilə meymunları birtəhər bir az geri oturtdular.

Axşam düşdü. Qoşun əhli düşərgə salıb yatmağa uzandı. Lakin elə bil meymunlar bunu gözləyirmiş: yer-göy meymun ilə doldu, hər tərəfdən qoşun əhlinin üstünə hücum başlandı, bəzi meymunlar isə yatanların ox, nizə, qalxan, qılınc və s. silahını götürdükləri üçün əsgərlər qorxuya düşmüşdü, hərə bir tərəfə baş götürüb qaçırdı.

İsgəndər qoşunu güclə cəmlədi. Bu vaxt gördü ki, Ərəstun nəsə fikrə gedib. Soruşdu:

– De görüm, nə fikir eləyirsən?

Ərəstun cavabında dedi:

– Burnuma su iyi gəlir, amma getdiyimiz yolda deyil, çəpdədir. Qoşunu o yana döndər, əgər suya çata bilsək, xilas olacağıq.

Qoşun əhli bu qorxu-ürkü bilməyən həyasız meymunlardan elə qorxmuşdu ki, daha bir yerə toplaşmaq istəmirdi. Onları çox çətinliklə bir yerə yığıb yola düşdülər. Bir qədər getdikdən sonra Ərəstun dayandı, yenidən ulduzlara baxdı, havanı iylədi və dedi:

– Xilas olmuşuq, irəlidə böyük bir çay var, qorxmayın, əl-ələ tutub atların yanınca suya girin.

Tezliklə böyük bir çay göründü. Qoşun əhli, irəlicədən deyildiyi kimi, çaya girdi. Onları daban-dabana təqib edən meymunlar da suya girdilər, lakin bir-iki qədəm getməmiş qorxub geri çəkildilər və vaqqıldayaraq qayıdıb meşəyə girdilər.

İsgəndərin qoşunu çayı çox çətinliklə keçdisə də, meymunlardan da xilas oldu.

## NATƏVANLA CEYRAN

Natəvan oğlu Mehdiqulu və qızı Xanbikə ilə birlikdə dağlara seyrə çıxmışdı. Onlar buz bulaqların suyundan içir, yarpız, nanə, keşniş, kəklikotu və başqa otlardan yığır, gül-çiçək dərirdilər. Birdən uzaqdan bir atlı göründü. Atlı onlara çatmamış atdan düşdü və yəhərin üstündə gətirdiyi bir ceyranı şairin qabağında yerə qoydu:

— Bəyim, bu günkü ovum sizə peşkəşdir, – dedi.

Şairə əl-ayağı bağlı ceyranın başını sığallamağa başladı. Uşaqlar da ceyranı əlləşdirdilər. Natəvan özü də hiss etmədən ceyranın qarnını sığallamağa başladı və birdən duruxdu: ceyranın döşü südlü idi, deməli, onun balası var idi.

Natəvan sərt bir hərəkətlə ayağa qalxıb dedi:

— Bu saat bu ceyranı buraxın!

Ovçu pərt olmuş halda dinmədi. Uşaqlar isə analarının ətəyindən yapışıb dedilər:

– Yox, ana, qoy ceyran qalsın, biz onu saxlamaq istəyirik.

Natəvan çox dedi, uşaqlar az eşitdi. Onda şairə dedi:

– Qulaq asın, balalarım. Mən sizə bir əhvalat danışım. Ondan sonra istəyirsiniz ceyranı saxlayın, istəyirsiniz buraxın.

Uşaqlar da, hətta ovçu da diqqətlə qulaq asmağa başladılar.

Natəvan isə deyirdi:

— Bir neçə ilin söhbətidir. Onda siz hələ lap kiçik idiniz. Mən dağlara seyrə çıxmışdım. Tək idim. Bir dəstə quldura rast gəldim. Onlar məni soyub öldürmək üçün qolumdan tutub dərəyə aparmaq istədilər. Nə soyulmaq, nə ölüm gözümə görünmürdü. Yadıma ancaq siz düşürdünüz. Qulağıma sizin səsiniz gəlirdi. Birdən ucadan bağırıb dedim:

– Ay zalımlar, məni buraxın, evdə iki körpəm qalıb, onlar ağlayıb məni gözləyirlər.

Elə bu vaxt ceyran başını qaldırıb dağa tərəf baxdı və mələdi.

Şairə tez dedi:

– Bax, elə bu ceyran kimi ucadan çığırdım. Güclə o zalımların əlindən qaçıb qurtardım.

Uşaqların da, ovçunun da gözləri yaşarmışdı. Mehdiqulu özü ceyranın bağlı ayaqlarını açırdı. Xanbikə ağlaya-ağlaya dedi:

– Anacan, ceyranı buraxaq. Axı biz zalım deyilik.

Mehdiqulu da dedi:

– Buraxaq, buraxaq!

O, ceyranın ayağını açdı. Natəvan boynundakı gərdənbəndi çıxarıb ceyranın boynuna saldı və üzündən öpüb buraxdı. Mehdiqulu əlini-əlinə sürtüb dedi:

— Balası nə sevinəcək!

Natəvan isə fikirli-fikirli dedi:

— Ceyranlar, marallar, bütün heyvanat və quşlar el-obamızın zinətidir. Onları qırmaq yox, qorumaq lazımdır. Hərə bir ceyranı azad eləsə, gör düzlərimizdə nə qədər ceyran olar.

## ARAQILINC

Bir qoca kişi iki oğlu ilə yaylağa köçmüşdü. Böyük oğlu evli, kiçik oğlu subay idi. Kişi kiçik oğlunu göndərdi ki, gedib arandan anasını və qardaşı arvadını gətirsin. Oğlan arana gəldi, gördü ki, kənddə hüzür düşüb. Anası dedi ki, gəlini apar, çay-çörəyinizi hazırlasın, beş-on gündən sonra gəlib məni də apararsan.

Sabahı günü oğlan qardaşı arvadını götürüb yola düşdü. Bir qədər gedəndən sonra ayağa qalxdılar. Gəlin özünü xəstəliyə vurdu, dəvədən düşüb dayanası oldular. O qədər dayandılar ki, qaranlıq düşdü. Oradaca gecələyəsi oldular. Oğlan çuxasını yerə salıb uzandı. Təzəcə gözünü yummuşdu ki, gördü gəlin deyir:

– Üşüyürəm, məni titrətmə tutub, çuxanı üstümə ört.

Oğlan tez çuxanı gəlinin üstünə örtdü. Lakin tezliklə gəlin yenə dedi:

– Üşüyürəm, gəl bir yerdə uzanaq, bəlkə mənə soyuq olmaya.

Oğlan əlacsız qalıb gəlinin yanında bir az aralı uzandı. Gördü ki, yox, gəlinin fikri ayrıdır, ona görə qılıncını çıxarıb aralığa qoydu. Lakin gəlin qılınca baxmayıb oğlana tərəf aşmağa cəhd edirdi. Oğlan dedi:

– İlahi, sən bu ara qılıncı elə hündür və kəsərli et ki, gəlin bəri aşa bilməsin.

Oğlan bu sözü deyən kimi qılınc dönüb uca bir tirə dağ oldu: oğlan bir üzündə, gəlin o biri üzündə qaldı.

O vaxtdan həmin tirəyə "Araqılınc" deyilir.

## DAŞ OĞLAN

Teymurləngin qoşunları Azərbaycana hücum edəndə qoşunun bir dəstəsi dərya kənarı ilə, susuz, şoranlıq bir sahə ilə irəliləyirdi. Yerli əhali qaçıb dağlara getmişdi. Qoşun əhli isti və susuzluqdan çox korluq çəkirdi. Teymur vəziyyəti belə görüb əmr etdi ki, düşərgə salınsın. Özü isə iyirmi karvan düzəltdirib su dalınca göndərtdirdi. Axşam üstü karvanlar geri qayıtdı, lakin heç biri su tapmamışdı. Qoşun arasında susuzluqdan ölənlər, ürəyi gedənlər var idi, böyük narazılıq əmələ gəlmişdi. Karvanın axırıncısı da gəldi, lakin o da su gətirməmişdi. Karvan başçısı Übeydullah Teymura baş əyib dedi:

– Əmir sağ olsun, bu yerlərdə su yoxdur, əhali də qaçıb gedib. Bir adam tapmadım ki, su yeri soruşam. Yalnız bir oğlan uşağı gördüm.

Teymur tez soruşdu:

— Oğlandan su yerini soruşdunmu?

Übeydullah dedi:

— Bəli. O, çoban idi, qoyun otarırdı. Mən ondan xahiş etdim ki, suyun yerini göstərsin. Lakin o razı olmadı.

Teymur hirsləndi:

— Bəs sən onu nə elədin?

— Gətirmişəm, buradadır. Amma əmir sağ olsun, faydasızdır. Mən onu çox döymüşəm, heç təsiri olmadı. Elə bil zalım balasının bədəni daşdandır, – deyə Übeydullah cavab verdi.

Teymur acı-acı güldü:

— Bədəni daşdandır? Onu bəri gətirin, bu saat suyun yerini öyrənərəm.

Uşağı gətirdilər. O, on-on iki yaşlarında bir kəndli balası idi. Başında dəri papaq, əynində köhnə çuxa, ayağında cırıq çarıq var idi. Teymur soruşdu:

– Sən məni tanıyırsanmı?

Oğlan dedi:

— Bəli, bilirəm ki, sən padşah Teymursan.

Teymur soruşdu:

— Bilirsənmi ki, səni bu saat öldürə bilərəm?

Oğlan dedi:

– Bəli, bilirəm.

Teymur dedi:

– Onda tez ol, de görüm otardığın qoyunları harada sulayırsan? Mənim qoşunum susuzluqdan yanır.

Oğlan dedi:

— O bulaq çox kiçikdir. Sənin qoşununa çatmaz.

Teymur dedi:

— Eybi yoxdur, az da olsa, içib sərinlənərlər.

Oğlan dedi:

– Əmir sağ olsun, su da torpaq kimi müqəddəsdir. Mən öz suyumun yerini deməyəcəyəm.

Teymur dedi:

– Bu saat dedirtdirərəm. Tez fərraşlar gəlsin.

Oğlan gülümsündü:

— Səndən qabaq məni onsuz da döyüblər.

O, çuxasının yaxasını açdı, bədəni gömgöy idi, bəzi yerindən qan sızırdı.

Fərraşlar içəri girdilər. Onlar Teymurun işarəsilə oğlana tərəf atıldılar. Lakin heç bir qırmanc vurmamış hamının gözü qabağında oğlan daşa döndü. Fərraşlar qorxub geri çəkildilər. Teymur Übeydullaha dedi:

— Sən doğru deyirsən, o, daşdan imiş.

Teymur o saat əmr verdi, qoşun qalxdı, daha irəli getməyib geri qayıtdı.

O daş indi də durur. Ona "Daş oğlan" deyirlər.

## MUSTAFA XAN

Mustafa xanın dövründə Şirvan xanlığının qoşunları içərisində çoxlu erməni, tat, lahıc, ləzgi, avar, hətta bir neçə gürcü, yunan və rus da var idi. Xan bunlların hamısına eyni gözlə baxardı.

Bir gün Şamaxının məşhur nücəbaları sözü bir yerə qoyurlar ki, gərək bir hiylə qurub erməniləri şəhərdən köçürtdürək. On nəfər birlikdə Mustafa xana şikayət edir ki, bəs ermənilər gecələr məhəlləmizə gəlib oğurluq edir, sahibsiz qadınlara sataşır, üstəlik də bəzi qocaları döyüb-incidirlər. Xahiş edirik, əmr et, onları şəhərdən çıxartdır.

Xan onlara diqqətlə qulaq asır. Sonra deyir ki, sabah şahidləri və ziyan çəkənləri də götürüb divanxana qabağına gəlin, orada işə baxacağam. Şikayətçilər gedəndən sonra xan həmin məhəllədən otuz-qırx adam çağırtdırır, hər birini ayrı-ayrılıqda dindirir, məsələnin nə yerdə olduğunu öyrənir.

Sabahı günü car çəkilir ki, xan mürafiəyə baxacaq. Hamı meydana yığışır. Xan şikayətə qulaq asır və gözlənilmədən şikayət vermiş on nəfər nücəbanı müqəssir elan edir, şəhərdən çıxmalarını əmr edir. O deyir:

– Ağalar, mən işi dərindən öyrənmişəm, ermənilərin heç bir günahı yoxdur, təqsir sizdədir.

Nücəbalar deyir:

– Sən özün müsəlman ola-ola, bizi yox, erməniləri müdafiə edirsən?

Xan deyir:

– Mən müsəlmanam, amma xanlığım müsəlman xanlığı deyil. Həm də ədalət deyilən yerdə din, millət ayrılığı ola bilməz.

## HARAMI DAĞI

Bir gəlinin əri dağda taxıl biçirdi. O, körpəsini dalına sarıyıb əri üçün dağa çay-çörək aparırdı. Kənddən xeyli aralanmışdı ki, qabağına iki atlı çıxdı. Burlar haramı idilər. Onlar gəlini zorla ata mindirib öz düşərgələrinə apardılar. Burada onun namusuna toxunmaq istədilər. Gəlin heç cürə razılaşmadı. Yalvardı, ağladı, and verdi – haramılar ondan əl çəkmək fikrində deyildilər. Haramının biri gəlinin uşağını götürüb irəli gəldi:

– Bax, – dedi, – razı olmasan, uşağı tikə-tikə doğrayacağam.

Gəlin yenə razı olmadı. Onda haramı xəncərlə əvvəl uşağın bir qolunu, sonra o biri qolunu kəsdi – gəlin "hə" demədi. Haramı uşağı tikə-tikə elədi, tikələri itin qabağına tökdü. Gəlin elə bil lal olmuşdu, dinib-danışmırdı.

Haramı yoldaşına dedi:

– Ədə, mən dedim xoşla olsun. Xoşla olmayanda bu gücə nə var, iki kişi bir arvadla bacarmayacağıq?

Gəlin bunu eşitcək elə bil yuxudan ayıldı:

– İlahi, – dedi, – sən özün məni rüsvay eləmə.

Bunu deyən kimi qadın da, iki haramı da, onların iti də dönüb daş oldu. O daşlar indi də "Haramı" dağında yan-yana durur.

## İSGƏNDƏRLƏ DARA

İsgəndər padşahın anası Huma İran padşahının atası Daranın arvadı idi. Humanın atası hər il öz yeznəsi Bəhmən şaha min qızıl yumurta xərac verirdi. Bəhmən Huma ilə evlənəndən sonra gördü ki, onun ağzından pis qoxu gəlir. Ona görə də bir neçə aydan sonra Humanı boşadı. Huma boylu olduğu halda öz vilayətlərinə, atasının yanına qayıtdı. Aradan bir-iki ay keçəndən sonra Humanın bir oğlu oldu, adını İsgəndər qoydular. Hümanın atası Filip başqa övladı olmadığı üçün, oğul nəvəsi olduğuna görə çox sevindi və hamıya dedi ki, oğlum olubdur. Buna görə də hamı elə bilirdi ki, İsgəndər Filipin oğludur.

Onun yeddi yaşı tamam olanda Ərəstunun yanında oxumağa başladı. O, çox mehriban, rəhmdil və nəcib insan idi. Tezliklə Filip öldü və İsgəndər onun yerinə taxta çıxdı.

Elə bu vaxtlarda İran padşahı Bəhmən də öldü. Onun Dara adlı çox zalım və nadürüst bir oğlu və son dərəcə ağıllı və mehriban Gülşa adlı bir qızı var idi. Bəhmən şah oğlunun zülmkarlıq edəcəyini bilib öz yerinə qızı Gülşanı qoydu. Gülşa bir necə il çox ədalətlə şahlıq elədi, sonra öldü. Onun yerinə qardaşı Dara keçdi. Dara çox zulmkarlıq edir, xalqı incidirdi.

Günlərin bir günündə Dara dövlət kağızlarına baxanda gördü ki, artıq neçə ildir Rum padşahı hər il min qızıl yumurta qədərində olan xəracı vermir. Dara o saat dörd nəfər elçi göndərdi ki, gedib xəracı alıb gətirsinlər.

Bu vaxt taxtda İsgəndər idi və özünün də iyirmi yaşı var idi. O elçiləri çox mehriban qarşıladı. Onların tələbini eşidəndən sonra dedi:

– Gedin Daraya deyin ki, qızıl yumurta yumurtlayan toyuq çoxdan ölüb.

Elçilər gəlib İsgəndərin cavabını Daraya dedilər. Dara çox hirsləndi. Bu dəfə üç nəfər elçi göndərdi. Onlara bir balaca əl topu, bir qarğı at və bir torba küncüt verdi ki, aparıb İsgəndərə versinlər.

İsgəndər Daranın göndərdiyi şeylərin mənasını çox yaxşı başa düşdü. Bildi ki, əl topu ilə qarğı atı göndərməklə Dara ona deyir ki, sən hələ uşaqsan, götür qarğı atı min, top-top oyna. Torbadakı küncüt isə o deməkdir ki, mənim qoşunumun sayı bu qədər çoxdur.

İsgəndər bunu başa düşcək bir ağ toyuq gətirtdirdi, küncütü onun qabağına tökdü. Toyuq küncütü yeyib qurtardı. Onda İsgəndər elçilərə dedi:

— Gedin, Daraya deyin ki, bu bir toyuq bir torba küncütü yediyi kimi mən də İran qoşununu təkcə özüm məhv edə bilərəm.

Elçilər dala qayıdıb İsgəndərin cavabını Daraya xəbər verdilər. O, tez güclü qoşun toplayıb İsgəndərin üstünə yollandı. Onun qoşunu İsgəndərinkindən qat-qat artıq idi. Lakin çox zülmkar olduğuna görə iranlılar onu sevmir və hər anda ona xəyanət edirdilər. Döyüşlərdən birində Dara İsgəndər ilə üz-üzə gələn zaman onu öz sərkərdələri arxadan vurdular. İsgəndər atdan yerə düşüb Daranın başını öz dizi üstə qoydu. Dara ölən vaxt İsgəndərə dedi ki, mən sənin qardaşınam. İsgəndər onu hörmətlə yerdən götürdü, özü isə İrana sahib oldu.

## APARDI SELLƏR SARAYI...

Xançobannı tayfasından Nuru adlı bir oğlan Şamaxı yaxınlığındakı Məlikçobannı tayfasından Saray adlı bir qıza nişanlı idi. Yaz vaxtı idi. Toy başlandı. Bu tayfalardan biri çayı keçib Məlikçobannı tayfasına, Saraygilin qapısına, gəlini aparmağa gəlmişdi. Burada xörək hazır deyildi. O bişincən, yeyilincən hava qaraldı. Oğlan evinin adamı gəlini ata mindirib çayın qırağına gəldi. Biri dedi:

– Su elə gündüzkü qədərdir.

Başqası dedi:

– Azacıq artıb.

Kor yengə Minabacı dedi:

– Çəkilin belə, mən balağımı çırmayıb keçim. Çayda su nə gəzir?

Onun belə ürəkli danışmağı kişiləri cürətləndirdi. Atları suya vurdular. Heç iki qədəm getməmişdilər ki, gəlin minən at çayın çökək yerinə düşdü. Saray utandığından əlini yüyənə uzada bilmədi; su atı bükdü, qaranlıqda qız at qarışıq suya yıxılıb batdı. Kişilərdən biri bunu gördü, səs düşdü, atları geri qaytarıb qırağa çıxdılar. Lakin heç kəs cürət edib suya girə bilmədi, su da get-gedə artırdı, qaranlıqda göz-gözü görmürdü, adamlar çay aşağı çox yüyürdülər, çayın qıraq tərəflərində çox axtardılar. Lakin su daha da artdı, sel Sarayı apardı. Səsə-ağlaşmaya Məlikçobannı camaatı tökülüşüb gəldi. Sabaha kimi axtardılar, tapılmadı. Kişilər axtarmağa, arvadlar isə ağız açıb oxşamağa başladı. Artıq sel yatdığı üçün Xançobannı camaatı da çayı keçib onlara qoşuldu. Ağlaşma başlandı. Nurunun anası:

Arpa çayı aşdı, daşdı,
Sel Sarayı aldı, qaçdı.
Nuru qaldı gözü yaşdı,
Apardı sellər Sarayı,
Bir ala gözlü balanı.

**Sarayın anası:**
Arpa çayı dərin olmaz,
İçmə, suyu sərin olmaz.
Saray kimi gəlin olmaz
Apardı sellər Sarayı,
Bir başı şallı balanı.

**Sarayın bibisi:**
Düyünü tökdüm tabağa,
Bişmədi, qaldı sabaha
Kor yengə düşdü qabağa
Apardı sellər Sarayı,
Bir üzü xallı balanı.

**Nurunun bibisi:**
Gedin deyin Xansobana,
Getməsin bu qış Muğana.
Getsə, düşər nahaq qana
Apardı sellər Sarayı,
Bir ala gözlü balanı.

**Nurunun anası:**
Gətir bura xas paltarı,
Qara boya, as paltarı,
Oba geysin yas paltarı,
Apardı sellər Sarayı
Bir üzü xallı balanı.

**Nuru:**
Alça dəyib, dərməmişəm,
Dərib çığa sərməmişəm.
Mən Sarayı görməmişəm,
Apardı sellər Sarayı,
Bir ala gözlü balanı.

**Sarayın anası:**
Ceyran endi, düzə gəldi,
Erkəciynən sözə gəldi.
Saray balam gözə gəldi,
Apardı sellər Sarayı,
Bir ala gözlü balanı…

## ŞAİR ALLAHİYLƏ MUSTAFA XAN

Şair Allahi çox hazırcavab, bilikli, mehriban, lakin sözü şax üzə deyən bir şəxs idi. O, Mustafa xanın ən yaxın həmsöhbəti və məsləhətçisi idi. Xanın dostları ona həsəd aparır və bunların arasını vurmağa çalışırdı. İş elə gətirdi ki, Mustafa xanın gözləri ağrımağa başladı. Bir gün Allahi bağda edərkən belə bir bayatı dedi:

Aşıq səfa yaxşıdır,
Əhdə vəfa yaxşıdır.
Şahlar, xanlar içində,
Tək Mustafa yaxşıdır.

Şairi istəməyənlər gedib Mustafa xana dedilər ki, bəs Allahi sənin gözünün ağrımağına çox sevinib, dua eləyir ki, kor olasan. Özü də bu gün bağda neçə adamın yanında belə bir bayatı dedi:

Aşıq səfa yaxşıdır,
Əhdə vəfa yaxşıdır,
Gözlü Mustafa xandan
Kor Mustafa yaxşıdır.

Xan neçə adamdan soruşdu, hamı sözü bir yerə qoyduğu üçün yalandan and içib onu inandırdı. Xan qəzəblənib əmr etdi ki, Allahini zindana salsınlar.

Fərraşlar heç şeydən xəbəri olmayan Allahini tutub zindana saldılar. Zindana bir qoca kişi də var idi. O, bütün günü ah-zar edirdi. Şair onun dərdini soruşanda dedi:

— Ay qardaş, sənin dərdin mənimkinin yanında heç nədir. Mənim dərdim uzundur. Mən çobanam. Ağamirzə ağanın qoyununa gedirdim. Bir gün bikefləyib evdə qalmışdım. Sabahı günü qoyuna gedəndə gördüm ki, qonşu çobanlar xamımı basdırıb, eşşəyimi minib, imimi də öldürüblər. Cin vurdu beynimə. Onlardan düz üç nəfərini öldürdüm. İndi fikir eləyirəm ki, görəsən, mənsiz o qoyunlar necə otlayır, quzuları kim tanıyır, xamı basdıran olurmu?

Allahi çobanın belə avam olduğunu görüb bir qədər də artıq kədərləndi ki, mən kimə yoldaş olmuşam. Günügündən artıq qəm-qüssə çəkməyə başladı. Bir gün orucluq bayramının axşamı idi. Müstafa xan zindanı gəzməyə çıxmışdı. Allahidən soruşdu ki, kefin necədir? Şair dedi:

Mən aşiqəm, bu daşa,
Bu torpağa, bu daşa,
Dərdimi necə deyim,
Etibarsız qardaşa?

Mustafa xan dedi:

— Ay zalım oğlu, bayatı deməkdən qorxmursan?

Allahi soruşdu:

— Niyə qorxum, ay xan?

Xan bütün olub-keçənləri danışdı. Allahi də nə cür demişdisə, yenə dedi. Mustafa xan dedi:

— Sən bir az da burda dur, bu saat həmin böhtançıları bura göndərərəm, səni isə azad elərəm.

Allahi yalvarıb dedi:

— Səni and verirəm dostluğumuza, onları buraya göndərənə kimi məni burada qoyma. Dünyada ən böyük cəza nadan, cahil adamla yoldaş olmaqdır.

Xan gülüb onu özü ilə bərabər apardı.

## ŞAH İSMAYILLA BAĞBAN

Şah İsmayıl Xətai ova çıxmışdı. Bir kəndin kənarında kolluqda turac görüb qırğısını buraxdı. Turac qırğını görüb özünü kəndə atdı, hər ikisi bir uca hasarlı bağa girdilər. Şah İsmayıl da onların dalınca gəldi, lakin hasar uca olduğundan at onu aşa bilmədi, odur ki, darvazadan içəri girdi. O, gördü ki, bura cənnət kimi bir yerdir. Sarı lumular, qırmızı narlar, sarı heyvalar, müxtəlif meyvələr bir-birinə qarışıb. Ovunu və qırğısını tapıb bağdan çıxmaq istəyirdi ki, bağban evdən çıxıb salam elədi. Şah İsmayıl adi ovçu paltarında olduğu üçün onu tanımadı, düşüb dincəlmək təklif elədi. Şah təşəkkür edib bir qab su istədi. Bağban bir nar qırıb onu qaba sıxdı, qab dolusu nar suyunu şaha verdi. O, nar suyunu içib bağbana təşəkkür edib soruşdu:

– Əmican, narın hamısı bu qədər suludurmu?

– Bəli, oğul, bu yerin narı çox şirəlidir, – deyə bağban cavab verdi.

Şah İsmayıl soruşdu:

– Bu bağ sənindirmi?

— Bəli, oğul, bu ağacların hamısını bircə-bircə özüm əkmişəm. Evi də, həyəti də bu bağın gəliri ilə düzəltmişəm. Dolanacağım da onunladır.

Şah İsmayıl soruşdu:

– Bəs bu bağın bəhərindən şah vergi almır?

Bağban dedi:

– Xeyr, oğul, şah çox yaxşı adamdır, hələ belə şey onun ağlına gəlməyib. Əgər belə olsa, mən ac qalaram.

Şah İsmayılın xəzinəsi çox boşalmışdı. Düşündü ki, əgər bağlardan vergi alsam, xeyli pul toplanar. Bu vaxt bağban bir nar da üzüb suyunu sıxmağa başladı. Lakin nə qədər elədisə də, narın suyu çıxmadı, cəmi iki-üç damcı çıxdı. On-on iki narı sıxdı, piyalə dolmadı. Bağbanı fikir götürdü. Şah soruşdu:

– Əmican, nə fikrə getdin?

Bağdan dedi:

– Ay oğul, necə fikrə getməyim ki, şahımız öz xəzinəsini doldurmaq üçün bağlardan vergi almaq fikrinə düşüb. Ona görə də narın şirəsi qurudu.

Şah İsmayıl soruşdu:

— Sən bunu nədən bilirsən?

Bağban dedi:

— Özün gördün ki, əvvəl qırdığım narın bir piyalə suyu çıxdı. Lakin elə ki, şah bağlardan vergi almaq fikrinə düşdü, narların şirəsi qurudu. Bu, o deməkdir ki, Allahtaala ööz nəzərini bizdən çəkdi.

Şah İsmayıl xəyalında öz fikrindən döndü və bağbana dedi:

— Ay əmi, bəlkə bu pis nar imiş. Bir başqa nar qır, onun suyunu sıx.

Bağban narı qırdı, sıxan kimi suyu piyaləni doldurdu. Kişi sevincək dedi:

— Şükür Allaha, şah fikrini dəyişdi. Ədalətli şahın zamanında narın da suyu artıq olar, insanların da canı sulu olar.

## QAZIYANAN

Gülxanım arvadın əri təzəcə ölmüşdü. Çoxlu var-dövləti olsa da, altı kiçik uşağı ilə tək qalmışdı. Heç ərinin qırxı çıxmamış kəndin qazısı ona xəbər göndərdi ki, bəs mənə bir kəlmə desin, siğəsini oxuyum özümə, cavan arvadın dul qalmağı yaxşı deyil. Gülxanım gələn adama mülayimlikdə dedi ki, bəs mən ərə gedəsi deyiləm, oturub yetimlərimi saxlayacağam. Qazı əl çəkmədi, elçini elçi üstündən göndərdi, lakin hər dəfə də rədd cavabı aldı.

Qazı cavan, gözəl arvaddan, onun var-dövlətindən keçmək istəmirdi. Odur ki, iki şahid götürüb qonşu kəndin qazısının yanına getdi və arvadın kəbinini özünə kəsdirdi. Sonra Gülxanıma xəbər göndərdi ki, bəs mənim kəbinli arvadımdır, heç o yan-bu yan eləməsin, axşam evə gələcəyəm.

Gülxanım bu xəbəri eşidəndə haray-həşir saldı, and içdi, aman elədi ki, mən razı olmamışam. Axşam üstü qazı üç-dörd ağsaqqalla birlikdə həyətə girdi. Gülxanım onları görəndə həya edib çığır-bağır salmadı. Kişilər içəri keçdilər, bir az oturub həyətə çıxdılar. Bu vaxt Gülxanım həyətdə idi. O, çarhovuzun yanında üzü qibləyə durub Allaha yalvarırdı:

— İlahi, hər kim ki, sənin adınla nahaq iş tutur, ona od vurub odlayasan.

Elə bu dəm evdən tüstü qopdu, alov qalxdı, qazı yana-yana həyətə çıxdı. Kişilər nə illah elədilərsə, söndürə bilmədilər. Nahaq iş tutan diri-diri yandı. Sonralar o oba dağıldısa da, həmin yerə indi də "Qazıyanan" deyirlər.

## İSGƏNDƏRLƏ FALÇI

İsgəndər Zülqərneyn zülmətdən qayıdırdı. Qoşun tamam yorulub əldən düşmüşdü. Hansı yol ilə, haraya gedəcəklərini bilmirdilər, yemək-içməkləri də qurtarmaq üzrə idi. Belə halda bir gün İsgəndər Zülqərneyn gördü ki, meşədən saçları dağınıq, üst-başı cırıq-cırıq bir qoca arvad çıxdı. İsgəndər atını ona tərəf sürdü. Qarıya yetişib salam verdi. Qarı əleykəssalam dedi. İsgəndər soruşdu:

– Qarı nənə, kimsən, nəçisən, bu meşəlikdə nə qayırırsan?

Qarı dedi:

– Oğul, mən falçıyam, dünyanı gəzib camaata gələcəkdən, gedəcəkdən xəbər verirəm.

İsgəndər soruşdu:

– Qarı nənə, mənim də gələcəyimdən bir şey deyə bilərsənmi?

Qarı dedi:

– Niyə demirəm, əlini mənə ver, mən ələ baxıb fal açıram.

İsgəndər əlini qarıya verdi. Qarı bir xeylək onun əlinin cizgilərinə baxıb dedi:

– Oğul, sənin qoşunun səndən çox narazıdır. İçərində elə adamlar var ki, səni taxtdan salmağa çalışır. Əgər bir-iki günə bir mənzilə, bir yola çıxa bilməsəz, səndən üz döndərəcəklər.

İsgəndər narahat halda soruşdu:

– Bəs mənə çarə yoxdurmu, nənəcan?

Qarı dedi:

– Çarəsiz dərd olmaz, oğul. Məni bir bəhanə ilə özünlə götür. Sənə köməyim dəyər.

İsgəndərin əmrilə qarını ata mindirdilər. Qoşun yoluna davam etdi. Qarı yolda İsgəndərə dedi:

– Düşərgə salmamış, yol gedə-gedə qoşun əhlinə yaxşı mükafat vəd elə. Unutma ki, çətin gündə şirin söz, gülər üz, xoş rəftar adama arxa-köməkdir.

İsgəndər qoşunu saxlatdırıb hamıya bildirdi ki, düşərgəyə çatan kimi hərəyə on qızıl pul veriləcək. Qoşun əhli sevincək "sağ olsun, İsgəndər şah" deyə bağırdı. Elə həmin gün vəd edilmiş qızıllar əsgərlərə verildi. Sabahı günü yenə belə vədlə qoşun irəlilədi. Üç gün beləcə keçdi. Dördüncü günü qarı qoşuna bir də nəzər salıb dedi:

– Oğul, qoşun əhli çox acdır. Bu dəfə qızıl vəd etməyin heç bir mənası yoxdur. Onlara yemək vəd etmək lazımdır.

İsgəndər soruşdu:

– Qarı nənə, axı mənim azuqə ehtiyatım tükənib. Bu çöllü-biyabanda da bazar yox, kənd-şəhər yox. Elə bil vəd elədim. Bəs axşam yalançı çıxmarammı?

Qarı dedi:

– Oğul, Allah kərimdir. Sən vədini elə, görək başımıza nə gəlir.

İsgəndər qoşuna vəd etdi ki, axşam hamıya xeyli çörək və yaxşı xörəklər veriləcək. Qoşun əhli yemək adını eşitcək həvəsləndi, sürətlə irəliləməyə başladı. Axşam düşdü, lakin qoşun əhli həvəslə irəliləyir, İsgəndərin onları dayandırıb yemək verəcəyini gözləyirdi. İsgəndər də mat qalmışdı ki, indi qoşun əhlinə nə cavab verəcək?

Birdən qarının səsi eşidildi:

– Oğul, gözün aydın, irəlidə bir böyük şəhər görünür.

İsgəndər irəliyə baxıb gördü ki, irəlidə böyük bir şəhər var. O da, qoşun əhli də atları tərpətdilər ki, gecə düşməmiş şəhərə daxil olsunlar. Birdən İsgəndər baxıb gördü ki, falçı qarı yanında yoxdur. Səs saldı, axtartdırdı, amma tapa bilmədi.

Beləliklə, qarının tədbiri nəticəsində İsgəndər qoşunu ilə sağ-salamat gəlib şəhər ucuna çıxdı.

## ATLAR

Bir dövlətli kişi var idi. Bunun sürü-sürü malı, qoyunu, atı, dəvəsi var idi. Amma özü elə xəsis idi ki, barmağının arasından darı sızmazdı.

Bu dövlətlinin bir kasıb qonşusu var idi. Böyük ailəsi var idisə də, cəmi bir atı vardı, onunla cüt əkər, mala çəkər, dərz daşıyar, xarman döyər, taxıl daşıyar, hər yerə onu minərdi.

Günlərin bir günü bu kasıbın atı öldü. Kişi çaş-baş olub qaldı. Cüt əkməyin şirin vaxtı idi, əgər indi vaxtı ötürsəydi, sonra heç nə bitməz, qışda balaları ac qalardı. O, qonşusunun xəsisliyini bilsə də, əlacı kəsildiyindən durub onun yanına gəldi. Atının ölməyindən danışıb, iki-üç günlüyə cütə qoşmağa bir at istədi. Qonşu dedi:

– Nə olar, ay qonşu, at sənə qurbandır, get İlanlı dağa, ilxım orda otlayır. Bir at tut gətir.

Kasıb razılıq eləyib getdi. Gecəni yatmayıb İlanlı dağa gəldi. Çox çətinliklə bir erkək at tutdu. Minib obaya gəldi.

Elə qapıda xamutlayırdı ki, xəsis qonşu hasarın başından dedi:

– Amandır, qonşu, əl saxla, bu atı qoşma. Onun sancısı var. Tərləsə, sancı tutub öləcək. Bunu burax, get bir ayrısını gətir.

Kasıb razılıq edib atı buraxdı, yenə piyada dağa getdi və ikinci günü bir madyan at tutub gətirdi. Elə qapıya çatmışdı ki, qonşu onu səslədi:

– Başına dönüm, qardaş, bu madyan ilkinə boğazdır. Qoşarsan, baladan çıxar, daha heç vaxt doğmaz. Bunu burax, get bir ayrısını gətir.

Kasıb üçüncü gün gedib bir başqa at gətirdi. Bu dəfə qonşu dedi:

– Ay rəhmətliyin oğlu, o boyda ilxıda at tapmadın, bu ki, min ilin qocasıdır, qoşan kimi öləcək, hər ikimiz xəcalətli olacağıq.

Kasıb dördüncü gün gedib bir cavan day gətirdi. Bunu görən xəsis dedi:

– Kişi, vallah, sən iş görən deyilsən. Əşi, bu ki, körpədir, xamut görməyib, qoşan kimi partlayıb öləcək, ikimiz də xəcalət qalacağıq.

Əlacsız qalan kasıb beşinci gün gedib bir kürən at gətirdi. Qonşu bunu "arağaş boğaz", deyə qoşmağa qoymadı. Altıncı gün gələn at "ürgəyən", yeddinci gün gələn "yatağan", birisi "vurağan", o biri "qoşqu bilməz", bir başqası "tərləyən oldu. Axırı ki, bu minval ilə bir ay tamam kasıb gündə dağa gedib bir at tutub gətirdi və gündə də xəsis qonşu onları bir bəhanə ilə buraxdırdı. Beləliklə, cüt əkmək vaxtı sovuşdu. Kasıb tamam ac qaldı.

Aradan iki gün keçmiş xəsis qonşu İlanlı dağa ilxıya baş çəkməyə getdi. Gördü ki, ilxıdakı atların hamısı dönüb daş olub.

Onlara indi də "Atlar" deyirlər.

## MƏRYƏM NOXUDU

Məryəm arvadın əri ölmüş, yeddi yetimi ilə ac-yalavac qalmışdı. İki gün idi ki, uşaqlar heç nə yeməmişdilər. İndi də acından ağlaşır, onun böyrünə qısılıb yemək istəyirdilər. Əlacsız qalmış Məryəm qazanı qoltuğuna vurub uşaqları da yanına salıb dağa çıxdı. Dağda ocaq qaladı, bulağın suyundan qazana doldurub ocağa qoydu. Uşaqlara dedi:

– Siz gedin, yemlikdən-zaddan yeyin. Siz gələnəcən mən xörək bişirəcəyəm.

Uşaqların hərəsi bir yana dağılışdı.

Məryəm fikir içində oturmuşdu. Öz-özünə düşünürdü ki, indi uşaqlar gələndə mən onlara nə cavab verəcəyəm? Aradan bir qədər keçdi. Uşaqlar qayıdıb gəldilər. Dedilər:

– Ana, acmışıq, tez ol, xörəyi ver, yeyək.

Yazıq Məryəm əlacsız qalıb qazanı yerə qoydu. Ağzını açanda heyrətdən donub qaldı: qazan ağzına kimi vəhşi noxudla dolu idi. Uşaqlar onu həvəslə yedilər. Məryəm baxıb gördü ki, bu koldan hər tərəfdə bitib. Bir müddət uşaqlarını onunla saxladı.

O bitkiyə indi də "Məryəm noxudu" deyilir.

## QAÇAQ NƏBİNİN KƏNDLİYƏ EV TİKMƏSİ

Günlərin bir günü qaçaq Nəbi öz dəstəsi ilə yaylağa qalxırdı. Yolu bir kənddən düşdü. Gördü ki, bir kasıb kəndlinin həyətinə od düşüb, evi, dam-daşı, samanlığı, həyəti-bacası tamam yanıb, arvad-uşağı çöldə qalıb. Nəbi öz dəstəsi ilə yanğın yerinə yaxınlaşdı, salam verdi, sonra öz yoldaşlarına dedi:

– Qardaşlar, bu kişinin köç-külfəti çöldə qalıb, gəlin əl-ələ verək, bunun ev-eşiyini, həyət-bacasını, dam-daşını tikək.

Hamı razı oldu. Qaçaqlardan bəzisi uçulmuş kərpicləri hördü, bəzisi suvaq vurdu, bəzisi həyət-bacanı təmizlədi, üç-dördü at ilə meşəyə gedib evin və damların üstünə atmaq üçün ağac kəsib gətirdi. Axşam üstü evin və damların üstünü örtüb torpaqladılar, hasarı çəkib qurtardılar.

Gün batan çağı Nəbinin dəstəsi yola düşürdü. Kənd camaatı yığılışıb onları yola saldı. Ev yiyəsi Nəbiyə və yoldaşlarına "çox sağ olun" dedi. Nəbi dedi:

– Qardaşlar, biz gərək bir-birimizi darda qoymayaq, çətin gündə bir-birimizə kömək eləyək. Aşıq deyib ki, "el bir olsa, zərbi gərən sındırar".

## DİRİ BABA

Şair Hüseynəli Şirvani gözəl alim və nəcib insan idi. Kasıblara əl tutar, xəstələrə müalicə edər, müşkül dərdlilərə əlac tapardı. Amma həmişə eldən-obadan uzaq bir yerdə, sərt bir qayanın çapmasında yaşar, dərviş həyatı keçirərdi. Onun yanına gələnlər şairi həmişə şeir yazan görərdilər.

Şair çıraq yandırmazdı, ancaq gecələr onun oturduğu yerdən ətrafa işıq saçardı.

Bir gün qoca şair xəstələndi, şagirdlərindən birini yanına çağırıb hər bir dərdin dərmanını ona öyrətdi:

– Məndən sonra eli-obanı dava-dərmansız qoyma, – dedi. Sonra başqa bir şagirdinə bir vərəq kağız verib dedi:

– Nə vaxt el-obamız çətinliyə düşsə, ehtiyacı olsa, bu kağızda işarə olunan yerlərdən birini qaz, oradan xeyli var-dövlət götür, ehtiyacı olanlara payla. Bu, mənim el-obama yadigarımdır.

Nəhayət, üçüncü şagirdinə bir xeyli yazılı kağız verib dedi:

– Bunlar mənim yazdığım şeirlərdir. Bunları el-obanı gəzib, xalqım üçün oxu. Qoy mənim səsim hər zaman eldə səslənsin.

Qoca şair öldü, onu elə oradaca, qayalıqda dəfn etdilər. El-oba ayağını oradan çəkmədi, əksinə, gəlib-gedənin sayı get-gedə artdı: dərdi olanlar dərmana, ehtiyacı olanlar pula, şeirə hörməti olanlar şeirə gəldilər.

Camaat arasında belə bir fikir oyandı ki, şair ölməyib, diridir. Analar öz balalarını diri babadan öyrənməyə dəvət etdilər, cavanlar diri babanın ziyarətinə getdilər.

O vaxtdan şairin məzarı "Diri baba" adını aldı.

## QAZININ ƏMƏLİ

Müslüm bəy ovdan kefi kök, damağı çağ qayıdırdı – ovu uğurlu olmuş, bir ceyran və altı kəklik vurmuşdu. Nökərlər ovu, tazı və qırğıları çoxdan aparmışdılar. O isə atın cilovunu üstünə atmışdı, at addım-addım getdikcə bəy

də kəndin uca çinarlarlı bağlarına, bulağa sarı gedən qız-gəlinə, yamaclara yayılıb otlayan qoyun-quzu sürülərinə tamaşa edirdi. Birdən kəndin ən ucqar həyətlərinin birindən al-yaşıl geyimli bir gəlin çıxıb bulağa tərəf getməyə başladı. Gəlinin boy-buxunu, yerişi, mütənasib əndamı Müslüm bəyin diqqətini cəlb etdi. Gəlin yol ilə ona tərəf gəlirdi ki, birdən qəflətən qopmuş külək kalağayısını başından götürdü. Gəlin güyümü yerə qoyub kalağayını başına örtənə kimi bəyin ağlı başından çıxdı: o, göydən enmiş mələklər kimi gözəl idi. Bəy bir könüldən min könülə ona aşiq oldu. Atı necə sürdüyünü, imarətə necə yetişdiyini bilmədi. Həyətə çatan kimi nökərə:

– Tez, darğanı bura çağır, – dedi.

Müslüm bəy darğanı görən kimi birinci sözü bu oldu:

– Bu yaz kəndə başqa yerdən gəlin gətirən olubmu?

Darğa:

– Bəli, bəy, – dedi, – başına dönüm. Səfəralı kişinin oğlu Mirzəli üçün Muradlıdan bir gəlin alıblar. Necə bəyəm?

Müslüm bəy fikirli-fikirli dedi:

— Heç, elə-belə soruşdum. Sən get, sonra gələrsən. Sənə sözüm var, amma indi başım ağrıyır.

Darğa gedəndən sonra bəy dərin xəyallara daldı… Gəlin gözlərinin önündən səkilmirdi…

Axşam oldu. O, qazını çağırdı, gizli dərdini ona açdı. Qazı dedi:

— Bəy, and olsun yediyimiz çörəyə, bunun bircə əlacı var. O da budur ki, gəlini zor ilə çəkib gətirəsən evinə, Mirzəlini də məcbur eləyəsən ki, onun talağını verə. Yoxsa başqa cür yolu yoxdur.

Bəy fikirli halda dedi:

– Sən bir yaxşı fikirləş. Axı bu yaxşı düşməz. Bəlkə başqa tədbir tökəsən? Bu yolda maldan-puldan qızırğanan deyiləm.

Qazı pul söhbətini eşitcək dedi:

– Bəy, başqa yolu bu olar ki, Mirzəlinin başını əkdirəsən.

Bəy başını buladı:

— Bu da uzun söhbətdir.

Qazı udqundu, sonra gülümsünüb dedi:

– Bir başqa yol da var, amma onun xərci bir az artıqdır.

— Hə, bax, elə o yolu de. Xərcin fikrini çəkmə, — deyə bəy əlini cibinə atıb bir kiçik torba çıxartdı və oradan bir neçə qızıl götürüb qazının qabağına qoydu.

Qazı pulları əbasının cibinə yerləşdirib dedi:

— Mən belə elərəm: sabah Səfəralı kişini çağırtdırıb deyərəm ki, bəs Muradlının mollası mənə xəbər göndərib ki, səni aldadıblar. O gəlin kəbinlidir. Daha sonrası ilə işin olmasın.

Müslüm bəy gülümsündü:

– Bəs bu uzun çəkməz?

Qazı saqqalını tumarlayıb dedi:

– Sabah gecəyə kimi dayana bilmirsən?

Qazı səhər tezdən Səfəralı kişini çağırtdırdı. Kişi içəri girən kimi onu top-tüfəngə tutdu:

– Yekə ağsaqqal kişisən, heç utanmırsan?

Səfəralı kişi donub qaldı:

– Qazı ağa, sənə qurban olum, mən neynəmişəm?

– Dəxi bundan artıq neynəyəcəksən? Gedib xalqın kəbinli arvadını gətirmisən, mən də sənə inanıb kəbini kəbin

üstündən kəsmişəm. Əgər bu xəbər şeyxülislama yetişsə, şəksiz səni də, məni də, şahidləri də daşqalaq elətdirəcək.

Səfəralı kişi dedi:

– Qazı ağa, axı o gəlin boşanıb.

Qazı səsini ucaltdı:

– Kəs səsini, dinsiz! Onu kim boşayıb? Muradlının mollası özü mənə kağız göndərib ki, bəs səni aldadıblar. İndi bunun bircə yolu var. Bu saat gəlini evdən çıxardıb gətirirsən bura, boşayıram, qurtarır gedir.

Səfəralı ağlamsındı:

– Bəs mənim oğlum buna nə deyəcək?..

Qazı çığırdı:

– Oğlun nəkarədir xalqın kəbinli arvadına yiyə dura?! Tez ol, ləngimə! Gəlini gətir, boşayım, otursun mənim evimdə, görüm nə çarə qılıram.

Aradan yarım saat keçməmiş gəlin gətirildi. Qazı gəlinin talağını geri oxudu. Səfəralı ilə oğlu evdən çıxan kimi o biri otaqdakı Müslüm bəy içəri girdi. Qazı üzünü gəlinə tərəf tutub dedi:

– Qızım, bu işin sahmana düşməsi üçün gərəkdir ki, sən bir müddətlik bir başqa kişiyə ərə gedəsən. Sonra boşanıb təzədən Mirzəliyə kəbin kəsdirə bilərsən. Mən məsləhət bilirəm ki, elə uzağa qoymayaq. Bax, kəbinini elə bu Müslüm bəyə kəsim, nə deyirsən?

Gəlin ağlar gözlərilə içəri girən kişiyə baxıb onu tanıdı: bu, dünən kəndin qırağında onu üz-başı açıq görən kişi idi. Deməli, bütün hoqqalar bunun üçün imiş…

Qazının səsi onu fikirdən ayırdı:

— Hə, başlayımmı?

Gəlin nə deyəcəyini bilmədi, onu həya təri basdı:

– Mən ərə gedən deyiləm…

Qazı səsini ucaldaraq:

– Öz xoşunasan? – dedi. Sonra isə nökəri çağırıb əlilə bəzi işarələr etdi. Nökər gəlini o biri otağa keçirtdi. Sonra isə qapıda hazır durmuş iki kişini içəri çağırdı. Onlar gəlinin "vəkil etdiyi" şahidlər idi. Qazı onların vəkilliyilə gəlinin kəbinini Müslüm bəyə kəsdi.

Axşam gəlini zorla bəyin evinə apardılar.

Aradan bir-iki ay keçdi. Bu müddətdə onu danışan, gülən, eyni açılan görən olmadı. İşi-peşəsi ağlamaq oldu. Rəngi soldu, arıqladı, bəyin gözündən düşdü.

Bir gün qazı Səfəralı kişini və oğlunu yenə də yanına çağırtdırdı:

– Kişi, sizin işinizi birtəhər yoluna qoymuşam. İndi gəlinə təzə kəbin düşür.

Ata-oğul gəlini tanımadı: onda tanınası bir sifət qalmamışdı. Qazı ona müraciətən dedi:

– Qızım, indi sən boşsan, kəbinini Səfəralı oğlu Mirzəliyə kəsimmi?

Gəlin özünü saxlaya bilmədi, neçə vaxtdan bəri qoynunda gizlətdiyi xəncəri çıxarıb qazıya tərəf yeriyib:

– Şərəfsiz, – dedi. – Qızıl-gümüşə aldandın. Məni bəyə vermək üçün dini də, şəriəti də, namusu da ayaqladın. İndi mən də bu üzlə ərimin evinə qayıda bilmərəm.

Gəlin bunu deyib xəncəri əvvəl qazının qarnına soxub onu, sonra da özünü öldürdü.

## PİR HÜSEYN

X əsrin məşhur şairi Pir Hüseyn Şirvani çox məşhur həkim, münəccim və nəqqaş idi; dünyada hər dərdin dərmanını elər, hər köməksizin dadına çatardı.

Bir gün o, öz evində oturmuşdu. Birdən qapıya bir fərraş gəlib dedi:

– Şahın hərəmlərindən biri bərk xəstələnib. Şah əmr etdi ki, saraya gələsən.

Pir Hüseyn yerindən qalxırdı ki, ayaqyalın bir uşaq təngənəfəs özünü həyətə saldı:

– Həkim baba, dedi, – naxırçı Məmmədin anası Gülsüm qarını ilan vurub, səni çağırırlar.

Pir Hüseyn şahın çağırışına deyil, naxırçının evinə getdi. Şah bundan xəbər tutub şairi Şamaxıdan insan yaşamayan bir vadiyə – Pirsaat çayının ilan mələyən bir düzənliyinə sürgün elədi.

Şair burada bir xanəgah tikdirdi; xəstələri müalicə etdi, əlsiz-ayaqsızlara yer verdi, yetim-yesiri saxlayıb dərs öyrətdi, çayın sıldırım qayalarındakı sal daşlara şahbeytlər qazdı. İllər keçdi, şairin xanəgahının sorağı Şamaxıya yetişdi. Şah qəzəbləndi:

– Deməli, mən şah olduğum vilayətdə bir şairin adı məndən artıq çəkilsin? Hara gedirəmsə, Pir Hüseyndən danışırlar. Heç mənim adım yada düşmür. Mən buna yol verə bilmərəm.

Vəzir-vəkil onu güclə sakit elədilər.

Aradan bir müddət keçdi. Bərk aclıq oldu. Pir Hüseyn Şamaxıya karvan-karvan taxıl göndərib əlsiz-ayaqsızlara paylatdırdı. Yetim-yesiri öz xanəgahında dolandırdı.

Şah qəzəbindən alışıb yanırdı. "Bu ölkənin şahı mən deyiləm, Pir Hüseyndir. Gör iş nə yerə çıxıb ki, camaat iki günlük mənzilə onun ziyarətinə gedir. Bunu belə qoymaq olmaz" – deyə düşünüb bir nəfər yaxın adamını çağırdı, pul verdi:

– Get o şairi öldür, gəl. Səni böyük vəzifəyə qoyacağam, – dedi.

Qatil gecə ikən gəlib xanəgaha girdi. Qoca şair şam işığında oturub şeir yazırdı. Onun sadiq müridlərindən biri də qapının ağzında mürgüləyirdi. Qatil əvvəl müridi, sonra da Pir Hüseyni öldürüb aradan çıxırdı ki, hücrələrdəkilər oyandı. Qatili tutub tikə-tikə doğradılar.

Pir Hüseynlə müridini elə oradaca, Xanəgahda, hücrələrin birində dəfn etdilər. Şirvan əhli şairin qəbrini ziyarət etməyə getdi. Ora indi də "Pir Hüseyn" adlanır.

Şahın adı qalmadı, amma şairin adı yaşayır.

## İKİ ANA

Veysəlqara pirinə ziyarətə gəlmiş yüzlərlə qadın, uşaq və kişi vardı. Elə oldu ki, burada iki qadın öz qundaq uşağını hücrənin birinə yan-yana qoyub ibadətə getdi. Qayıdıb gələndə gördülər ki, burada cəmi bir qundaq var. Hər ikisi dedi:

– Bu uşaq mənimdir?

Həqiqətən də, uşağın ikisi də oğlan idi və qırmızı yorğançaya bükülmüşdü, ona görə də camaat bilmədi ki, bunların hansı haqlı, hansı haqsızdır. Səs-küy qopdu. Qadınların ikisi də qundağı almaq istəyir, ağlayıb çığırırdılar.

Səsə pirin mücaviri şair Məlali gəldi. O, hadisəni öyrənən kimi dedi:

– Nə olar, indi ki, belədir, onda bu qalan uşağı ortasından bölüb yarısını birinizə, yarısını da o birinizə verəcəyəm.

O, bunu deyib qundağı qucağına götürdü, cibindən bıçağı çıxartdı və bələyin ipini kəsməyə başlayanda qadının biri dedi:

– Amandır, baba, uşağı kəsmə, ver ona aparsın, mən istəmirəm!

Şair gülümsündü və hamının təəccübünə rəğmən uşağı ona verdi.

Camaat dedi:

– Ay pir baba, axı bu arvad uşağı istəmədi, niyə ona verirsən?

Şair dedi:

– Uşağın anası budur, çünki uşağın öldürülməyinə dözmədi. O biri qadın isə anası deyil, ona görə də mən bələyi kəsəndə ürəyi sancmadı. Əsl ana budur ki, uşağın kəsilməyindənsə, yad qadına verilməsini xahiş etdi.

## QANLI QALA

Davud xanın qızı Dürdanə kasıb kəndli Niyazı sevirdi. Atasının onu heç vaxt Niyaza verməyəcəyini bildiyi üçün bir gün o, Niyaza xəbər göndərdi ki, gəl məni apar. Niyaz da öz dostu ilə gəldi. Xanın ilxısından üç at tutdular, minib Dağıstana getdilər. Bundan yalnız qızın bir bacılığı xəbər tutmuşdu. Amma, sən demə, bir çuğulçu da bunları güdürmüş.

Xan ovda idi. Evə qayıdan kimi əhvalatı bildi. Çuğulçu hamısını yerbəyer danışdı. Xan onları axtarmağa bir dəstə atlı göndərdi. Aradan bir həftə keçməmiş qaçqınları tutub gətirdilər. Xan əmr etdi ki, onları zindana salsınlar. Özü isə şəhərin kənarında kiçik bir qala tikdirməyə başladı. Qalanın divarları yerdən iki-üç daş qalxandan sonra xan əmr etdi:

– Qızımı da, Niyazı da, onun yol yoldaşını da gətirib divara hörün!

Xanın qohum-əqrəbası, ağsaqqallar çox yalvarıb-minnət etdilər, o, dediyindən dönmədi: gəncləri divara hördülər. Sabahı günü xanın əmrilə Dürdanəgilin qaçmağını bilib ona xəbər verməyən qızı da gətirib divara hördülər. Bu qızı divara hörəndə o ağlaya-ağlaya bir bayatı dedi:

Bu qala, qanlı qala,
Divarı canlı qala.
Allah buna yol verməz,
Mən öləm, qanlı qala.

O vaxtdan bəri həmin qalaya "Qanlı qala" deyirlər.

## CAVANŞİR

Cavanşir öz qoşunu ilə Şamaxıya gəlirdi. Küdrü düzünü keçib dağa qablandılar. Birdən elə bir nəhəng dərəyə düşdülər ki, heç yana çıxa bilmədilər. Hə tərəf sıldırım qayalıq idi, nəinki atlı, heç piyada da dırmaşa bilmirdi. İki gün burada qaldılar. Cavanşir baxıb gördü ki, vəziyyət ağırdır, əgər tezliklə tədbir görülməsə, qoşun məhv olacaq.

Çox fikir elədi, axırı bu qərara gəldi ki, qayanı yarıb qoşunun çıxmağı üçün yol açsın. Lakin qoşun əhlində külüng, tişə və qeyri alətlər yox idi. Çarə bir qılınca qalırdı.

Cavanşirin qılıncı ildırım daşından düzəldilmişdi. Onu göz bəbəyi kimi qoruyurdu. Lakin indi başqa çarə yox idi. Gecə qoşun əhli yatan zaman Cavanşir öz vəziri ilə birlikdə qayalığın ayağına gəldi. Bir qədər ölçüb-biçdikdən sonra işə girişdi. O, hər dəfə qılıncını qayaya vuranda, elə bil ildırım şaxıyırdı; qaya parça-parça olub tökülürdü. Cavanşir bu qayda ilə səhər açılınca qayanı çapdı. Səhər açılanda yenə qoşunun içinə qayıtdı. Gündüz birtəhər əsgərlərin başını qarışdırdı. Gecə yenə qayanı çapmağa başladı. Bu minval ilə üç gecə yatmadı, yorulmaq bilmədən qayanı çapdı, nəhayət, dərədən çıxmağa yol açdı.

Səhən qoşun əhli gördü ki, Cavanşir qayanı çapıb yol açıb. Heç kimin inana bilmədi ki, üç gecəyə qılıncla qayaları çapıb yol açmaq olar.

Cavanşir dedi:

– Əgər qolunuzda el qüvvəti, ürəyinizdə el məhəbbəti olsa, dağ-daş sizin önünüzdə dayana bilməz.

O vaxtdan həmin qayalığa "Cavanşir" deyirlər.

## İSGƏNDƏRİN QARIDAN VERGİ ALMASI

İsgəndərə xəbər verdilər ki, bəs filan kənddə heç kim vergi vermir, deyir ki, kasıbıq, verəsi şeyimiz yoxdur. O çox qəzəbləndi:

– Necə yəni, verəsi şeyləri yoxdur! Bu saat təzədən o kəndə gedin və deyin ki, hərə mənə layiq nəsə bir şey ver-

sin, bu şərtlə ki, mənə gərək olan şey olsun. Əgər verməsələr, kəndi alt-üst eləyin.

Vergi yığanlar yenə həmin kəndə gəlib İsgəndər Zülqərneynin əmrini camaata yetirdilər. Kənd əhli əlacsız qalıb hərə şaha gərək olan bir şey – üzük, xalça, ipək parça və s. gətirib vergi yığanlara verdi. Axıra bir qoca qarı qaldı. Onu da çağırdılar, gəlib çıxdı, dedi:

– Vallah, mənim veriləsi bir şeyim yoxdur.

Dedilər:

– Elə şey olmaz. Get, bu saat nəsə bir şey tap gətir.

Qarı nə illah elədisə, olmadı, axırda məcbur olub evə getdi və bir qədərdən sonra bir balaca torba ilə geri qayıdıb dedi:

– Mənim gücüm buna çatır. Bu özü də şaha gərək olan şeydir.

Açıb baxıb gördülər ki, torbadakı adi torpaqdır. Dedilər:

– Qarı, İsgəndər Zülqərneyn torpağı neynir?

Dedi:

– Sizin nəyinizə gərəkdir? Aparıb verin, deyin ki, filan kənddə filan qarı verdi.

Vergi yığanlar daha bir söz deməyib getdilər. Saraya gəlib topladıqları şeyləri İsgəndərə göstərdilər. Axırda qarının verdiyi torbanı göstərdilər.

İsgəndər torbadakı torpağı görüb fikrə getdi və özözünə dedi: "Ey dili-qafil, mən heç ölümü yada salmıram. Qarı mənə qara torpaq göndərməklə başa salmaq istəyib ki, sənə axı gündə gərək olan bu qara torpaqdır".

İsgəndər həmin kənddən alınan şeyləri dala qaytardı və vergiləri ləğv elədi.

## YAZILI DAŞ

Şirvanın bəylərbəyisi Osman paşaya xəbər verdilər ki, şair Lətifi dindən dönüb, Quranı tərsinə şərh eləyir, deyir ki, kainatda bizim yer kürəsi kimi yerlər çoxdur.

Bəylərbəyi qəzəbləndi, Lətifini çağırtdırdı. Divan quruldu. Deyilənlərin hamısı sübut oldu: doğrudan da, Lətifi yerin kürə şəkilli və günəşin yerdən çox böyük olmasını deyir, günəşi mələklərin çəkməyini rədd edir, zəlzələ və yağışı kafir kimi izah edirdi.

Bəylərbəyi əmr etdi ki, Lətifini ömürlük olaraq zindana salsınlar. Şair dedi:

– Paşa sağ olsun, xahiş edirəm, tapşır ki, mənə kağız, mürəkkəb və qələm versinlər.

Ruhanilər etiraz etdilər. Onda Lətifi dedi:

— Onda, mümkünsə, məni zindanın divarları sal daşından olan gözünə salın. Özümə də bir tişə və bıçaq verin.

Paşa etiraz etmədi.

Lətifini aparıb zindana saldılar. İllər ötdü, paşalar dəyişildi, lakin şair heç birinin yadına düşmədi. Şair isə korun-korun yanan şamın işığına divarlara nəsə qazırdı. Bütün divarları qazıb qurtarmış, lakin toz və qaranlıqdan özü də kor olmuşdu.

Lətifi zindana salındıqdan 21 il sonra Əsgər bəy taxta çıxdı və zindanı gəzərkən Lətifinin saxlandığı gözdəki divarlara qazılan işarə və yazıları gördü. O, qoca və kor şairi azad etdi. Şair dedi:

– Xahiş edirəm, icazə ver, o divarlardakı daşları söküb mənə versinlər.

Əsgər bəy soruşdu:

— Bu qazdığın yazılar nədir?

Lətifi dedi:

— Mən bunların ucbatından 21 ildir ki, burada çürüyürəm. Bu daşları mənim qəbrimin üstünə qoysunlar. Mən səma haqqında bildiyimi bu daşlara yazmışam.

Əsgər bəy əmr etdi, daşları söküb Lətifinin dediyi yerə apardılar. Şair özü öləndə vəsiyyətinə görə daşları da qəbrinə döşədilər.

O daşların bir neçəsi indi də qalır. Onlara "yazılı daş" deyirlər.

## DƏLİ DAĞ

Mirzəli bəyin oğlu Səfər üç-dörd il idi ki, uzaq səfərə gedib qayıtmamışdı. Nə öldüsü məlum idi, nə qaldısı. Bəyə xəbər verdilər ki, guya Səfərin arvadı Gülşərəfi mehtər Abbasla bir yerdə görən olub.

Mirzəli bəy coşdu, kükrədi, amma içində çəkdi, el içində biabır olmamaq üçün səsini çıxartmadı. Arvadı ona çox yalvardı ki, ay kişi, yalan sözdür, gəlinə böhtan deyirlər, kişi qulaq asmadı.

Arvad dedi:

– Ay kişi, təki oğlumuz salamat qayıtsın, tapılmayan qız olsun. İndi ki, böhtana inanmısa, onda qana dəlalət eləmə. Qov getsin, mehtəri istəyir mehtərlə, bir qeyrisini istəyir, onunla yaşasın, əlini qana bulama.

Kişi söz verdi ki, əlini qana bulamayacaq.

Elə həmin gecə nökərlər bəyin əmrilə Gülşərəfi və Abbası tutub dağlara apardılar. Orada quyu qazıb hər ikisini quyuya qoydular, üstünü torpaqladılar.

Səhər dağ oyandı; səs-küy qopdu, dağdan tüstü çıxdı, alov qopdu, qaynar palçıq, yanar daşlar töküldü. Gülşərəflə Abbasın torpağa gömüldüyü yerdə iri bir quyu açıldı, oradan dumduru, göz yaşı kimi şor su axmağa başladı.

Dağ hər ayda-ildə bir dəfə beləcə inildəyir, guruldayır, sonra isə göz yaşı kimi su axıdırdı. Camaat əhvalatı biləndən sonra dedi:

– Dağ da belə allahsızlığı götürməyib, dəli olub.

O vaxtdan həmin dağa "Dəli dağ" deyirlər.

## MARAL GÖLÜ

İsmayıl bəyin oğlu Tapdıq bəy çoxdan idi ki, bağban Qasımın qızı Zəhraya göz verib-işıq vermirdi. Lakin qız çox əxlaqlı və namuslu olduğu üçün onun təklifinə razı olmurdu.

Bir gün Tapdıq bəy iki yoldaşını da götürüb yaraqlı, əsbablı gecə vaxtı Qasım kişinin evinə gəldi. O, zorla qızı evdən çıxardıb aparmaq istədi. Səsə Qasım kişi, arvadı və balaca oğlu da oyandılar. Əvvəl Tapdıq bəyə çox yalvardılar, o qulaq asmadı. Onda istədilər ki, qızı aparmağa qoymasınlar. Tapdıq və yoldaşları onların üçünü də doğrayıb öldürdülər, Zəhranın ağzını bağlayıb həyətə çıxartdılar. Ata mindirib dağlara tərəf çapdılar.

Onlar sabaha qədər yol gedəndən sonra dağlar qoynundakı kiçik bir gölün yanında düşdülər. Qızın da əl-ayağını və ağzını açdılar. Zəhra gölün qırağına gəlib üzünü suya tutdu və dedi:

— İlahi, özün məni bu zalımların əlindən xilas elə.

Qız bunu deyən kimi dönüb maral oldu, gölə girdi və üzə-üzə o biri taya keçib getdi.

O vaxtdan həmin gölə "Maral gölü" deyilir.

## YENGƏYANAN

Çoban Ağaların kefi kök idi: borc-xərclə də olsa, toy edirdi, axşam sevgilisi Pəriyə qovuşacaqdı.

Pəri, həqiqətən də pəri kimi incə, gözəl, mehriban bir qız idi. O, hətta ucuz çit paltarda da mələk kimi görünürdü. Axşama az qalırdı, bir azdan oğlan evinin adamı gəlib onu sevgilisinin evinə aparacaqdı.

Evdə ondan başqa təkcə bir yengə qalmışdı. Hamı aşığın nağılına qulaq asmağa getmişdi. Bu dəmdə qapıdan kişi səsi gəldi. Yengə qapıya çıxdı. Çağıran Xudaverdi ağanın oğlu Nizam idi. O, yengəyə dedi:

– Nənə, Pəridən ötrü divanəyəm, dərdimi heç kimə deyə bilmirəm, qızın da məramı yoxdur. Al bu yüz qızılı, qızı ver qaçırdım, dağlara aparandan sonra əlacı kəsilib mənə arvad olacaq.

Nizam çox yalvardı, axırı pulu yengəyə verib onu razı saldı. Özü içəri girdi. Pəriyə dedi:

– Hə, başına dönüm, dalınca gəliblər. Gəl səni pərdəyə büküm, qapıdan çıxanda görən olmasın.

Bunu deyib duvağı qızın üzünə çaldı, pərdəni də üç-dörd qat eləyib başına atdı ki, gözü ayağının altını görməsin. Sonra qızın əlindən tutub qapıya çıxartdı, "xoşbəxt olasınız" deyib, Nizamın tərkinə mindirdi.

Nizam xəlvətcə obadan çıxan kimi atı tərpətdi, sürətlə dağa tərəf çapmağa başladı. Pəri şübhələndisə də, utandığından səsini çıxarda bilmədi. Nəhayət, onlar bir kahın yanına gəldilər. Nizam özü düşüb Pərini də düşürtdü, lakin qucağından yerə qoymayıb sinəsinə sıxdı. Qız hiyləni başa

düşdü, qışqırdı, yalvardı, ağladı, əli heç yerə yetmədi. Axırda dedi:

– İlahi, yandım, yengəni yandırasan.

Elə o anda kənddən alov çıxdı. Yengə yana-yana çölə qaçdı, lakin obadan aralansa da, suya yetişmədi, yanıb kül oldu. O yerə indi də "Yengəyanan" deyirlər.

## QIRX QIZLAR

Bakı xanının qızı Xədicə xanım 39 incə belli gözəl qızla birlikdə dərya kənarına seyrə çıxmışdı. Qızlar gül-çiçək dərə-dərə, bir-birini qova-qova, özləri də hiss etmədən şəhərdən xeyli uzaqlaşdılar. Elə geri qayıtmaq istəyirdilər ki, hər tərəfi bir kor duman aldı, gəl görəsən. Heç iki qədəmlik mənzil də görünmədi. Qırx qız yolu çaş-baş salmamaqçın dayanıb dumanın çəkilməyini gözlədi. Bir xeyli gözlədilər, lakin duman çəkilmədi. Bu ara axşam düşdü, qaranlıq qarışdı. Qızlar dərya kənarındakı qayalıqda gecələməli oldular.

Elə bu zaman çapqından qayıdan qırx haramı bunlara rast gəldi. Haramıbaşı qızları sayıb gülərək dedi:

– Qardaşlar, heç kefinizi pozmayın, düz qırx qızdır. Adama biri, molla piri. Əldən zirək olun, hərə qızın birini götürüb kənara çəkilsin, xan qızı da mənim.

Xədicə xanım çox ağıllı qız idi. Gördü ki, heç vəch ilə bu haramılardan xilas olmaq mümkün deyil. Ona görə vaxt uzatmaq məqsədilə dedi:

— Ey haramıbaşı! Biz bütün günü günün altında, tozun-torpağın içində atılıb-düşmüşük. Ona görə tərləmişik, özümüzü yaxşı hiss etmirik. Qoy soyunub bir az çimək, təmizlənək. Sonra siz burda, biz burda.

Haramılar qızın sözünə inandılar. Qızlar soyunub dəryaya girdilər. Dəryanın içində Xədicə dedi:

— Qızlar, sizi bilmirəm, amma məniyçin namussuz yaşamaqdan, ölmək məsləhətdir.

Qızlar hamısı bir səslə dedilər ki, elə biz də namussuz yaşamaqdansa, ölməyi məsləhət bilirik.

Onlar dəryada bir qədər çimib qırağa çıxdılar. Burada əllərini göyə qaldırıb ağlaya-ağlaya dedilər:

— Allah, bizi rüsvay eləmə!

Elə o dəqiqə hamısı dönüb bir qaya oldu. O qayadan qızların göz yaşları damcı-damcı axmağa başladı.

O qayaya "Qırx qızlar" deyilir.

## KİMİN ƏLİ GÖZƏLDİR?

Bir qoca kişi bağda oturmuşdu. Gördü ki, burada üç gənc və gözəl xanım əyləşib. Onların hər birisi öz əlini tərifləyirdi. Qadının biri deyirdi:

– Mənim əllərim kimi ağ və yumşaq əl ola bilməz.

O birisi deyirdi:

– Mənim əllərim şirmayı kimi ağ, pambıq kimi yumşaqdır.

Üçüncüsü dedi:

– Mənim əllərimdən gözəl əllər yoxdur.

Onlar qocanı görüb dedilər:

– Ay baba, de görək hansımızın əli gözəldir?

Qoca dedi:

– Ay xanımlar, mən çox acam, acından başım gicəlir. Mənə bir parça çörək verin yeyim, ağlım üstümə gəlsin. Sonra şərinizi kəsim.

Qadınlar incidilər:

– Babacan, – dedilər, – məgər biz kimik ki, çörək bişirək, yanımızda çörək gəzdirək?

Qoca gördü ki, bir qədər bunlardan aralıda bir qadın su qırağında günün altında paltar yuyur. O qədər gün altında oturub ki, dərisi qapqara qaralıb. Qoca ondan da çörək istədi. Həmin qadın dedi:

– Buyur, babacan! Özüm üçün gətirdiyim çörəyin yarısını götür ye.

Qoca yeyib doyandan sonra həmin qadının əlindən tutub gözəl xanımların yanına gətirdi. Dedi:

— İndi kimin əlləri gözəl olduğunu deyim. Bax, bu qara, kobud əllər ac qarınları doydurduğuna, halal zəhmətlə, alın tərilə çörək qazandığına görə, sizin ağ və nazik əllərinizdən daha gözəldir. İşləyən əllərə səxavətli əllərə, mərd əllərə gözəl əl deyərlər.

## İSGƏNDƏRİN ŞİRVANA GƏLMƏSİ

İsgəndər Zülqərneyn bir çox ölkələri alandan sonra Şirvana tərəf yeridi. Onun qoşunu o qədər igid, siyasəti o qədər çox idi ki, heç bir qoşun qabağında davam gətirə bilmirdi. O, Şirvanı da bircə günə alacağına arxayan idi. Lakin belə olmadı.

Şirvan şəhərinin qalın və uca daş hasarı var idi. Qapıları da çox möhkəm idi. Bu qapılar bağlanandan sonra daha heç bir düşmən şəhərə girə bilməzdi. Şəhərin içində qoşunun və şəhər əhlinin yeddi illik azuqəsi, döyüş sursatı, habelə çoxlu bulaqlar var idi. Şirvanlılar qalanın üstündən İs-

gəndərin qoşununun başına ox, nizə, daş, yanar mayelər və s. tökürdülər.

İsgəndər gördü ki, bu şəhəri dava ilə almaq mümkün olmayacaq. Ona görə qabağa elçi göndərdi. Elçilər gəlib Şirvan şahına dedilər:

– İsgəndər deyir ki, mən peyğəmbərəm. Hər yeri dava-şavasız alıram, bu şəhəri dağıtmağa hayıfım gəlir. Nə özünü, nə də məni incitməsin.

Şah bunlara qulaq asıb dedi:

— Gedin, İsgəndərə deyin ki, əgər peyğəmbərdisə, desin görək mən nə fikirləşirəm.

Elçilər gəlib şahın sözünü İsgəndərə dedilər. İsgəndər Ərəstunu yanına çağırıb şahın sözünü ona dedi. Ərəstun bir qədər fikirləşəndən sonra belə dedi:

— Bu saat o şah düşünür ki, görəsən, İsgəndər Şirvanı almaq üçün nə ölçü götürüb, özü də Şirvanı alandan sonra məni sağ qoyacaqmı?

İsgəndər bu sözləri elçiyə deyib şahın yanına göndərdi. Şah elçinin sözünü eşidən kimi təəccüblə dedi:

— Bir şəxs ki, mənim nə fikirləşdiyimi bilə, onun üzünə qapı bağlamaq olmaz.

Bunu deyib, qalanın qapılarını açdırıb təslim oldu.

## İSA-MUSA QUŞU

Yoxsul bir kəndlinin İsa və Musa adlı iki oğlu var idi. Bunlar kəndin dana-buzovunu otarırdılar. Bir gün onların oynamağa başları qarışır, dana-buzov dağılışıb hərəsi bir tərəfə gedir. Oğlanlar bir də baxıb görürlər ki, dana-buzov yoxdur. Tez qaçaraq heyvanları gəzib tapıb bir yerə yığırlar.

Sayıb görürlər ki, biri çatmır. Ha axtarırlar, tapa bilmirlər. Beləliklə, gün batır, axşam olur. Oğlanlar qorxularından kəndə də qayıtmırlar ki, kənddə həm atamız, həm də dana yiyəsi bizi döyəcək.

Gecə düşür, daha göz-gözü görmür. Belə olanda oğlanlar Allaha yalvarırlar:

– Allah, bizi quş elə, uça-uça hər tərəfi gəzək, özgənin danasını tapıb aparaq.

Onlar bunu deyən kimi quş olub hərəsi bir səmtə üçüb gedirlər. Bir azdan sonra birisi çağırır:

– İsa, tapdın?

– Musa, yox!

Yenə gəzir və yenə bir-birini səsləyirlər:

– İsa, tapdın?

– Musa, yox!

Onlar hələ indiyə qədər də itirdikləri dananı axtarır və tapmadıqları üçün hər gecə beləcə bir-birindən soruşurlar.

## DƏYİRMANÇI BULAĞI

Oturaq kəndlərdən uzaqda olan köçəri obamız dəyirman sarıdan çox korluq çəkərmiş. Camaat un üyütmək üçün qışın soyuğunda, yayın istisində bir-iki gün yol getməli olurmuş. O vaxt obada İbad adlı bir biləcəkli kişi varmış. Bu deyir ki, mən obada dəyirman tikəcəyəm. Deyirlər ki, axı bəs bizim yerdə bir dəyirmanlıq su yoxdur, susuz da dəyirman işləməz. Kişi deyir ki, dağdan su tapıb bərəgeynən obaya gətirəcəyəm. O, belə də edir, günlərlə dağı-daşı gəzir, axırda bir dəyirmanlıq suyu olan bir bulaq tapır. Camaatı dilə çəkib razılaşdırır. Hamı əl-ələ verib dağdan

kəndə arx çəkirlər. Üç ay qan-tər içində işləyirlər. Axırı ki, arxı qazıb başa çatdırırlar. Sabah su kəndə gedəsi imiş. İbad kişinin yuxusu tutmur. Obaşdandan durub dağa – bulağın yanına gəlir, görür ki, bulaq büsbütün quruyub, bir damcı da suyu yoxdur. Kişini fikir götürür, bilmir nə eləsin. Axırda üzünü qibləyə tutub Allaha yalvarır:

– Xudavənda, sən özün məni bu xəcalətdən qurtar. Mən elin üzünə baxa bilmərəm. Ya məni öldür, ya suyu burax.

Bunu deyib hönkürüb ağlamağa başlayır. Gözlərindən yaş axan kimi kişi dönüb daş olur, amma gözlərindən bir dəyirmanlıq su axır. İndi də həmin daş bulağa "Dəyirmançı bulağı" deyirlər.

## ALLAHU-ƏKBƏR DAĞI

Bizə nahaq yerə "qılınc müsəlmanı" demirlər. Doğrudan da, keçmişdə babalarımızı qılınc gücünə müsəlman ediblər. Qədim vaxtlarda bu yerin camaatı aya, günə sitayiş elərmiş. Bir gün ərəblər qoşun çəkib bura gəlir. Camaat qaçıb dağda-daşda gizlənir. Ərəblər bunları tutub bir hamar yerdə saxlayır. Bunların üstünün böyüyü deyir:

— Hər kim müsəlman olsa, "Allahu-Əkbər" desə, ona dəyməyəcəyəm. Amma "Allahu-Əkbər" deməyəni diri-diri torpağa basdıracağam.

Adamları bir-bir, iki-iki, beş-beş araya çəkirlər. Nə qədər eləyirlərsə də, heç kim "Allahu-Əkbər" demir. "Allahu-Əkbər" deməyənləri yerə yıxıb üstünü torpaqlayırlar, getdikcə təpə əmələ gəlir, təpə ucalır, dağ olur. Beləliklə, həmin gün ərəblər "Allahu-Əkbər" deməyən neçə min adamı

torpağa basdırırlar, nəticədə də bu dağ əmələ gəlir. Ona görə də dağa "Allahu-Əkbər" dağı deyirlər.

## FÜZULİYLƏ XIZIR

Məşhur şair Məhəmməd Füzuli cavan vaxtlarında bir peşə sahibi deyildi. Nə qədər çalışıb-əlləşirdisə də, ailəsini güclə saxlayırdı. Bir gün o, qan-tər içində arx qazırdı. Yaman yorulmuşdu. Yadına düşdü ki, Xızır peyğəmbər insanların arzusunu yerinə yetirir. Fikirləşdi ki, nə ola, mənə də rast düşə, özüm üçün bir az şey-şüy istəyəm.

Aradan çox keçməmiş bir köhnə libaslı qoca bir kişi onun yanına gəlib salam elədi və dedi ki, bala, mən Xızır peyğəmbərəm. Nə diləyin varsa, de, yerinə yetirim.

Şair buna baxıb güldü:

– Ay əmi, – dedi, – məni ələ salma, məgər Xızır peyğəmbər sənin kimi olar?

Xızır dedi:

– Bala, mən Xızıram, diləyini dilə.

Şair dedi:

– Əgər sən Xızırsansa, qoy mənim bu belim dönüb kürək olsun.

Xızır dedi:

– Olsun!

O dəqiqə üç abbasılıq bel dönüb iki şahılıq kürək oldu. Şair bunu görcək dedi:

– Sənə qurban olum, ya Xızır, mənə böyük bir təb, istedad ver.

Xızır dedi:

– Verdim!

Şair sevincək dedi:

– Ya Xızır, mənə hədsiz dövlət ver!

Xızır gülüb dedi:

– Bala, daha sən çox füzulluq elədin. Elə iki diləyini yerinə yetirdim — bəsdir.

O vaxtdan sonra şair "Füzuli" təxəllüsünü götürdü.

## DÜZLÜK YAXŞI ŞEYDİR

Şuşada Məşədi Rza adlı bir tacir var idi. Bir gün tanımadığı bir nəfər kəndli gəlib bundan xeyli şey-şüy alır. Kəndli gedəndən sonra Məşədi Rza hesab edib görür ki, kişinin iki şahısı bunda qalıb. Tez dükanı bağlayır. Kişinin adını bilmədiyi üçün nəm-nişanını deyib soraqlamağa başlayır. Düz bir həftə axtarandan sonra axırda kişini tapıb iki şahını ona verir.

Şəhərə qayıdıb gələndən sonra bazar əhli deyir:

— Ay Məşədi, kişinin iki şahısını qaytarmaq üçün bir həftə dükanın bağlı qaldı, bir aləm ziyana düşdün, bu nə ağıldır?

Məşədi Rza cavab verir ki, adam gərək həmişə düzlük işlədə, bundan ötrü ziyana düşsən, eyib etməz.

## KEÇMƏDİN DƏRƏSİ

İran padşahı qoşun çəkib Şirvana gəlir, şəhəri alır, camaat qaçıb Şamaxıdan yuxarıda yerləşən Qəleybuğurt qalasına toplaşır. Onlar burada davaya hazırlaşırlar. İran şahı bunu bilib qoşunu ora yeridir. Neçə gün, neçə gecə qanlı vuruşmalar olur. Şahın qoşunu gəlb qalanın yaxınlığındakı

bir sirtə yetişir. Əgər sirti ötüb onun o üzündəki dərəni keçə bilsəymişlər, qala alınacaqmış. Şirvan camaatı bu qərara gəlir ki, şah qoşunlarının dərəni keçməsinə yol verməsinlər.

Sabah açılana kimi şirvanlılar yatmır, dərəyə ucu yuxarı nizə, qılınc, xəncər, ucu şiş daş tökürlər, neçə-neçə zəhərli ilan buraxırlar, özləri isə yanlarına iri daş, neftə bulaşdırılmış əski, təzək və s. yığırlar.

Səhər açılana bir az qalmış İran qoşunu özünü dərəyə çatdırır, dərəyə enən-enən nizəyə, qılınca, xəncərə, ucu şiş daşa ilişir, yaralanır, ölür, əzilir, bir qismini ilan vurur. Elə bu zaman qaladakı şirvanlılar yuxarıdan bunların üstünə daş, yanar piltə, təzək və s. tökür. Şirvan atlıları irəli atılıb şahın qoşununu qırıb-çatır, düşmən dərədən keçə bilmir. O vaxtdan dərəyə "Keçmədin" dərəsi deyilir.

## KƏKLİK

Deyirlər ki, qədimdə çox gözəl, ağıllı və namuslu bir qız var imiş. O, öz əmisi oğlunun adaxlısı imiş. Bir gün toy olur. Qızın əl-ayağına xına qoyurlar, bir azdan sonra oğlan evinə aparacaqlarmış. Qız da bircə yengə ilə evdə oturubmuş. Elə bu zaman çoxdan bəri qıza aşiq olmuş dövlətli oğlu öz yoldaşları ilə bərabər içəri soxulur. Onlar yengənin ağzını və əl-ayağını bağlayıb yerə yıxır, qızı götürüb qaçırlar. Kənddən çıxan kimi qızı atın tərkinə qoyub dağlara tərəf gedirlər. Qız nə qədər eləyirsə, ona qulaq asan olmur. Qızın əlacı kəsilir, üzünü qibləyə tutub deyir:

Allah, məni quş eylə,
Qanadı gümüş eylə.

Eldə rüsvay eləmə,
Dağda günüm xoş eylə.

Qız bunu deyən kimi dönüb kəklik olur, pırıltı ilə uçub qayalığa düşür. O vaxtdan bəri kəkliklərin ayağı da xınalı olub.

## GƏLİN QAYASI

Səlmi arvadın gözünün ağı-qarası Məlik adlı bir oğlu var idi. Onu min bir zəhmətlə böyüdüb başa çatdırmışdı. İndi də evləndirib cərgəyə qoşmaq, bacısı qızını ona almaq istəyirdi. Lakin nədənsə oğlu bu işə "hə" demirdi. Axırı, arvad öyrənib bildi ki, oğlu qonşu kənddə yaşayan naxırçı Rizvanın qızı Sənəmi sevir. Arvad oğlunu çox dilə çəkdi, çox ağladı, yalvardı, minnətçi saldı, Məlik yola gəlmədi. Axırda əli hər yerdən üzülmüş Səlmi oğlunun dediyinə razı oldu, Sənəmə elçi düşdü. O, öz ayağı ilə getsə də, könlü olmadığı üçün alovlanırdı, oğlunu Sənəmdən ayırmaq üçün çarə düşünürdü. Həftələr, aylar sovuşdu, toy vaxtı yaxınlaşdı. Səlmi arvad sübh tezdən yuxudan durub Sənəmgilə getdi. Sənəm onu görcək belə tezdən gəlməsinin səbəbini soruşdu. Səlmi ağlaya-ağlaya dedi:

– Evim yıxıldı, umudum-pənahım əlimdən getdi, Məlikim qayadan uçulub öldü.

Sənəm bunu eşitcək hövlnak dağa tərəf yüyürdü, evlərinin dalından qayaya tərəf çıxdı və:

– Yardan ayrı yaşayan namussuz olar, – deyib özünü uçuruma atdı.

Səlmi arvad duruxub qalmışdı. Bu dəmdə Məlik gəlib çıxdı. Sevgilisinin həlak olmasını eşitcək o da özünü həmin qayadan atıb öldürdü.

O vaxtdan həmin qayaya "Gəlin qayası" deyilir.

## ŞEYX ZAHİD PİRİ

Şeyx Zahid çox savadlı, mehriban, ağıllı, namuslu bir şəxs idi. O, heç bir zaman qadınların üzünə baxmırdı, günaha batmamaq üçün onlarla görüşmürdü. Qadınların buna acığı tutdu. Onlar nə yolla olursa-olsun, şeyxi yoldan çıxartmağı, sonra isə onu el içində rüsvay etməyi qərara aldılar. Onlar öz aralarından Nazlı adlı bir gözəl gəlini seçdilər və ona məsləhət verdilər. Sonra şeyxin nökərinə çoxlu pul verib onu ələ aldılar. Gecə vaxtı şeyx hələ yataqda ikən Nazlı tamam lüt şəkildə şeyxin otağına girdi. Şeyx oyandı. Çırağın işığında tamam lüt, gözəl bir qadın gördü. Əvvəl elə bildi ki, yuxu görür, sonra isə yuxu olmadığını başa düşdü. Nazlı dedi:

– Ya Şeyx Zahid, mən neçə müddətdir ərə getmişəm, övladım olmur. Ötən gecə yuxuda mənə dedilər ki gəlim sənin otağında qalım, döşəyinə girim, onda övladım olar.

Şeyx titrək səslə soruşdu:

– Bəs niyə lüt gəlmisən?

Nazlı irəli yeriyib özünü şeyxin üstünə saldı. Şeyx qəzəblə bağırdı:

– Ey nadürüst insan, səni daş olasan, gözüm görməsin.

Həmin dəqiqə gəlin dönüb daş oldu. Sonralar Şeyx Zahid öldükdə həmin yerdə basdırıldı. Daş da şeyxin qəbrinin yanındadır.

## YEDDİ MƏZAR

Nadir şah Şirvana hücum edəndə camaat qaçıb dağlar qoynundakı bir qalada gizlənmişdi. Şahın qoşunu qaçqınları izləyə-izləyə gəlib sıx cəngəllik meşəyə rast düşdü və burada azdı. Qışın günü bir yandan soyuq, bir yandan aclıq qoşunu əldən saldı, əsgərlər dəstə-dəstə qırıldı. Elə bu vaxt meşənin içində bir komaya rast gəldilər. Qoşun böyükləri komaya girəndə orada yeddi nəfər adam gördülər. Bunlar iki qoca kişi, dörd qadın və bir oğlan uşağından ibarət idi. Qoşun böyükləri qoca kişilərdən qaçqınların hansı səmtə getdiyini və meşədən çıxmağın yolunu soruşdular. Qocalar bilmədiklərini dedilər. Onları çox dilə çəkdilər, qorxutdular – nəticəsi olmadı. Onda qoşun böyükləri onları parça-parça doğradılar.

Sonra bir-bir qadınlardan soruşdular:

— Ay bacılar, heç olmazsa, deyin görək bu meşədən bir yana nə təhər çıxmaq olar?

Onlara çoxlu pul, qızıl vəd etdilər, nəticəsi olmadı. Qadınlar da "bilmirik"dən başqa bir söz demədilər. Qoşun başçıları onları da doğradı. Axırda növbə balaca oğlana çatdı. Ona at, qılınc, qızıl və s. verdilər, lakin o da "yox" dedi, "bilmirəm" dedi.

Qoşun başçıları onu da tikə-tikə etdilər. Yeddi meyid yerdə qaldısa da, düşmən qoşunu da meşədə soyuqdan, acından qırıldı.

Sonra camaat gəlib o yeddi meyidi yan-yana basdırdı. İllər ötdü. İndi də həmin yeddi məzar müqəddəs yer hesab edilir.

## ŞIXEYİBLƏ PƏRNAZ

Şıxeyib (Şeyx Əyyub) öz əshabələrindən bir kəndlinin Pərnaz adlı arvadına aşiq olmuşdu. Bir növ ilə ona yetişmək istəyirdi. Pərnaz da bunu hiss etdiyindən şıxın hücrəsinə getmirdi. Bir gün Şıxeyib əshabələrinə dedi:

– Mənə hər gün birinizin evini, arvad-uşağını dualamaq vacib olub. Sabahdan hər axşam birinizin evinə gedəcəyəm.

O gündən hər axşam bir əshabə öz evində böyük qonaqlıq elətdirir və ağsaqqallarla birlikdə Şıxeyib də gedir, yeyib-içəndən sonra evi və oradakı arvad-uşağı dualayırdı.

Beləliklə, bir neçə gün keçdi. Bir gün əshabələrdən birinin evində xörək yeyirdilər. Birdən şeyx ucadan çığırdı:

– Ay it, ay it, çəkil oradan, Allah sənə lənət eləsin!

Hamı təəccüblə Şıxeyibə baxdı. O, dedi:

– Məkkeyi-mükərrəmənin qapısına it sürtünürdü, acıqlandım ki, aralı dursun.

Hamı heyrətlə Şıxeyibə baxdı. “Əhsən” səsləri ucaldı. Ağsaqqallar dedi:

— Görün şeyximiz necə pak adamdır ki, altı aylıq yolda olan Məkkəni görür.

Bir neçə gündən sonra növbə Pərnazgilə düşdü. O, ertədən toyuqpilov bişirdi. Axşam Şıxeyib və əshabələr gəlib oturdular. Yemək vaxtı hərəyə bir ağzı örtülü qabda xörək gəldi. Hamının qabı ağzınacan plovla dolu idi, üstündə də bir toyuq qoyulmuşdu. Şeyx də qabın ağzını açdı, gördü ki, bunun qabında toyuq yoxdur. Özünü yerə vurmayıb dedi:

– Deyəsən səhvən mənim qabıma toyuq qoymayıblar.

Hamı bir-birinə baxışdı. Pərnaz içəri girib dedi:

– Ya şeyx, bəs necə olur ki, sən altı aylıq yolda olan Məkkəni görürsən, plovun altındakı toyuğu görmürsən?

Şıxeyib pərtlikdən daha xörək də yeməyib çıxıb getdi.

## MƏCNUN GÜLŞƏN BAĞINDA

Qeysin Leyliyə aşiq olub çöllərə düşməsi xəbəri hər tərəfə yayılmışdı. Onun özünü dəli-divanə kimi aparmasına görə camaat ona Məcnun deyirdi. Məcnunun ata-anası çox çalışdı ki, birtəhərlə Leylini ona unutdursunlar. Ona görə də bütün tayfa qızlarından xahiş etdilər ki, Fərat çayının sahilindəki Gülşən bağına toplaşsınlar, Məcnun da oraya gəlsin. Bəlkə onlardan birini xoşlaya, Leyli yadından çıxa.

Bütün qız-gəlinlər əlvan libaslar geyinib, müxtəlif çalğı aləti götürüb Gülşən bağına getdilər. Zeyd də Məcnunu birtəhər dilə çəkib oraya gətirdi.

Məcnun Zeydin yanıycan bağı gəzməyə başladı. Hər dəqiqədə onların qabağına dəstə-dəstə gözəllər çıxırdı. Kimi çalır, kimi oxuyur, kimi də oynayırdı. Bəziləri Məcnuna sataşır, zarafat edirdilər.

Lakin Məcnunun xəyalı uzaqlarda idi. O, elə bil Gülşən bağında gəzmir, bu gözəlləri görmürdü.

Birdən Zeyd ondan soruşdu:

– Hə, qardaş, bu qızlardan hansı xoşuna gəldi?

Məcnun yuxudan ayılmış kimi soruşdu:

– Necə, qız? Mən burada yalnız Leylini görürəm. Məgər ondan başqa burada qız var?

Qızlar hamısı Məcnunu dövrəyə aldılar və ona dedilər:

– Nə çox Leyli-Leyli deyirsən? Məgər biz Leylidən əskigik? Onun nəyi gözəldir? Qara qızın biridir.

Məcnun dərindən bir ah çəkib dedi:

– Siz ona Məcnun gözü ilə baxsanız, görərsiz ki, dünyada ondan gözəl qız yoxdur.

Məcnun bunu deyib biyabana tərəf üz qoydu.

## HACIBABA BULAĞI

Hacıbaba adlı yetim, kasıb oğlan qonşu obanın sahibi Murtuz ağanın çobanı idi. Hacıbaba öz ağasının qızı Mirvarini, qız da onu sevirdi. Lakin bu sirri açmağın mənası yox idi – ağa öz qızını nökərinə ərə verməzdi. Bu zaman bir dövlətli yerdən Mirvariyə elçi gəldi. Murtuz ağanın arvadı əhvalatdan xəbərdar olduğu üçün qızı ilə Hacıbabanın bir-birini sevməsini ərinə danışdı:

– Nə olar, ay kişi, iki könülü qırmaq Allaha da xoş getməz. Gedənin də heç kəsi yoxdur, o da olar sənin oğlun.

Murtuz ağa qəzəbləndi, arvada acıqlandı, qızını evə salıb qapını bağladı və gecə ikən Hacıbabanı obadan qovdurdu.

Hacıbabanın daha gedəsi yeri olmadığı üçün dağlara çəkildi. Orada ah-zar edib ağlamağa başladı. Üç-dörd gündən sonra Mirvari bir bəhanə ilə evdən çıxıb Hacıbaba oturan dağa gəldi. İki sevgili bir-birinə qısılıb ağladılar. Elə bu vaxt gördülər ki, Murtuz ağanın adamları atla bunların üstünə gəlir.

Hacıbaba dedi:

– Allah, gəlib Mirvarini mənim yanımda görməsinlər, onun adına ləkə düşməsin. Məni bir axar bulaq elə, qoy qızı bulaq başında görsünlər.

Hacıbaba elə o dəqiqə soyuq sulu bir bulaq oldu. Mirvari bunu görüb dərin bir ah çəkdi:

– Allah, səni and verirəm öz kəramətinə. Məni sevgilimdən ayırma, daş elə, bulağa sal.

Mirvari də o saat xırda daş olub bulağa töküldü, hər ikisi bir-birinə qovuşdu.

O bulağa indi də "Hacıbaba bulağı" deyirlər.

## ŞİRİNİN ŞƏKƏRLƏ GÖRÜŞMƏSİ

Şirinə xəbər verdilər ki, bəs Xosrov İsfahanda Şəkər adlı bir gözələ aşiq olub, onu alıb. Şirin əvvəl bu xəbərə inanmadı. Aradan bir müddət keçdi, baxıb gördü ki, doğrudan da, Xosrov daha bura gəlmir. Öz-özünə dedi:

– Ay canım, bu nə iş idi ki, sən elədin? Elindən-obandan, padşahlığından əl çəkib gəldin. Burda da başına belə bir qəziyyə gəldi?

O, çox götür-qoy eləyəndən sonra belə qərara gəldi ki, İsfahana gedib bu əhvalatın doğru olub-olmadığını öyrənsin. Elə həmin gecə Şirin təğyiri-libas olub üç qız ilə at mindi, bir baş İsfahan şəhərinə gəldi. Gördü ki, bura çox gözəl şəhərdir: suyu, havası, gözəl imarətləri, adamları bir-birindən yaraşıqlıdır. O, soraqlaşa-soraqlaşa gəlib Şəkərin mülkünə yetişdi. Gördü ki, bu mülkü çox kamil bir usta tikib, hər baxan deyir: bir də baxım. Bu mülk bir bağın içindədir, bu bağda dünya tamından nə desən var. Bağın içində hər cür heyvanat və quşdan var, ağacların arasında üç-dörd

yerdən bulaq axır. Hər tərəfdən çalan-oxuyan səsi gəlir. Bir sözlə, cənnətin özüdür ki, durub.

Şirin qızlara dedi:

– Siz atları da götürüb şəhər kənarındakı kəndlərdən birində qalın. Mən bir-iki gün burada olacağam. Görüm bu xəbər nə xəbərdir.

Qızlar getdilər. Şirin isə ağacların arasına girib bağı gəzə-gəzə imarətin qapısına gəldi, nökərə dedi:

– Mən kasıb qızam, Şəkər xanıma qaravaş durmaq istəyirəm.

Nökər gedib xanımına xəbər elədi. Şəkər Şirini içəri çağırtdırdı. Gördü ki, çox gözəl və qabiliyyətli qızdır, ona görə onu özünə qapı qulluqçusu götürdü. Şirin baxıb gördü ki, Şəkər bir elə də gözəl deyil, amma gözəl çalır, oxuyur, oynayır, şirin söhbət etməyi bacarır, hamı ilə mehriban dolanır.

Gün batdı, gecə oldu. Şirin bir də onda gördü ki, Xosrov buraya gəldi. Şirin tez özünü kənara verdi ki, Xosrov onu görməsin.

Xosrov qapını açıb içəri girən kimi Şəkər özünü onun üstünə atıb düz kimi yalamağa başladı, onun xoşuna gəlmək üçün min cür oyundan çıxdı.

Şirin öz-özünə dedi:

– Ey dili-qafil, deməli, Xosrova sevgili yox, beləcə xoş gün keçirmək lazım imiş. Bu ki, məhəbbət deyil. Gah Məryəmi sevdi. Məni görüb, onu unutdu. İndi də bunu görüb, aylarla mənim qapımı açmır. Mən min il dustaq qalam, kəbinsiz-talaqsız, toysuz-mağarsız ərə getmərəm. Şəkər kimi ərə getməkdənsə, ömür boyu ata evində qarıyıb qalmaq məsləhətdir.

Şirin o yerəcən pəncərədən baxdı ki, gördü Xosrov Şəkəri ağuşuna alıb deyir:

– Dünyada səndən şirin can yoxdur.

Şirin daha dözmədi. Xosrovun belə dönüklüyü onun qəlbini qırdı. Gecə ilə şəhərdən çıxıb yoldaşlarını tapdı və atları minib Bərdəyə tərəf üz qoydular.

## ADSIZ QƏHRƏMAN

Nadir şahın qoşunları Şamaxı əhalisini zorla Ağsuya köçürürdü. Bu işə Ənvər adlı orta yaşlı bir sərkərdə rəhbərlik edirdi. O, əhalini tez köçməyə vadar etmək üçün evləri uçurtdurur, həyətlərə od vururdu. Lakin bütün bu tədbirlərə baxmayaraq əhali ağır tərpənirdi. Belə bir şəraitdə Ənvər xan xörəkdən zəhərlənib öldü.

Nadir şah qəzəbləndi. Bütün şəhər əhalisini uşaqdan böyüyə kimi şəhər meydanına yığdırdı. Kişilər dağlara çəkildiyi və ya döyüşlərdə olduğu üçün şəhərdə yalnız çox qoca kişilər, qadın və uşaqlar qalmışdı.

Nadir şah bir-bir hamını dindirdi – heç kim nə boynuna götürür, nə də xörəyə zəhər qatanın adını deyirdi. Nadir şahın əmrilə hamını bir-bir çubuqdan keçirtdilər – nəticəsi olmadı, dırnaqlarına iynə batırdılar – bir nəticə hasil olmadı. Onda şah qəzəbli  səslə bağırdı:

– Tez olun, böyük bir tonqal qalayın!

Ani olaraq nəhəng bir tonqal qalandı. Nadir şah dedi:

– Bütün uşaqlı qadınlar öz körpələrini gətirib tonqala atsınlar!

Hamı bu amansız əmrdən donub qaldı. Heç kim cınqırını da çıxartmadı. Birdən camaatın arasında qara geyimli yad, qoca bir qarı irəli çıxdı:

– Camaatda təqsir yoxdr. Ənvər xanın xörəyinə zəhəri mən qatmışam, – dedi.

Nadir şahın əmrilə əsgərlər həmin qadını tikə-tikə doğrayıb yanan tonqala atdılar.

Aradan bir müddət keçdi. Yerli əhali Nadir şahın qoşunlarını Şirvan torpağından qovub çıxartdı. Şamaxı əhalisi yenidən doğma şəhərə qayıtdı. Bu hadisə hamını heyrətə saldığı üçün hər yerdə ondan danışırdılar. Bu zaman dağlardan yenicə qayıtmış qoca bir şəhərli dedi:

— Çox təəccüblü işdir! Ənvər xanın xörəyinə zəhəri mən qatdım və hələ xörəyi yeməmiş şəhərdən çıxıb getdim. Bəs görəsən, o arvad niyə günahı öz üstünə götürüb? O arvad kim imiş?

Körpə uşaqların tonqalda yandırılmaması üçün canını qurban vermiş o naməlum qadının kimliyini indi də heç kəs bilmir.

## DEŞİK DAŞ

Mustafa xanın nökəri ilə qaravaşı bir-birini sevirdilər, bir an da bir-birindən aralı dura bilmirdilər. Tezliklə bu xəbər xana da çatdı. O, çox qəzəbləndi və dedi:

– Belə şey ola bilməz! Onlar nəkarədir ki, məndən icazəsiz bir-birini görüb, görüşüb, sevişiblər.

Ağsaqqal şair Allahi xana başa saldı ki, onlar bir-birini çox sevirlər, onları ayırmaq günahdır. Bunlara badə verilib.

Xan gülüb dedi:

— Onları zindana, yanaşı gözlərə salın. Əgər badə verilibsə, haqq aşiqidilərsə, divarın bu üzündən o üzünə də bir-birini görər, hərarətini hiss edərlər.

Xanın əmrilə oğlanı zindanın bir gözünə, qızı o biri gözünə salırlar. Onların arasında sal qaya daşından ibarət bir divar var idi. Qız bir tərəfdə, oğlan isə o biri tərəfdə ah-zar edirdi. Onların ah-zarından, göz yaşı və yalvarışından, sinələrinin atəşindən divar deşildi. Oğlan deşikdən keçib qızın yanına keçdi.

Zindanban tez bunu xana xəbər verdi. Mustafa xan tez zindana gəlib gördü ki, həqiqətən də divara əl vurulmayıb, yonulmuş, hamarlanmış kimi, bir adam keçən deşik açılıb. O, rəhmə gəlib cavanları azad edib evlənmələrinə razılıq verdi.

O daşı zindandan çıxardıb şəhərə gətirdilər. O vaxtdan bəri həsrət çəkənlər, ayrıldığı adama qovuşmaq istəyənlər o deşikli daşdan keçir.

## SOFİ QAYASI

İran qoşunları Azərbaycana soxulmuşdu. Qacar keçdiyi yerləri xarabazara çevirir, insanları qırır, şəhər və kəndləri yandırırdı. Lakin buna baxmayaraq yerli əhali yadelli qoşunlara ciddi müqavimət göstərirdi. Onlar Qacar qoşununa yemək verməmək üçün ərzağı məhv edir, göl və bulaqları zəhərləyir, körpüləri uçurur, kişiləri dağlara qaçırdırdılar.

Qacar qoşununun bir dəstəsi Qarabağın ətəklərinə gəlib yetişmişdi. Onlar dağ yolu ilə Şuşa qalasına getmək və qala müdafiəçilərini arxadan vurmaq istəyirdilər. Lakin

onlar yolu bilmir, bələdçilər də yolu azdırırdılar. Nəhayət, qoşun gəlib azman dağlarda, keçilməz meşələrin içində azdı. Bir neçə gün ac-susuz gəzəndən sonra uca bir zirvədə tüstü çıxdığını gördülər. Qoşun böyüyünün əmrilə əsgərlər oraya getdi və özlərilə bərabər ağsaqqal bir kişi gətirdilər.

Qoşun böyüyü dedi:

– Bizi qalaya tərəf gedən bir yola çıxart, sənə çoxlu ənam verəcəyik. Əgər boyun qaçırtsan, şəksiz öləcəksən.

Qoca dedi:

– Ağa, mən bir sofi babayam, 30 ildən çoxdur bu dağlarda tək-tənha qalıb ibadət edirəm. Bildiyim də yadımdan çıxıb. Mən yol-zad tanımıram.

Qoşun böyüyü istədi sofinin başını kəssin, amma yüzbaşılardan biri ona yavaşca dedi:

– Sərdar, amandır, əl saxla. Bunu öldürmək çətin deyil. Məcbur eləmək lazımdır ki, yolu desin.

Qoşun böyüyü sofini çox dilə çəkdi, vəd verdi, qorxutdu, hədələdi, döydü – heç nə təsir eləmədi. Axırda sofini bir qayanın döşündəki kaha qoydular və başlayıb kahın ağzını hörməyə başladılar. Hər daşı qoyanda soruşdular:

– Yolu göstərirsənmi?

Sofi dedi:

– Yox!

Beləliklə, kahın ağzını möhkəm hörüb sofini diri-diri basdırdılar. Amma sofi öldüsə də, qoşun dəstəsi də dağlarda acından tələf oldu.

O vaxtdan həmin qayaya "Sofi qayası" deyilir.

## ŞAPURLA FƏRHAD

Xosrovun dostu rəssam Şapur onun şəklini çəkib Şirinə göstərdikdən və yol ilə onu aldadıb İrana gətirdikdən sonra aradan iki-üç ay keçmiş yenidən Bərdəyə gəldi. Fikri bu idi ki, görsün Şirinin izinə düşüblərmi? Əgər düşüblərsə, onda bu izi çarpaşıq salsın.

Şapur kəhər atın belində Bərdə şəhərinin kənarına yetişdi. Gördü ki, şəhər əhlinin hamısı qara libas geyinib, yas içindədir. Soruşdu:

– Sizə nə qəza üz verib ki, hamınız qara geymisiniz?

Dedilər:

– Yetmiş səkkiz gün bundan qabaq bizim padşahın vəliəhdi, dünyalar gözəli Şirin yoxa çıxıb. İdiyə kimi hər yeri axtarmışıq, izinə düşə bilməmişik. Elə bil yer yarılıb — yerə batıb. Bu səbəbdən qara geymişik.

Şapur arxayınlaşıb şəhəri gəzməyə başladı. Lap gün batan çağı gəzə-gəzə gəlib bir imarətin tikintisinə yetişdi. Gördü ki, işləyənlər qocalar və yeniyetmələrdir. Soruşdu:

– Bəs sizin cavan bənnalarınız hanı?

Dedilər:

– Bizim cəmi bircə bənnamız var, hamımız onun əlinin altında işləyirik. O da ki, Şirini axtarmağa gedib, hələ gəlib çıxmayıb.

Şapur soruşdu:

— O necə ustadır ki, bu qədər adam onun əlinin altında işləyir?

Dedilər:

— O, Fərhaddır. Yer üzündə istər işləməkdə, istər şücaətdə bərabəri yoxdur. Belə gözəl, ağıllı, tədbirli, səbrli, səxavətli və nəcib insanı heç yerdə tapmaq olmaz.

Şapur soruşdu:

— Siz ki, onu bu qədər təriflədiniz, görsəydim, yaxşı olardı. Bəs o Fərhad nə vaxt gələcək?

Dedilər:

– Bir-iki günə gələsidir.

Şapur gedib karvansarada özünə və atına yer tutdu, iki gün orada qaldı. Üç deyə günü yenə də həmin tikintiyə gəldi. Gördü ki, hörgünün üstündə bir oğlan durub ki, duruşu, baxışı, gözəlliyi, boy-buxunu bütün dünyaya dəyər. Hamı bunun əlinin altına daş, palçıq verir. Öz-özünə dedi:

— Şübhəsiz ki, Fərhad elə budur.

O, Fərhada məftun-məftun baxdı və özü də hiss etmədən kağız-qələm götürüb onun şəklini çəkməyə başladı. İki-üç saatdan sonra şəkil hazır oldu. Şapur özü öz çəkdiyi şəkilə heyran-heyran baxdı və birdən yadına düşdü ki, bir müddət bundan qabaq bu şəhərdə Xosrovun şəklini göstərməklə Şirin kimi bir gözəli aldadıb İrana aparıb. Xəyalən Xosrovla Fərhadı müqayisə elədi, Fərhada üstünlük verdi, hayıfsılandı ki, niyə Şirin Fərhada deyil, arvadlı-uşaqlı Xosrova tuş oldu. Gəlsənə, bir iş düzəldim, Fərhadı Şirinin yanına aparım. Bunlar bir-birinə elə yaraşırlar ki, əgər qovuşsalar, göydən mələklər də tamaşaya enər. Bu fikirlə Şapur Fərhada yaxınlaşıb salam eylədi. Şapur onu bir yana çəkib dedi:

— Heç kimə demə, mən Şirinin yerini bilirəm. Get atı irahla, axşam gəl karvansaraya, gecəykən mənimlə birlikdə gedək onun yanına.

Fərhad sevindiyindən Şapurun əlindən öpdü. Quş kimi evə uçdu, hazırlaşıb axşam at mindi, Şapurun yanına gəldi, onunla gecəykən Bərdədən çıxıb İrana tərəf yola düşdülər.

On gün on gecə yol gedib gəlib Şirin olan yerə çatdılar. Burada Şapur Fərhadı Şirinin bağçasına gətirdi və onlar bir-birini görən kimi aşiq oldular.

Bundan sonra Fərhad Şirinə yetmək üçün Xosrovun əmrilə Bisutun dağını yardı, dağdan qalaya süd arxı çəkdi. Amma Xosrovun hiyləsinə qurban oldu, cavan ikən öldü.

## BƏLƏK PİRİ

Nisə öz əmisi oğlu Sadığı sevib-seçmiş, başqa istəyənlərin heç birinə "hə" deməmişdi. Sadıq kasıb olsa da, qız onu sevdiyi üçün dövlətlilərdən üstün tutmuşdu. Sadıq da Nisəni çox sevirdi. Kasıbyana toy edəndən sonra Nisəni Sadığın evinə gətirdilər. Sadıqgil kasıb olduğundan Nisə üçün bir əməlli pal-paltar da almamışlar. Nisə dövlətli oğlanların başqa qızlar üçün gətirdiyi paltara həsrətlə baxır, xəyalən özünə təskinlik verirdi: "Eh, Sadığın bircə məhəbbəti mənə bəsdir."

Bir-iki il gəlib keçdi. Nisənin övladı olmadı. Qayınanası narahat olmağa başladı, onu mamalara, falçılara göstərdi. Aparmadığı pir qalmadı, demədiyi nəzir, götürmədiyi qurban, paylamadığı sədəqə olmadı. Amma Nisənin uşağı olmadı ki, olmadı. Nisə artıq səkkiz il idi ki, ər evində idi. Əvvəlki bir-iki ili xoş keçinmişdilərsə, sonrakı illərdə üzü gülüb, könlü açılmamışdı. Əvvəllər təkcə qaynanası, sonra qa-

yınatası deyinirdisə, son vaxtlarda sevimli əri Sadıq da açıq-aşkar narazılığını bildirir, övlad istədiyini eşitdirirdi.

Bir gün Nisə yuxuda gördü ki, dağda şiş bir qayanın başında yerdə bir bələkli oğlan uşağı qoyulub. Kimsə ona dedi ki, o uşaq sənindir. Get, götür, əmizdir.

Nisə hövlnak yuxudan ayıldı, yuxusunu heç kimə demədi. Səhər bir bəhanə ilə evdən çıxıb dağa getdi və yuxuda gördüyü şiş qayanı axtarmağa başladı. Bir xeyli gəzəndən sonra həmin qayalığı tapdı. Az qalırdı ki, ürəyi ağzından çıxsın. Qıçları titrəyir, ürəyi çırpınırdı. Güclə özünü qayanın üstünə çatdırdı. Birdən baxıb gördü ki, qayanın üstündə uşaq qundağına oxşayan bir uzunsov daş var. Gəlib daşı qucağına götürdü. Özü bəs deyincə ağladı. Sonra isə bir belə bayatı dedi:

Ağlamışam, başdan mən,
Kiprikdən mən, qaşdan mən.
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən.

Sonra daşı şalına bələdi, qucağına götürüb kəndə gəldi, utandığından evə gətirməyib tövlədə bir qaranlıq bucağa qoydu. Gündə iki-üç dəfə gəlib daşa baxıb gedirdi. Bu ara əri açıqca dedi:

– Əgər bu yazacan uşağın olmasa, gedib bir döşü südlü arvad alacağam. Səndən ötəri sonsuz olmayacağam ki…

Nisə çox ah-zar elədi, göz yaşı tökdü. Gecə yuxuda gördü ki, bir nurani qoca ona deyir:

– Ay qızım, şükür Allaha, boyunda uşaq var, niyə evdəkilərə demirsən?

Nisə ayıldı, “Allaha pənah” deyib qayınanasına dedi ki, bəs deyəsən uşağım var. Əvvəl qaynanası inanmadı. Bir ay sonra Nisə yenə yuxuda o nurani kişini gördü. Kişi dedi:

– Ay qızım, dörd-beş aylıq uşağı niyə ərindən, öz anandan, əmindən gizləyirsən?

Nisə əlacsız qalıb bunlara da dedi ki, uşağım var. Özü isə hər gün tövləyə gedib bələkli daşa baş çəkirdi. Daha vaxta az qalmışdı, amma nə Nisə özündə bir şey başa düşürdü, nə də başqaları.

Aradan doqquz ay keçmişdi. Bir gecə Nisə yuxuda gördü ki, həmin nurani kişi deyir:

– Ay qızım, dur, get, o uşağı götür, ağlamaqdan səsi batdı.

Nisə hövlnak yerindən qalxıb qaranlıqda qorxa-qorxa tövləyə girdi və içəri gircək körpə uşaq səsi eşidib özündən getdi. Bir qədərdən sonra ayılıb gördü ki, bələkdəki daş deyil, bir uşaqdır. Tez ağlaya-ağlaya qundağı sinəsinə basdı, döşünü ağzına verdi. Nisə gördü ki, döşünə də süd gəlib. Ucadan ağlamağa başladı. Səsə əri, əmisi və qaynanası yuxudan ayılıb tövləyə gəldilər və Nisənin qucağındakı uşağı görüb onu danlaya-danlaya evə gətirdilər:

– Ay qız, niyə utanırsan? Niyə bizə deməmisən ki, sancı çəkirsən?

Gecə ilə hamıya səs düşdü, şadyanalıq oldu. Amma o vaxtdan bəri Nisə tez-tez həmin qayalığa gedərdi. O yerə indi “Bələk piri” deyirlər.

## ŞAH ABBASLA TACİR

Bir gün şah oğlu Şah Abbas təğyiri-libas olub vilayəti gəzməyə çıxmışdı. Gəlib Təbriz şəhərinə yetişdi. Bazara gəldi, Rastabazarı sıra-sıra gəzdi, qiymətləri soruşdu, matahlara baxdı, çox razı qaldı. Bazardan çıxıb gedirdi ki, gördü qıraq sıralarda bir xırdaca dükan var, dükançı bir cavan oğlandır, özü də çox gözəl-göyçəkdir. Amma elə bikefdir ki, elə bil gəmiləri qərq olub.

Şah Abbas buna yaxınlaşıb salam verdi. Baxıb gördü ki, dükan ağzınacan göy çətin ilə doludur. Soruşdu:

– Ay qardaş, nə olub sənə, niyə belə bikefsən?

Dükançı dedi:

– Əmican, mən Ərdəbilliyəm. Özüm üçün bir az maya düzəltmişdim, qazanc eləyib toy eləyəcəkdim. Mənə dedilər ki, göy sətin Təbrizdə çox şirin və baha satılır. Mən də bütün varidatımı göy sətinə verib buraya gətirdim. İndi on beş gündür bazardayam, heç on beş ərşin sata bilməmişəm. Heç aldığımın yarısı qiymətinə də alan yoxdur. Qalmışam baxa-baxa. Heç çörək yeməyə də pulum qalmayıb.

Şah Abbas dedi:

– Oğul, fikir eləmə. Allah var, rəhmi də var.

Tacir başını buladı:

– Allaha qurban olum. Mənə nə kömək eləyəcək?

Şah Abbas daha bir söz demədi. Həmin gün geri qayıtdı. Saraya çatıb əmr verdi ki, iki gündən sonra Təbrizə gəlirəm. Mən gəlincən şəhər əhlinin hamısı göy sətindən arxalıq geyməlidir. Kim geyməsə, iyirmi tümən cərimə ediləcək.

Əmr Təbrizə yetişən kimi camaat bəzzaz dükanlarına üz qoydu: göy sətinin qiyməti birə-beş qalxdı. Cavan tacir bütün matahını bir saatın içində baha qiymətə satıb evinə qayıtdı.

## ABBAS SƏHHƏTLƏ XƏSTƏ

Şamaxı şəhərində bir nəfər şəxs bərk xəstələnir. Bütün həkimlərə müraciət edirsə də, bir çarəsi olmur. Bir gün həmin şəxs eşidir ki, həkim Mirzə Abbasqulu Səhhət İrandan təhsildən qayıdıb gəlib. Durub bunun yanına gəlir. Abbas Səhhət bunu müayinə edib görür ki, ciddi xəstədir, çarəsi olan deyil. Başdan eləmək üçün götürüb bir nüsxə yazır və kişiyə verir ki, aparıb dərmanxanadan alarsan, gündə üç dəfə ac qarına içərsən, bir on günə sağalarsan.

Kişi sevincək gedib dərmanı alır, içir və doğrudan da, on-on beş günə tamam sağalır.

Bir gün böyük məclislərin birində tənə ilə həkim Mirzə Məmmədə və qeyri həkimlərə deyir:

— Siz də özünüzü həkim hesab edirsiniz, amma mənə bir əlac edə bilmədiniz. Mirzə Abbasqulu isə bircə dərman verib məni sağaltdı.

Həkimlər Abbas Səhhətin yazdığı nüsxəyə baxıb görürlər ki, o, xəstəyə "aqua destille" (təmizlənmiş su) veribmiş. Xəstə isə həkimə inandığı üçün adi suyu içib sağalmışdır. Atalar doğru deyib ki, sidqini daşa bağlasan, daşdan da mətləb alarsan.

## BÜTÜN İNSANLAR QARDAŞDIR

Bir gün 4 nəfər dindar yol ilə gedirdi. Gecəni çöldə qalası oldular. Bunların birisi xaçpərəst, ikisi müsəlman, birisi yəhudi idi. Gecə hərəsi bir səmtə çəkilib yatdı. Səhər bir şəhərə gəlib çıxdılar. Burada yaşayanlar yəhudi idi.

Günorta namazının vaxtı yetişdi. Yəhudi dedi:

– Gedək bizim kilsəyə, orada ibadət edək.

Xaçpərəst və müsəlmanlar dedilər:

– Biz başqa dindən ola-ola yəhudi kilsəsinə gedib özümüzü mürdarlaya bilmərik.

Yəhudi nə qədər dedisə, buna qulaq asmadılar.

Gün gəlib axşam oldu. Bunları heç kim qonaq saxlamadı. Gecə bərk yağış yağdı, sonra külək qopdu. Bu kişilər soyuqdan əsə-əsə Allaha ibadət etdilər və bir-birinə qısılıb yatdılar.

Sabah açılanda gördülər ki, dördü də bir yorğan-döşəkdə yatıb, özləri də yəhudi kilsəsinin içindədirlər.

Bunlar təəccüb etsələr də, dinmədilər, durub ibadətə başladılar. Dördü də üzünü Allaha tutub sual etdi ki, – ey Xudavəndi-kərim, bizi bu sirdən agah et!

O saat göy gürüldadı, hər tərəf nura qərq oldu. Göydən nida gəldi:

– Ey mənim bəndələrim, sizin hamınızı mən yaratmışam, mənim nəzərimdlə hamınız birsiniz. Mənim yaratdığım bütün insanları bir-birinə qardaşdır.

## YAXŞI QONŞU QARDAŞDAN İRƏLİDİR

Şəki şəhərində bir nəfər tacir yaşayırdı. Bir gün o, böyük bir ziyana düşdü. Çox fikirləşdi. Əl altıycan vəzndə yüngül, qiymətdə ağır şeylərini satıb ziyanlığa verdi. Hesablayıb gördü ki, yox, ödəmir. Utandığından da bir kəsə dərdini demədi. Bu qərara gəldi ki, ev-eşiyimi satım, borcumu verim, özüm isə ailəmi götürüb başqa şəhərə köçüm. O, bu qərar ilə xəlvəti alıcı tapdı. Alıcı gəlib baxdı, evi, həyəti,

bağ-bağçanı çox bəyəndi. Qiymətləşdilər; alıcı pulu verəndə tacir dedi:

– Qardaş, bu, verdiyim evin qiymətidir. Amma mən sənə canlara dəyən qonşu da satıram. Bəs ona nə verirsən?

Alıcı güldü:

– A kişi, dəli olmamısan ki, qonşunu da satarlar?

Tacir dedi:

– Qardaş, vallah, bu bir qonşudur ki, misli-bərabəri yoxdur. Sən gəl belə qonşu üçün də beş-altı qızıl əlavə elə.

Alıcı hirsləndi, dəllal çağırdı. Söz uzandı, səs-küy qalxdı. Səsə tacirin qonşusu gəldi. Dedi:

– Ay qonşu, nə olub, niyə səs-küy salırsınız?

Alıcı dedi:

– Ay kişi, bu tacir evini satır, düzəlişmişik, indi qonşusu üçün də pul istəyir? Heç belə iş olar?

Qonşu tacirdən soruşdu:

– Sən niyə evini satırsan? Bəs mənə niyə deməmisən?

Tacir utana-utana başa saldı ki, bəs işim əyib, ziyana düşmüşəm, satıb borcuma verəcəyəm.

Qonşu dedi:

– Evi satma. Mən bu saat sənin borcunu ödəyərəm.

Bunu deyib evə getdi və tez də qayıtdı. Əlində bir xeyli pul və arvadının qızıl şeyləri vardı. Onları tacirə verib dedi:

– Al, apar, borcuna ver, evi satma!

Tacir qonşusunu öpüb alıcıya dedi:

– Bax, qardaş, mən sənə belə bir qonşu satırdım. Sən bilmirsən ki, yaxşı qonşu qardaşdan irəlidir?

## BƏHRAM ŞAHIN BAŞDAŞI

Bəhram şahın itməsi xəbəri onun anasına yetişən kimi arvad özünü itirmədi. Qocalığına baxmayıb at mindi, dəstə topladı, oğlunu axtarmağa başladı. Ana qabaqda, qoşun əhli dalda çapa-çapa gəlib Bəhramın qeyb olduğu mağaraya çatdılar. Mağaranı qarış, iynə gəzən kimi gəzdilər. Lakin heç nə tapmadılar. Onda ana əmr etdi ki, buraya qırx min əli külünglü adam gəlsin.

Qırx min adam qırx gün mağara olan dağı qırx ərşin dərinlikdə qazıb atdılar. Lakin heç bir şey tapa bilmədilər. Onda ana dedi:

– Hamı şəhərə qayıtsın. Mən burada qalıb oğlumu gözləyəcəyəm.

Ona çox minnət elədilər, heç kimə qulaq asmadı. Qanun əhli çarəsiz qalıb şəhərə qayıtdı. Ana dağlarda tək qaldı. Dağı-daşı qarış-qarış gəzdi, hər tərəfə ün saldı, ancaq Bəhram tapılmadı ki, tapılmadı. Ana bu minval ilə düz yeddi il gəzdi. Qışın şaxtasında, yazın yağışında, yayın istisində daldanacaqsız qaldı. Yediyi yabanı otlar, cır meyvələr oldu. Paltarı əynindən töküldü, özü arıqladı, əriyib iynələrə sap oldu. Lakin o şəhərə, insanların yanına qayıtmaq, şahlıq etmək fikrinə düşmədi.

Bir gün o, yuxuda oğlu Bəhramı gördü. Ana soruşdu:

– Oğul, yeddi ildir səni axtarıram, niyə gəlib çıxmırsan?

Bəhram cavab verdi:

– Ana, indi mən şah deyiləm ki, öz ixtiyarımda olam. Mən indi rəiyyətəm, padşahım icazə verməsə, gələ bilmərəm.

Ana soruşdu:

– Oğlum, bəlkə bir şeyə ehtiyacın var? Utanma, de, nə istəsən, sənin üçün tapdıraram.

Bəhram dedi:

– Mənim üçün elə bir başdaşı düzəltdir ki, həmişə sənin səsin qulağıma, iyin burnuma gəlsin.

Ana hövlnak yuxudan ayıldı və o saat üzünü qibləyə tutub dedi:

– İlahi, oğlum məni çağırır. Məni daş elə, onun üstündə başdaşı olum, arzusu yerinə yetsin!

Allah onun sözünü eşitdi, arvad daş oldu.

## İLDIRIM QAYASI

Bir kişinin uzun müddət övladı olmurdu. Bir gün o, niyyət eləyib yatdı. Yuxuda gördü ki, bir nurani şəxs ona deyir:

– Oğul, mən Allah-Taalanın qismət yazan mələyiyəm. Sənin bir cüt əkiz uşağın olacaq. Amma hər ikisi toy günü öləcək.

Kişi yuxudan ayılan kimi bu yuxusunu arvadına danışdı. Arvad dedi:

– Təki övladımız olsun, sonsuzluq adı üstümüzdən götürülsün. Sonra ölsələr də, eybi yoxdur.

Bu yuxudan doqquz ay sonra arvad əkiz uşaq doğdu: biri oğlan, biri qız idi. Uşaqlar dörd yaşına çatanda anaları ilə birlikdə meşəyə getmişdilər. Meşədə oğlan uşağı itdi. Arvad səs-küy saldı. Bütün kənd camaatı tökülüb gəldi. Axtarmamış yer qoymadılar, lakin oğlan tapılmadı. Kimi dedi "yəqin qurd-quş yedi", bəziləri dedi "qul tacirləri oğurlayıb apardı." Xülasə, bir-iki ay gəzəndən sonra hər yerdən əlləri

üzüldü. Aradan on beş-on altı il keçdi. Qocaların qızı böyüyüb gözəl və ağıllı bir qız olmuşdu. Onu çox yerdən istəyən var idi. Lakin qız heç kimə getməyə razılıq vermirdi.

Bu zaman bu kəndə bir yad oğlan gəlib çıxdı. O, çox gözəl və ağıllı idi. Bir gün qocaların qızı bulaqda ikən oğlanla rastlaşdı. Hər ikisi bir-birinə aşiq-məşuq oldular. İki gündən sonra oğlan qız evinə elçi göndərdi. Atası qızın məramını soruşdu, qız razılığını bildirdi. Elçilərə "hə" cavabı verildi. Oğlanın xeyli pulu var imiş. O, kəndin lap qırağında, sərt qayanın üstündə bir ev tikdirdi və tezliklə toy edib sevgilisini evinə apardı. Qızın ata-anası oğlanla qızı bir yerdə görəndə çox təəccübləndilər. Elə bil bir alma idi iki yerə bölünmüşdü. Onlar şübhələnib oğlanın kimliyini, haralı olmasını soruşdular. Oğlan dedi ki, bəs mən ata-anamı, haralı olduğumu bilmirəm, çünki dörd-beş yaşında məni qaraçılar oğurlayıb aparıb.

Kişi ilə arvadı həyətə qaçdılar, oradan evlərinə yüyürdülər ki, gedib qohum-əqrəbaya desinlər "bu bizim oğlumuzdur, gəlin qızı və oğlanı başa salın". Elə bunlar evdən çıxan kimi oğlan qıza yaxın gəlmişdi ki, ildırım şaxıdı, oğlanı, qızı və evi yandırıb kül elədi. O vaxtdan bəri o qayalığa "İldırım qayası" deyilir.

## TEYYİBƏ

Şirvan mahalında Teyyibə adlı bir qadın yaşayırdı. Bir gecə bunun atası, əri və oğlu türk paşasının iki əsgərini öldürmüşdülər. Paşa onları tutdurdu, əmr elədi ki, sabah üçünü də meydanda boğazından asın!

Teyyibə bir gecə-gündüzdə o qədər ağladı, döyündü, fikir elədi ki, sabaha kimi başı ağardı, beli büküldü, gözləri tutuldu. Sabahı gün meydan sulandı, bütün şəhər əhalisi toplaşdı, dar ağacları quruldu, paşa qırmızı geyib taxta çıxdı, cinayətkarları gətirdilər.

Teyyibə onları görcək elə bir qiyyə çəkdi ki, meydandakı adamın hamısı ağlaşdı, paşaya minnət elədilər ki, bu arvada rəhmin gəlsin. Paşa Teyyibəni yanına çağırdı, baxıb gördü ki, bir-iki gündə bu arvad elə dəyişilib ki, tanımaq mümkün deyil. Ona rəhmi gəlib dedi:

– Ey Teyyibə, sən ki, bu qədər sızıldayırsan, bu üç nəfərin birini sənə bağışlayıram. Birini seç, götür. Amma ikisini asdıracağam.

Teyyibə paşanın ayağına yıxılıb təşəkkür edəndən sonra əzizlərinə yaxınlaşdı. Əvvəl oğluna baxdı, neçə illər əziyyətini çəkmiş, böyüdüb boya-başa çatdırmış, təzəcə nişanlamışdı.

Sonra ərinə baxdı. İyirmi il idi ki, can bir qəlbdə onunla yaşayırdı, bir-birini ürəkdən sevirdilər.

Sonra da atasına baxdı. Axı bu, ata idi, kiçik Allah idi, bunun qiyməti varmı? İllər boyu zəhmətini çəkib böyüdən atası deyilmi?

Teyyibə yavaşca atasının əlindən tutub dedi:

– Paşa, sağ olsun, atamı mənə ver.

Paşa razı oldu, kişini açıb Teyyibəyə verdilər. Lakin xalq içində səs-küy qalxdı. Dindarlar deyirdi:

– Arvad gərək ərini istəyəydi, yəqin onun gözaltısı varmış.

Qadınlar deyirdi:

– O necə anadır ki, övladını istəmədi?

Səs-küy gücləndi. İşi belə görüb paşa üzünü Teyyibəyə tutub soruşdu:

– Ey Teyyibə, bizə de görək, sən nə üçün ərini, oğlunu yox, atanı istədin? Məgər onları istəmirsən?

Teyyibə dedi:

– Ey paşa, mən ərimi çox sevirəm. Lakin başqa ərə gedə bilərəm. Bu ərim kimi ola bilməsə də, hər halda ərim olar. Oğlumu da çox sevirəm. Lakin ərə getsəm, oğlum da ola bilər. Amma atanı mən haradan tapa bilərəm? Buna görə də atamı götürürəm.

Paşa dedi:

– Ey Teyyibə! Sən ki, bu düşüncənin sahibisən, ərini və oğlunu da sənə bağışlayıram.

## QIZ DAŞI

Müslüm bəyin qızı Soltan xanım əmisi oğluna göbəkkəsmə idi. Lakin qız onu deyil, rəncbər Xəlili sevirdi. Bu xəbər bəyin qulağına çatdısa da, onu qulaq vermədi, ağsaqqalları yığıb qızı üçün nişan götürdü, qardaşı öldüyü üçün, toyu da özü eləmək fikrində olduğunu bildirdi. Bəy toyun tədarükünə başladı.

Soltan xanım çox ağlayıb-sıtqadı, atılıb-düşdü, yalvarıb-and verdisə də, ona qulaq asan olmadı. Nəhayət, toy günü yaxınlaşdı. Soltan xanım sevgilisi Xəlili çağırtdırıb dedi:

– Atam məni zorla əmim oğluna verir. Sabah toydur, əgər bu gecə məni qaçırtmasan, sonra daha mümkün olmayacaq.

Xəlil razılaşdı. Gecə ikən at minib oradan çıxdılar. Bunların getməyini bilən olmadı. Səhər qonaqlar gəldi, toy

başlandı. Bəyin arvadı qızın qaçmasını ərinə xəbər verəndə kişi dedi:

– Heç səs-küy salma, qoy toyu yola verək, lap yerə də girsə, tapıb gətirəcəyəm.

Toy sovuşdu. Qulluşçu qızlardan birini geyindirib üzü örtülü pərdənin dalında oturtdular.

Səhər Müslüm bəy öz yaxın adamları ilə birgə Xəlil ilə Soltan xanımı gəzməyə getdilər. Onlar düz on iki gün gəzib-dolaşandan sonra axırı ki, qız ilə oğlanı dağda tapdılar. Xəlil elə oradaca doğradılar. Qızı isə kəndə gətirdilər. Bəy öz qızını zəncirləyib qapıya bağladı. Bir başqa bəyin qızını alıb qardaşı oğluna gəlin gətirdi.

Toyun sabahı günü Soltan xanımı kəndin qırağına çıxartdırdı. Orada onu daşa qalaq elətdirdi. Əvvəlinci daşı özü atdı, sonra da nökər-naibi. Daş üst-üstə qalanıb iri bir təpə oldu. O daşa indi də "Qız daşı" deyirlər.

## MOLLA YERİ

Bir qadın köçdən aralı düşüb qalmışdı. Ona görə piyada gedib özünü köçə çatdırmaq istəyirdi. Lakin hava qaraldığı üçün qorxurdu ki, yolu itirər, qurda-quşa və ya qaçaq-quldura rast düşər. Birdən o, gördü ki, dalda bir atlı gəlir. Qadın gördü ki, bu şəxs görkəmindən molladır, özü də yaşlı adamdır, ona görə də daha ehtiyat eləmədi və atlıya yaxınlaşıb dedi:

– Ay əmi, mən köçdən dala qalmışam, Allah xatirinə, mənə pasiban ol, köçə yetir. Qaranlıq düşüb, qorxuram yolu itirəm.

Molla baxıb gördü ki, bu, bir cavan, gözəl gəlindir. Dedi:

— Gəl min atın tərkinə, səni aparım köçə çatdırım.

Gəlin arxayınlıqla gəlib atın tərkinə mindi. Bir qədər yol gedəndən sonra hava tamam qaraldı. Gəlin gördü ki, deyəsən bunlar yoldan çox aralı gedirlər. Amma utandığından bir söz demədi. Bir qədər gedəndən sonra molla dedi:

– At çox yorulub, düşək, ona bir az dinclik verək. Sonra minib tez gedib çatarıq.

Gəlin əlacsız qaldı, hər ikisi atdan düşdülər. Yerə düşən kimi molla gəlinə toxunmaq istədi. Gəlin çox yalvardı. And verdi, lakin molla fikrindən dönmədi. Onda gəlin əlacsız qalıb dedi:

– Allah, sən özün məni rüsvay eləmə.

Elə o saat yer ayrıldı və molla torpağa batdı. Torpaq üstünü örtdü. Gəlin mollanın atını minib köçə çatdı. O vaxtdan bəri o yerə "Molla yeri" deyilir.

## ŞƏHİD QƏBRİ

Avar xanının atlıları kəndi talan eləyib gecə ikən geri qayıdırdılar ki, azman dərələrin, şiş qayaların, keçilməz meşələrin içində azıb-qaldılar. Üç gün o yan-bu yana gəzəndən sonra özləri də, atları da üzülüb əldən düşdülər, yeməyə də bir şeyləri qalmadı. Onlar belə vəziyyətdə ikən yanlarına bir qız gəlib çıxdı. Atlıların başçısı soruşdu:

– Ay qız, kimsən, nəçisən, hardan gəlib, hara gedənsən?

Qız dedi:

– Mən burdan bir az aralıda, bax o dağın dalında oluram, özüm də ata-anamla birlikdə meşədəki evimizdə olu-

ruq. Mən dağın başına çıxmışdım, gördüm siz elə üç gündür ki, bu həndəvərdəsiniz, başa düşdüm ki, azmısınız. Dədəmə dedim. O, dedi ki, qızım, mən qocalmışam, bir elə yolu gedə bilmərəm. Sən cavansan, get, yolu onlara göstər. Odur ki, mən də gəldim.

Atlılar çox sevindilər. Yüklü atlardan birinin yükünü o biri atlara paylaşdırdılar. Atı yəhərləyib qıza verdilər. Qız atı mindi və dəstənin başına getdi. Bir qədərdən sonra qız atı tərpətdi, irəli çıxdı, atlılar da yeyinlədilər. Bərk çapa-çap düşdü, elə bildilər ki, qız atı götürüb qaçır; atların cilovunu buraxdılar.

Qız elə bil bunu gözləyirmiş; ata elə bir gəliş gəldi ki, o, quş kimi götürüldü, hamı atı onun dalınca çapdı.

Birdən qarşıya sərt bir uçurum çıxdı: qız da, dalınca çapanlar da hamısı uçuruma tökülüb öldü. Sən demə, qız quldurları məhv etmək üçün bunu irəlicədən düşünübmüş. Özü məhv olsa da, düşmənləri də məhv etdi.

Qızın meyidini tapıb dağın başında dəfn etdilər. Ona indi də "Şəhid qəbri" deyir və ziyarətə gəlirlər.

## ANANIN QƏRARI

Nadir şahın qoşunları Şamaxıya hücum edəndə bütün əli silah tutan kişilər, hətta bəzi subay qız-gəlin də şəhəri müdafiə etmək üçün təşkil olunan könüllü dəstələrinə getmişdi. Nəbat qarının aman-zaman, saçı-birçəyi ağaran vaxt doğduğu, sonra isə yetim böyütdüyü yeganə oğlu Saleh də müdafiəçilər sırasında idi.

Artıq bir həftə idi ki, şamaxılılar Nadir şahın nizami ordusunun qarşısını saxlamışdı. Vəziyyət isə ağır idi: mü-

dafiə olunanların silahı, yeməyi, vahid rəhbəri yox idi, özləri də sayca çox az idilər.

Nadir şah müdafiə olunanlara xəbər göndərmişdi ki, sabah gecə nə təhər varsa, şəhəri alacaq və səngərdə əsir tutulan könüllülərin birini də sağ buraxmayacaq.

Şəhər əhalisi yatmamışdı, demək, sabah gecə qətl-qarət başlanacaq, neçə-neçə evlər dağıdılacaq, adamlar asılacaqdı… Nəbat qarı da yatmamışdı. O da sabahkı gecəni düşünürdü. Birdən qapı taqqıldadı. Qarı astadan:

– Kimsən? – deyə soruşdu.

– Mənəm.

Nəbat qarı oğlunun səsini tanıyıb cəld qapını açdı, oğlunu qucaqlayıb öpdü:

– Can bala, niyə gəldin? – deyə nigarançılıqla soruşdu.

Saleh könülsüz cavab verdi:

– Eh, rəhmətliyin qızı, xarabamıza gəlməyəcəkdim? Onsuz da gücümüz çatmır. Nadirin əmrini eşitməmisən?

Nəbat qarını elə bil ilan vurdu:

– Deməli, sən irəlicədən qaçıb gəlmisən? Deməli, sən yoldaşlarını tək qoymusan? Deməli, sən Şamaxını Nadirə bağışlayırsan? Dur, bu saat qayıt yoldaşlarının yanına!

Saleh yumşaqlıqla dedi:

– Ana, onsuz da biz uduzmuşuq. Niyə özümü ölümə verim? Xoşun gəlir, bu qılınc, bu sən – özün get.

Qarı ağlaya-ağlaya:

– Deməli, sən gerçəkdən evdə gizlənəcəksən, camaatı orada qıracaqlar? – deyə soruşdu.

Saleh yükdən özü üçün yorğan-döşək götürüb yer sala-sala cavab verdi:

– Allah hamını faili-muxtar yaradıb, özlərinin ağlı-zadı yoxdur?

Qarı daha bir söz demədi. Saleh soyunub yatağa girdi və tezliklə yuxuladı.

Nəbat qarı qapının ağzında oturub xəyalən öz-özü ilə danışırdı:

– Deməli, camaatın kişiləri qırılacaq, mənim oğlum sağ qalacaq? Mən onun çörəyini yeyəcək, ona toy edəcəyəm? Bəs camaat ölənləri üçün yas eləyəndə mən onların üzünə necə baxacağam? Mənə "qorxaq anası", "xain anası" deməyəcəklər? Yox, mənə belə oğul gərək deyil! Çətin gündə eli, milləti darda qoyub qaçan övladda namus-qeyrət olmaz. Beləlari mütləq ölməlidir!

Ana öz qərarını verdi və oğlunun küncə atdığı qılıncı götürüb yatdığı yerdə oğlunun başını kəsdi.

## MƏHƏBBƏTİN GÜCÜ

Qazıya xəbər verdilər ki, onun gözünün ağı-qarası yeganə qızı Osman əfəndinin oğlu ilə sevişir. O, qəzəbindən nə edəcəyini bilməyib bağırdı:

– Necə? Mən, övladi-peyğəmbər, Əli şiəsi, min-min camaatın ruhani atası öz qızımı sünnüyə, Əlinin düşməninə verim? Qızımı öldürərəm, ancaq buna razı olmaram!

Qazının qızı Zeynəb atasının sözlərini eşidən kimi sevgilisi Ömərə xəbər göndərdi ki, gəlsin. Ömər gecə ilə görüşə gəldi. Zeynəb əhvalatı ona danışda, atasının heç vəchlə öz fikrindən dönməyəcəyini bildirib bu şəhərdən qaçmağı təklif etdi. Ömər sevincək razılaşdı. Gecə ilə tövlədən at çıxartdılar, atlanıb şəhərdən çıxdılar.

Qazı sübh namazına duranda qızın qaçırıldığını başa düşüb Osman əfəndinin evinə adam göndərdi. Lakin nə oğlan, nə də qız orada yox idi. Qazının adamları şəhərin bütün evlərini bir-bir gəzdilər. Lakin qaçqınlar tapılmadı. Onda qazı ətraf kədləri, umud gələn yaxın və uzaq tanışları əhvalatdan xəbərdar etdi; amma "gördüm" deyən olmadı.

Aradan yeddi ay keçdi; qazı gecə-gündüz axtarırdı. Nəhayət, axtardığını tapdı: Ömərlə Zeynəb dağlar arasındakı xırdaca bir kolun qırağında özlərinə koma tikib yaşayırdılar. Qazı özü ilə iki nəfər inanılmış adam götürüb həmin yerə getdi; qəflətən gecə ikən komaya basqın edib Ömərlə Zeynəbi tutdular. Zeynəb atasına çox yalvardı, özü könlü ilə qaçdığını, indi hamilə olduğunu dedi. Qazı daha da qəzəbləndi. Ömərin əl-ayağını bağlayıb gölə atdılar. Zeynəb ağladı, yalvardı ki, qoyun üç-dörd gün burada qalım, meyid suyun üzünə çıxanda dəfn edim, sonra gəlib məni aparsınız. Qazının adamları onu razılaşdırdılar.

Zeynəb üç gün gölün kənarında gəzib ağladı, dördüncü gün meyid qırağa çıxdı. Zeynəb onu qucağına alıb öpüb oxşadı, sonra isə meyidi iplə özünə bağladı, ağlaya-ağlaya dedi:

– İndi bizi kim ayıra bilər, sevgilim? Dünyada məhəbbətdən güclü nə ola bilər?

Bunu deyib Zeynəb suya girdi, su boğaza çıxıncaya qədər irəlilədi, orada sonuncu dəfə sevgilisinin dodaqlarından öpüb onunla birlikdə suya yıxıldı. Məhəbbət dinə qalib gəldi!

# NAMUSSUZ YAŞAMAQDANSA ÖLÜM YAXŞIDIR

Dərgah xan ovdan qayıdanda yolüstü Kərim əfəndiyə qonaq olmuş, orada onun gənc, gözəl qızı Şəhlaya aşiq olmuşdu. Yaşının əllini ötməsinə, Şəhla yaşda oğlu – Rizvan – olmasına baxmayaraq, Şəhlanı alıb özünə arvad etmişdi. Şəhla Dərgah xanı sevmirdi, lakin onun əlindən qaçıb-qurtarmaq da mümkün deyildi.

Şəhlanın xana arvad olmağından təxminən bir il keçirdi. Bu müddətdə o, hələ Rizvanı görməmişdi. Bir gün səhər bağda gəzərkən təsadüfən onunla üz-üzə gəldi və elə o gündən də onu dəlicəsinə bir məhəbbətlə sevməyə başladı. O gündən sonra Şəhla tez-tez Rizvanı görməyə çalışdı, nəhayət, bir gün ikilikdə qalanda eşqini ona açdı. Rizvan ona qulaq asmayıb otaqdan çıxıb getdi. Səhəri gün Şəhla onu görüb dedi:

– Bura bax, məndən niyə qaçırsan? Mən ki, sənin anan deyiləm. Sənin tayınam. Atan qoca kişidir, məni zorla özünə arvad edib.

Rizvan dedi:

– Utan, utan! Görünür ki, sən kimliyini unutmusan? Axı səninlə bir yastığa baş qoyan kişi mənim atamdır. Ayıbdır, belə fikirdən düş!

Şəhla çox yalvarda, Rizvan qulaq asmadı. Beləliklə, həftələr, aylar ötüb keçdi. Nəhayət, bir gün xan ovda olan zaman Şəhla Rizvana açıqca dedi:

– Əgər bu gecəni mənim yanıma gəlməsən, daha incimə.

O gecənin yarısına kimi Şəhla Rizvanı gözlədi, lakin o, gəlmədi. Onda Şəhla pal-paltarını cırdı, saçlarını yolub səs-küy saldı:

— Ay haray, köməyə gəlin!

Nökər-naib səsə yuxudan durub gəldi. Şəhla hamıya dedi:

– İndicə Rizvan yorğan-döşəyimə girib mənim namusuma toxunmaq istəyirdi, səs-küy saldım, qaçdı.

Səhər Dərgah xan ovdan qayıdanda bu xəbəri eşidib qəzəbləndi, Rizvanı və Şəhlanı öz otağına çağırtdırdı. Orada Şəhla hamıya dediyini xana da dedi. Xan əmr etdi ki, Rizvanı qayadan atıb öldürsünlər.

Xidmətçilər gəlib onu aparmaq istəyəndə Rizvan dedi:

— İlahi, özünə bəllidir ki, mənim heç bir günahım yoxdur. Amma namussuz adı ilə də yaşamaq istəmirəm. Məni quş elə, böhtançını daş.

Elə bunu deyən kimi Rizvan dönüb quş, Şəhla isə daş oldu.

## ƏLƏMLƏR

Ərəblər Azərbaycana hügum edən zamanda onların qoşunlarının qabağında ələm (ağac və ya metaldan qayrılmış əl şəkilli bayraq) aparılırdı. Bu, dinin rəmzi idi və ələm gələn yerdə heç nəyə "yox" demək olmazdı.

Ərəblərin qoşunu gəlib uca dağlara çıxdı. Qoşun əhli köçəri obaları soyub-talayır, tabe olmayanları qırır, gözəlləri çəkib aparırdı. Vəziyyət dözülməz olmuşdu.

Bu vilayətdə Ağca adlı bir ağbirçək qarı vardı. O, camaatı başına toplayıb dedi:

– Quduz canavarı öldürməyəndə, bütün aləmi dalayar. Biz bu ərəblərin qabağından qaçdıqca onlar cızıqlarından çıxırlar.

Ağsaqqallardan biri dedi:

— Neynəmək olar? Onların əllərində ələm var! Ələm olan yerə heç kim girə bilmir, ələmi görən kimi ən igid pəhləvanlar da tir-tir titrəyir.

Ağca qarı dedi:

– Bu ələmlər olmasa, sizin onlara gücünüz çatarmı?

Hamı səs-səsə verdi:

– Əlbəttə! Onlar da bizim kimi adam deyilmi? Ancaq ələmlərdən qorxuruq. Deyirlər, kim onlara toxunsa, daş olur, qabağına keçsə, doğranır, o gələn yerdə heç nəyə "yox" demək olmur.

Ağca qarı dedi:

– Yaxşı, mən fikirləşib bir çarə taparam.

Həmin gecə Ağca qarı yatmadı. Əlinə qılınc götürüb ərəblərin düşərgəsinə getdi. Bu düşərgədə dörd ələmdar var idi. Ağca qarı onların dördünün də ələmini götürdü və üsulluca aralıqdan çıxdı. Gecə ikən ələmləri gətirib bir dərədə basdırdı.

Səhər qoşunların önündə ələm görməyən yerli əhali ürəkləndi və işğalçıları öz yerlərindən qovub çıxartdı.

Ələmlərin basdırıldığı dərəyə indi də "Ələmlər" deyilir.

## BƏHRAMIN SAĞALDILMASI

Bir gün Bəhram şah yatmışdı. Yuxuda gördü ki, tamam bədəni quruyub. Hövlnak ayıldı, lakin nə əlini, nə ayağını, nə də bədənini tərpədə bilmədi – həqiqətən də qurumuşdu. O, zəif səslə pişxidməti çağırdı. Pişxidmət içəri girən kimi dedi:

– Get, vəziri bura çağır.

Pişxidmət gedib vəziri yuxudan oyatdı, dedi ki, bəs şah səni çağırır. Vəzir o saat geyinib gəldi. Bəhram vəziyyəti ona başa saldı. Vəzir baxıb gördü ki, Bəhramın vəziyyəti çox ağırdır. Ona görə ləngitmədən gecə ilə bütün məşhur həkimləri gətirtdirdi. Həkimlər şahı diqqətlə yoxladılar, sonra bir-birilə məsləhətləşdilər, dava-dərman eləməyə başladılar.

Aradan on beş-iyirmi gün keçdi, lakin dava-dərmanın heç bir təsiri olmadı. Bəhram şah sağalmadı ki, sağalmadı. Hətta nitqi də tutuldu, bircə gözləri baxır, qulaqları eşidir, ağzı yeyirdi.

Bəhram şahın anası gördü ki, həkimlər bir iş görə bilmədilər. Ona görə özü qırmızı geyib taxta çıxdı, car çəkdirdi:

– Kim oğlumu sağaltsa, özü ağırlıqda qızıl verəcəyəm.

Carçılar şəhərbəşəhər, kəndbəkənd gəzib hər yerdə bu xəbəri camaata çatdırdılar. Aradan bir neçə gün keçdi. Bir gün Bəhramın anasına xəbər gəldi ki, bəs bir kəndli gəlib, deyir ki, razıdırlarsa, mən şahı sağaldaram. Arvad o saat kəndlini yanına çağırtdırdı, razılığını bildirib onu şahın yanına apardı. Kəndli Bəhramı diqqətlə gözdən keçirtdi. Sonra dedi:

– Mənə on qızıl pul verin, bir nökər də mənimlə getsin, bazardan bəzi ehtiyat alacağam, ədviyyat, müxtəlif ələfiyyat və sair də olmalıdır.

Ona tez pul və bir nökər verdilər. O, bazara gedib bir-iki saatdan sonra qayıtdı. Gətirdiyi şeyləri bir-birinə qatıb iki-üç cür dərman qayırdı. Gündə bir neçə dəfə şaha yedirtdi. Üç gün bu qərar ilə keçdi. Dördüncü gün kəndli dedi:

– Mənə bir yaxşı at verin, aparıb bağlayım hamamın qabağına. Sonra şahı kəcavəyə qoyub hamama aparın, orada içəri qoyub, çıxıb gəlin. Bax, bir nəfər adam o aralıqda qalmasın.

Onun dediklərinə əməl etdilər. Atı hamamın qapısına bağladılar. Şahı içəri keçirib hovuzun yanına qoyub çıxıb getdilər. Kəndli Bəhrama yaxınlaşıb onu soyundurdu. Gətirdiyi dərmanları suya qatıb şahın başına tökdü, birini də içirtdi. Sonra şahın üstünə yenə su tökdü. Bu minval ilə üç dəfə başına dərmanlı su töküb üç dərman içirtdi. Beləliklə, bir saat keçdi. Birdən o, qapının dalında gizlətdiyi çubuğu götürüb şahın üstünə cumdu:

– Ədə, köpək oğlu, – dedi, niyə bu camaata bu qədər zülm eləyirsən, sən öləsən, yaxşı yerdə əlimə düşmüsən.

Şah bir az qorxusundan, bir az hirsindən yerindən qalxdı, dizi üstə oturdu. Kəndli bunu görcək bir az da nalayiq söyüşlər söyərək şaha hücum çəkir, çubuğu az qala onun gözünə soxurdu. Bəhram qəzəbindən boğula-boğula özünə cəhd gəldi, yerdən boya-boy qalxdı, kəndli ilə üz-üzə durdu. Kəndli bir az geri çəkilib şahı daha artıq təhqir etdi. Şah bir də özünə cəhd gəldi:

– Səni doğrayacağam, – deyə iki-üç qədəm yeridi və huşdan gedib yerə yıxıldı.

Kəndliyə də elə bu lazım idi: şah həm danışmış, həm də yerimişdi. O, daha burada qala bilməzdi, cəld hamamdan çıxdı, atı minib şəhərdən uzaqlaşdı.

Aradan bir-iki saat keçmiş şah özünə gəldi, qorxa-qorxa yerindən qalxıb paltarlarını geyindi və qapıya çıxdı. Küçəyə çıxan kimi onu ayaq üstə görən şəhər əhli sevincək saraya qaçıb muştuluq aldı. Şahı kəcavədə saraya gətirdilər. Bəhram içəri girən kimi dedi:

– Məni sağaldan həkim hanı?

Hər yeri axtardılar, kəndli tapılmadı. Onda Bəhram şah car çəkdirdi ki, məni sağaldan adam gəlsin, and olsun Allaha ki, onu əfv edirəm və vəd edilmiş qızılı verirəm.

Üç-dörd gündən sonra kəndli saraya gəldi. Şah onu çox hörmətlə qarşıladı, vəd edilmiş mükafatı verib soruşdu:

– De görüm, o hamam müalicəsi nə olan şey idi?

Kəndli dedi:

– Şah sağ olsun, mən baxıb gördüm ki, sizdəki qeyrət, kişilik və qüvvət damarları yatıb. Onları gücə gətirmək üçün sizə müxtəlif dərman verdim, amma siz hədsiz hirslənməsəydiniz, nə danışa, nə də tərpənə bilməzdiniz. Ona görə də mən məcbur olub sizi o dərəcəyə qədər qeyzləndirdim.

Bəhram şah onu əfv etdi, ailəsi ilə birlikdə saraya gətirib özünə həkim təyin elədi.

## QARA GÖL

Dağlarda çox göllər var, amma bu göl başı bəlalı, üzü danlaqlıdır. Hamı ona "qara göl" deyir, suyundan içən, içində çimən yoxdur.

Bir zamanlar bu gölün sahilində bir kiçik köçəri oba düşmüşdü. Bu obada Kərim kişi adlı bir naxırçı vardı. Onun Züleyxa adlı cavan və gözəl bir arvadı vardı. Molla Səməndərin çoxdandır ki, Züleyxaya gözü düşmüşdü, amma nə fənd işlədirdisə, gəlini yola gətirmək mümkün olmurdu. Əlacsız qalan molla gəlini rüsvay etmək qərarına gəldi. O, obanın iki qarısını yanına çağırdı, xəlvətcə onlara dedi ki, bəs Züleyxanı bu gecə gölün qırağında bir nəfərlə görmüşəm. Mənim adım olmasın, ərinə bildirin, qoyun boşasın, onsuz da namussuz arvad kəbindən boşdur.

Qarılara da elə bu lazım idi: bir saatdan sonra bir söz min cür bəzəklə obaya yayıldı, axşama Kərimin də qulağına çatdı. Sözü elə yerli-yataqlı danışdılar ki, Kərim inandı və arvadını gecə ilə evindən qovdu. Züleyxa qucağındakı qundağı sinəsinə sıxıb obadan çıxdı və qaranlıqda gölün qırağına gəldi, bir kolun dibinə qısılıb ağlamağa başladı. Sən demə, molla Səməndər bunu güdürmüş. Əl-ayaq yığışandan sonra o, Züleyxaya yaxınlaşıb dedi ki, bəs mən səni qəbul eləyirəm, razısansa, səni evimə aparım.

Züleyxa başa düşdü ki, onu el içində rüsvay edən molladır. Ona görə onun təklifini rədd etdi. Molla gəlindən əl çəkmədi, zorla məqsədinə nail olmağa çalışdı, amma gücü çatmadı, əlacsız qalıb qundağı yerdən götürdü və qayanın başına çıxıb dedi:

– Əgər razı olmasan, uşağı gölə atacağam!

Züleyxa uşağı xilas etmək üçün yalandan “razıyam” dedi, molla uşağı ona verəndə Züleyxa itələyib mollanı gölə saldı. Molla göldə boğuldu.

Səhər mollanın meyidi göldə tapıldı. Dedilər, molla sübh namazı üçün dəstəmaz alırmış, bu vaxt Züleyxa acı-

ğından onu itələyib suya atıb. Ağsaqqallar yığılışıb belə qərara gəldilər ki, Züleyxanı suya atıb öldürsünlər. Züleyxa dedi:

– İlahi, özün bilirsən ki, məndə günah yoxdur. Əgər mən təqsirkar deyiləmsə, qoy bu gölün suyu məndən sonra qara olsun.

Züleyxa bunu deyib özünü suya atdı. Elə o dəqiqə gölün suyu rəngini dəyişib qara oldu. Camaat başa düşdü ki, gəlin günahsızmış.

O vaxtdan o gölə "Qara göl" deyirlər.

## MURAD QUŞU

Bir kasıb kəndlinin arvadı ölmüş, Murad adlı yeddi-səkkiz yaşlı bir oğlu ilə tək qalmışdı. Kəndli xeyli götür-qoy edəndən sonra gedib bir dul arvad alıb gətirdi. Arvad gələn gündən işini-gücünü atıb Muradı incitməyə başladı. Onu ac-yalavac saxlayır, döyüb-söyür, yayın istisində, qışın soyuğunda dağ-daşa gah gül-çiçək, gah əvəlik, gah təzək, gah odun dalınca göndərirdi. Arvad nə illah elədisə də, Murad ölmədi. Onda arvad hiyləyə əl atdı. Qışın qarlı-çovğunlu günündə ərinə dedi:

– Kişi, könlümə ceyran əti düşüb, deyəsən yerikləyirəm. Sən Allah, Muradı da götür, get bir ceyran tut gətir.

Kişi əlacsız qalıb Muradla bərabər dağa getdi. Xeyli gəzib dolaşdılar, lakin ceyran tapa bilmədilər. Evə əliboş qayıtdılar. Arvad hirsli-hirsli dedi:

– Özün gəldin – gəldin, bəs bu uşağı niyə gətirdin, qoy bir qədər gəzib dolaşsın, bəlkə ceyran görər, gəlib sənə xəbər elər.

Kişi çarəsiz qalıb razılaşdı. Arvad Muradı qapıdan çölə itələdi və həyətdə dedi:

— Bax, ceyran tapmamış evə qayıtma!

Murad bütün günü və gecəni soyuqda dağları gəzdi, lakin ceyran tapmadı. Əlacsız qalıb dedi:

— Allah, məni quş elə, uça-uça gəzim, bəlkə ceyran tapdım.

Murad o saat dönüb quş oldu. O quşa "Murad quşu" deyilir.

## ƏRƏSTUNLA KƏNİZ

İsgəndər Zülqərneyn üçün çox gözəl bir kəniz gətirmişdilər. Bu qız gözəl olduvğu qədər də ağıllı idi. O, bir çox elmlərdən xəbərdar, xoşsöhbət bir qız idi. Yaxşı çalır, oxuyur, rəqs edirdi. İsgəndər onu bütün hərəmlərdən artıq istəyirdi. Bir gün həmin kəniz həyətdən hərəmxanaya keçərkən qapı ağzında quruyub qaldı; nə ayağını, nə də əlini tərpədə bilmədi.

İsgəndərə xəbər getdi. O, tez vəziyyəti bilib Ərəstunu çağırtdırdı. Ərəstun gəlib kənizə baxdı, neçə-neçə dərman-dava elədi, çarə olmadı. Fikir-fikir eləyib birdən dedi:

– Bu qızın başından örpəyini açın, qoyun utansın, əlilə örpəyi saxlasın.

Qızın örpəyini açdılar. Lakin qız yazıq-yazıq baxdı, əlini tərpədə bilmədi ki, başını örtsün.

Onda Ərəstun dedi:

– Bu qızın paltarlarını tamam soyundurun, qoyun lüt qalsın.

Qızın paltarlarını soyundurmağa başlayanda, onu həya təri basdı, utancaqlıq xəstəliyə güc gəldi, qızın əli-ayağı açıldı, qız tərpəndi, dikəldi, sonra isə Ərəstunun ayağına yıxılıb onun əl-ayağını öpməyə başladı.

Hamı Ərəstuna "afərin" dedi.

## TEYMURLƏNGLƏ KƏMALƏDDİN ŞİRVANİ

Teymurləng Azərbaycanı işğal edəndən sonra bir neçə gün Şamaxıda qaldı. Teymurləng bir hündür binanın damındakı külafirəngidə oturmuşdu. O, yerli alim, şair və sənətkarları çağırtdırıb yoxlayır və Səmərqəndə göndəriləcək adamlara qatırdı.

Külafirənginin dörd qapısı vardı. Növbə məşhur alim və şair Kəmaləddin Şirvaniyə yetişdi. Teymurləng soruşdu:

– Mən indi bu qapıların hansından çıxacağam? Fikrini bir kağıza yaz, qoy xalçanın altına.

Kəmaləddin Şirvani kağız-qələm istədi, xeyli hesablamalar apardı, nəhayət, kağıza nəsə yazıb xalçanın altına qoydu.

Teymur soruşdu:

– Fikrini yazdınmı?

Şair dedi:

– Bəli.

Onda Teymur usta çağırdı, külafirənginin qiblə tərəfindən bir qapı açdırdı və o qapıdan çıxdı. Sonra Kəmaləddin Şirvaninin xalça altına qoyduğu kağızı götürüb baxdı. Gördü ki, şair yazıb: "Bu dörd qapının heç birisindən çıxmayacaq. Qiblə tərəfdən bir qapı açdırıb, oradan çıxacaq."

Teymurləng çox hirsləndi. Əmr etdi ki, şairi pəncərədən həyətə atsınlar. Qulamlar o saat əmri yerinə yetirdilər. Lakin, sən demə, külafirənginin hər tərəfinə üzüm əkilmiş və meynələr sıx şəkildə külafirəngiyə yatıbmış. Ona görə də şair əvvəl meynələrin üstünə, oradan isə üsulluca yerə düşdü və heç bir zədə olmadı.

Teymur bunu bilən kimi dedi:

– Onu bura gətirin!

Şairi içəri gətirdilər. Teymur soruşdu:

— Bəs bu gün başına belə bir iş gələcəyini bilirdinmi?

Kəmaləddin Şirvani dedi:

– Bəli, bilirdim. Bax, bura gəlməmişdən əvvəl yazıb qoltuq cibimə qoymuşdum.

Teymurləng kağızı alıb baxdı. Gördü orada belə yazılıb: "Məni bir hündür yerdən atacaqlar, amma sağ qalacağam".

Teymur güldü:

– Yox, səni Səmərqəndə aparmaq olmaz, – dedi. Ürəyimdən keçənləri hərəmlərə deyib məni rüsvay elərsən.

Kəmaləddin Şirvanini azad etdilər.

## İGİD ÖLƏR, ADI QALAR…

Monqollar Azərbaycanı işğal edərkən yerli əhali dağlara çəkilmiş, şah qoşunları pərən-pərən olmuşdu. Məşhur sərkərdə Mərdan qırx-əlli atlı və bir qədər də yerli əhali ilə birlikdə dağlar arasındakı kiçik bir kənddə qalırdı. Vəziyyət çox ağır idi, qabaqdan qış gəlirdi. Əgər qışa kimi bir tədbir görülməsə, monqollar ölkəni tarmar edəcək, millət ayaq altında gedəcəkdi.

Sərkərdə çox götür-qoy etdi; indi qoşun toplamaq və işğalçıları ölkədən güclə çıxartmaq mümkün deyildi. Nəsə başqa bir tədbir görmək lazım idi. Mərdan çox fikirləşdi, nəhayət, tapldı. O, öz yaxın dostu, həkim Osmandan xahiş etdi ki, onu çox sürətlə yoluxan və çarəsi olmayan bir xəstəliyə salsın. Osman nə qədər elədisə, Mərdan dediyindən dönmədi. Onda Osman onu əlacı olmayan və çox sürətlə yayılan bir xəstəliyə saldı.

Səhəri gün Mərdan dağlardan enib monqol əsgərlərinə dedi:

– Mən sərkərdə Mərdanam, sizə təslim oluram. Məni böyüklərinizin yanına aparın.

Monqollar onu öz böyüklərinin yanına apardılar. Qoşun böyükləri onu çox hörmətlə qarşıladılar. Onun şərəfinə ziyafətlər verdilər. Mərdan bacardıqca daha çox düşmənlə görüşməyə can atır, tezliklə yerli əhalini onlara təslim edəcəyini vəd verirdi. Monqollar onu öz qoşunlarının ayrı-ayrı bölmələrinə aparıb belə bir igid sərkərdənin təslim olmasını bildirir, bununla da, qoşunu ruhlandırırdılar.

Mərdan təslim olduğunun beşinci günü yataqdan dura bilmədi, ölümünün çatdığını bildiyi üçün qoşun böyüklərini yanına çağırtdırıb dedi:

– Mən sizə təslim olmaq üçün deyil, qalib gəlmək üçün gəlmişdim. Məqsədimə də nail oldum. Mən buraya gələrkən özümü yoluxucu xəstəliyə yoluxdurmuşdum, indi o xəstəliyi sizlərə yoluxdurdum.

Qoşun böyüyü qılıncla Mərdanı doğradı. Lakin elə həmin gün monqol qoşununda böyük qırğın başlandı. Qoşun böyükləri də, əsgərlər də milçək kimi qırıldı. Xəstəliyin dər-

manını tapmaq mümkün olmadı. Monqolların yalnız uzaqda yerləşən cüzi bir hissəsi salamat qaçıb gedə bildi.

İgid ölər, adı qalar, müxənnətin nəyi qalar…

## HÜSEYN DAŞI

Köçəri obaya gəlmiş iki mollanın şöhrəti tezliklə ətraf obalara yayıldı: mollalar şirin söhbət edir, gözəl səslə oxuyur, din-şəriət məsələlərini yaxşı aydınlaşdırırdılar. Hamı dəstə-dəstə bu mollaların görüşünə gedir və çox razı qayıdırdı.

Qonşu obadan Hüseyn adlı bir nəfər cavan da camaata qoşulub mollaları görməyə gəldi. Bu gün mollalar Allahın yeri yaratmasından danışırdılar. Onlar deyirdi:

– Allah-Taala yeri bərk cisimlərdən yaradıb, yeri bir qızıl öküz öz buynuzu üstündə saxlayır. Öküz hərdən yorulanda, yeri bu buynuzundan o biri buynuzuna atır. Bax, elə onda zəlzələ olur.

Hüseyn hər şeyi yerli-yerində öyrənmək istəyən adam idi. Ona görə də çox təəccüblə soruşdu:

– Molla əmi, elə dünya yaranandan bəri o öküz bu yeri buynuzunda saxlayır?

Mollanın biri ona tərəf tərs-tərs baxıb dedi:

– Bəli, məhz dünya yarandığı gündən bəri.

Hüseyn yenə soruşdu:

– Molla əmi, bəs o öküz heç bir şey yeyib-içmir?

Bu dəfə o biri molla dilləndi:

– Xeyr, o öküz Allah-Taalanın rəhmətilə dolanır?

– Bəs o öküz heç göbələk götürmür? – deyə Hüseyn soruşanda mollaların hər ikisi qıpqırmızı qızardı, bir-birilə

nəsə pıçıldaşmağa başladı. Hüseyn isə sualı sual dalınca verirdi:

– Bəs o öküz artıb-törəmir? Bəs o öküz ölmür? Öküz də bu qədər yaşarmı? O öküz nə boydadır? Bu boyda yerə öküzün necə gücü çatır?

Mollanın qəzəbli səsi Hüseyni də, camaatı da susdurdu:

– Eyyühənnas, bu kafirdir, şəriətə görə qətli vacibdir. Mən bu gücə cəddim Məhəmməd əl Mustafanı yuxuda görmüşdüm. O, mənə bunun gələcəyini irəlicədən xəbər vermiş və qətlini də vacib hesab etmişdi. Peyğəmbər Salavatullahın əmrini yerinə yetirmək hər bir müsəlmana vacibdir.

Peyğəmbərin adından söylənən əmr camaatı cuşə gətirdi. O biri molla da işə qarışdı. Ərəb dilində nəsə sözlər dedi, camaat ağlamağa başladı, yazıq Hüseyn də karıxıb durmuşdu. Birdən mollalar səs-səsə verdi:

– Eyyühənnas, bu kafiri tutun!

Hüseyni tutdular.

– Eyyühənnas, bəri çəkin!

Hüseyni irəli gətirdilər. Mollanın biri onun gözünə baxıb dedi:

– Özüdür, gecə Peyğəmbərin xəbər verdiyi məlundur və qətli vacibdir.

Mollaların təkidilə Hüseyni yastı bir daşın üstündə diri-diri odlayıb yandırdılar.

O yerə indi də "Hüseyn daşı" deyirlər.

## İSGƏNDƏR ZÜLQƏRNEYNLƏ ŞİRVAN ŞAHI

İsgəndər Zülqərneyn ölkələr ala-ala gəlib Şirvana yetişdi. Şirvan şahına xəbər göndərdi ki, bəs mən dünyanın hər yerindən xərac alıram, quşlar da, heyvanlar da mənə xərac verir. Sən gəl qan tökülməyinə razı olma, yeddi ilin bac-xəracını ver.

Bu xəbər Şirvan şahına yetişəndə o çox fikrə getdi. Vəzir-vəkilini yığıb məsləhətləşdi, hərə bir söz dedi. Axırda bir qoca vəzir var idi, o dedi:

– Şah sağ olsun. Xəzinədə bir boyda, bir çəkidə üç qızıl uşaq heykəli var. Amma hərəsinin qiyməti ayrı-ayrıdır. Gəl onları İsgəndərə göndərək. Əgər onların qiymətini dürüst müəyyənləşdirdilər – bac-xəracı verək, yox, eləyə bilməsələr, onda sovuşub keçib-getsinlər.

Şah belə də etdi. Üç qızıl heykəli İsgəndərə göndərdi.

İsgəndər öz adamlarını yığıb əmr etdi ki, diqqətlə yoxlayın, görün bu heykələrin fərqi nədədir? Vəzir-vəkil çox əlləşib-vuruşdu, heykəllərin üçünü də müayinə və müqayisə edib dedilər:

– Bunların üçü də xalis qızıldır. Nə çəkisində, nə ölçüsündə, nə də zahiri görkəmində heç bir fərq yoxdur, üçü də eynidir.

O vaxt İsgəndər Ərəstunu çağırdı və məsələni ona bildirdi. Ərəstun heykəlləri qabağına qoyub çox diqqətlə onları övür-çövür eləyəndə gördü ki, üçünün də qulağında güclə görünən xırdaca deşik var. Onda Ərəstun bir nazik məftil götürüb heykəlin birinin qulağına soxdu: məftil heykəlin ağzından çıxdı. Məftili ikinci heykəlin qulağına soxanda onun biri qulağından çıxdı. Ərəstun məftili üçüncü hey-

kəlin qulağına soxdu, lakin məftil heç yana çıxmayıb orada qaldı.

Ərəstun dedi:

– İsgəndər sağ olsun! Bu heykəllər insanların eynidir. Bax, bu birinci heykəl bir söz eşidən kimi tez bütün aləmə yayan adama oxşayır. Belə adamlara etibar etmək olmaz və qızıldan da olsa, qiyməti çox deyil. İkinci heykəl deyilən söz bir qulağından girib, o birindən çıxan adama oxşayır. Belə adamlar verilən nəsihətə qulaq asmaz, eşitdiyi sözün dalınca getməz. Ona görə bunun da qiyməti çox yüksək ola bilməz. Üçüncü heykəl isə eşitdiyi sirri qarnında saxlayan adama oxşayır. Belə adamlar ciddi və etibarlı olur. Buna görə də bu heykəlin qiyməti çox böyükdür.

İsgəndər Ərəstun dediyi kimi də elədi: heykəllərin hər birinin üstünə qiymətini yazıb şaha göndərdi.

Sabahı günü şah yeddi ilin xəracını İsgəndərə yolladı.

## ZƏRQƏLƏM TƏPƏSİ

Mahizər arvad neçə gecə idi ki, yata bilmirdi, yuxusu ərşə çəkilmişdi: gözünün ağı-qarası bircə oğlu Murad ona açıq-aşkar demişdi ki, mən xalam qızını yox, Qafar kişinini qızı Zərqələmi alacağam. Arvad çox yalvarmış, minnət eləmiş, and vermiş, inciyib-küsmüşdüsə də, Murad sözündən dönməmişdi.

İndi Mahizər arvad çox götür-qoy eləyəndən sonra bu qərara gəlmişdi ki, bir fəndlə oğlunu Zərqələmdən ayırsın; amma çifayda, nə qurd yağı sürtmək, nə aralığa ölü torpağı səpmək xeyir verməmişdi. Nəhayət, bu gecə arvad elə bil itirdiyini tapmışdı: o, Zərqələmə böhtan atmalıydı! Bu qərar

ilə arvad oğlu üçün qoruyub saxladığı yeganə qırmızıqaş üzüyünü, qırxdüymə sırğasını və ucuzbəsər boyunbağısını düyünçəyə bağlayıb həyətə çıxdı, qaranlıqda Qafar kişinin evinə yaxınlaşdı və düyünçəni qoyun damının qaranlıq bir guşəsində qamışın arasına keçirtdi.

Səhər Mahizər arvadın səsi kəndi götürdü. Arvad özünü yolub-tökür, qızıllarının oğurlandığını deyirdi. Qohum-qonşu çox axtardı, tapa bilmədilər. Mahizər dedi:

– Mən oğrumu tanıyıram. Zərqələm bilir ki, oğlum bacım qızına deyiklidir. İndi özü oğluma getmək istəyir. Bilir ki, mən razı olmayacağam. Ona görə mənə iş vurub, qızılları oğurlayıb.

Söz böyüdü, iş anda düşdü, molla gəldi, Quran gətirdi, əvvəl Mahizər Qurana əl basdı ki, qızıllar Zərqələmdədir, sonra Zərqələm əl basdı ki, bu işdən xəbərim yoxdur.

Mahizər arvad dedi:

– Oğrunun andı olmaz. Mən gedib tuğ gəzdirən gətirəcəyəm ki, oğrunu tapsın.

Arvad dediyi kimi də elədi. Gedib başqa vilayətdə yaşayan tuğ gəzdirəni tapdı, iri məblləğ pul verib düyünçənin yerini dedi. Bir neçə gündən sonra tuğ gəzdirən gəldi. O, bir qədər tuğu o qapıya, bu qapıya aparandan sonra Mahizər arvadın dediyi qayda üzrə Qafar kişinin həyətinə girib qoyun tövləsindən qızılları çıxartdı.

El qərar verdi: oğurluq etdiyinə və yalandan Qurana əl basdığına görə Zərqələm daşqalaq edilməlidir. Hərə ona bir daş atdı, qız daşların altında qalıb öldü, daşlardan bir təpə əmələ gəldi.

Mahizər arvad işin belə qurtaracağını gözləmirdi. O, ancaq oğlunu Zərqələmdən ayırmaq istəyirdi. İşi belə görəndə çığırdı:

– Ay el, ay camaat, mən böhtan demişəm, o qız günahsızdır!

El-oba bu böhtançını da daşa qalaq elədi.

O təpəyə indi də "Zərqələm təpəsi" deyilir.

## NAĞARAXANA

Şamaxıya ipək parça gətirmiş iki qardaş Multan (Hindistan) tacirinin biri xəstələnib öldü. O, meyidi Hindistana apara bilməzdi, öz adətləri üzrə yandırıb külünü aparmalı idi. Lakin adətə görə qardaşın meyidi ilə birlikdə ona o dünyada xidmət etmək üçün bir qadın da yandırılmalı, yandırılma mərasimi bütpərəst qaydasınca keçirilməli idi.

Tacir çaş-baş olub qalmışdı: müsəlman ölkəsində özünü yandırmağa razı olan bir qadını necə tapmalı və bu mərasimin keçirilməsinə icazəni nə yolla almalı?

Nəhayət, iri məbləğ pul öz işini gördü: yandırılmaq üçün bir xaçpərəst qadın tapıldı və mərasimin şəhərdən on-on iki km aralıda, dağda keçirilməsinə icazə alındı. Tacir əlli nağara çalan tapdırdı, irəlicədən tonqal hazırlatdırdı, sabahüzü nağaraçıları, meyidi və tonqal yandıranları götürüb yola düşdü. Yandırılası qadın hələ gecə ikən aparılmışdı.

Dağda, geniş, hamar bir yerdə quru şax budaqlardan iri bir tonqal düzəldilmişdi. Tacir qardaşının meyidini tonqalın lap üstündə, qadını isə onun ayaq tərəfində yerləşdirdi. Qadın öz razılığı ilə gəlsə də, üç yerdən zəncirlə bağlanmışdı. Üzü örtülü olduğu üçün yaşı və kimliyi bilinmirdi.

Əlli nağaraçı tonqalı dövrəyə alıb işarə gözləməyə başladı. Tonqal yandıranlar tonqala dörd yerdən od vurdular. Tacir işarə verdi, nağaraçılar nağaraları çalmağa başladı. Onlar çox ucadan çalırdılar, səs-küy hər yanı bürümüşdü. Lakin buna baxmayaraq yenə də yandırılan qadının tük ürpədici səsi eşidilirdi. Tacirin işarəsilə nağaralar daha bərkdən gurladı: qadının səsi isə eşidilirdi. Nəhayət, nə tonqal yandıranlar, nə də nağara çalanlar bu mənzərəni görə, bu səsi eşidə bilməyib tonqalın yanından çəkilib getdilər.

O vaxtdan bəri bu vilayətlərdə çox zülmkar adama "moltanı" deyirlər. Bu mərasimin keçirildiyi yerə və orada düşmüş kəndə Nağaraxana deyilir.

## MOLLABATAN

Bir kənddə çoxlu siçan əmələ gəlir. Onlar anbarlardakı dəni, evlərdəki pal-paltarı, çöllərdəki ot və taxılı yeyib qurtarırlar. İş o yerə çatır ki, siçanlar süfrələrə də daraşır. Camaat mollanın yanına gedib deyir:

– Ay molla, biz səni və ailəni yedirib-içirdirik, sən də bizi bu siçanlardan xilas elə.

Molla baxıb görür ki, əgər bir çarə tapmasa, daha camaat bunu yedirib saxlamayacaq. Ona görə durub kənddən çıxıb şəhərə tərəf gedir ki, bəlkə soraqlaşıb bu dərdə bir çarə tapsın. Yolda bir kasıba rast gəlir. Oturub söhbətləşirlər. Molla dərdini danışanda kasıb deyir:

– Əgər mənə yüz qızıl versələr, mən o siçanların hamısını məhv edərəm.

Molla sevincək razı olur və kasıbı da götürüb geri qayıdır. Kişini evdə qoyub ağsaqqalların yanına gedir və de-

yir ki, siçanları qovmağın çarəsini tapmışam. Amma gərək yüz qızıl verəsiniz. Ağsaqqallar tez pulu toplayıb verirlər. Molla pulu alıb evə qayıtdı və kasıba dedi:

– Pul hazırdır. Gecə ikən işə başla.

Kasıb cibindən bir tütək çıxardıb çalmağa başladı. O saat bütün siçanlar dam-daşdan, yuvalardan çıxıb kişinin yanına qaçdı. Kasıb tütəyi çala-çala çaya tərəf getdi, siçanlar da onun dalınca axışdı. Kişi çayın içinə girdi, siçanlar da suya tökülüb qırıldı.

Molla bunu görüb öz-özünə dedi:

– Yaxşı, siçanlar qırıldı. Bunu da heç kim görmədi. Mən bu kasıba yüz qızılı niyə verim?

Kasıb çaydan çıxıb molladan qızılları istədi. Molla vermədi. Onda kasıb tütəyi təzədən çalmağa başladı: mollanın arvadı və uşaqları evdən çıxıb mollanın yanına qaçdılar.

Kasıb başqa bir hava çaldı: molla və arvad-uşağı düşdülər kasıbın dalınca. Kasıb tütəyi çala-çala girdi çaya, molla və arvad-uşağı da özlərini saxlaya bilmədilər, çaya girib boğulub-batdılar.

O vaxtdan həmin yerə "Mollabatan" deyirlər.

## MİS QAZAN

Bir kasıbın evinə qonaq gəlmişdi. Xörək bişirməyə qazanı yox idi. Qonşuya gedib əmanət bir qazan istədi. Qonşu çox səxavətli adam idi. Qazanı verib dedi:

– Ay qardaş, qazanı sənə bağışlayıram, daha qaytarma. Bu bir toyuğu da verirəm, kəs, bişir, qonağını yola sal.

Kasıb razılıq eləyib evə gəldi. Qonağı üçün xörək bişirib yola saldı. O gündən işi avand oldu: hara getdi, pul, qı-

zıl tapdı, əkdiyi birə-beş məhsul verdi, aldığını ucuz, satdığını baha sata bildi. Var-dövlət üstünə töküldü. Beş-altı ilə dövlət sahibi oldu.

Səxavətli qonşu isə qazanı kasıba bağışlayan gündən kasıbladı, işi əydi: məhsulu azaldı, əkdiyi bitmədi, mal-heyvanı qırıldı, axırda baş götürüb eldən-obadan çıxdı ki, qoy heç kim mənim əli aşağı düşməyimi görməsin. Lakin başqa yerlərdə vəziyyəti lap pisləşdi, iş o yerə gəldi ki, qapı-qapı dilənib pay yığmalı oldu. Bu kişi dilənçi vəziyyətində öldü. Amma oğluna vəsiyyət elədi ki, bala, bəs bizim əslimiz filan yerdəndir, get ora, nə təhər olsa, qurd öz örüşündə ac qalmaz.

Oğlan bir neçə ildən sonra üzgün vəziyyətdə gəlib atasının obasına çıxdı, qapı-qapı gəzib vaxtilə atasının qazan bağışladığı adamın evinə gəldi.

Bu şəxs indi çox varlı və səxavətli idi. Nökər xəbər verdi ki, bəs, ağa, bir kasıb, xəstə cavan pay istəyir. Ev sahibi dedi:

– Çağır gəlsin içəri.

Oğlan içəri gəldi. Ev sahibi ona çay-çörək yedirtdi. Sonra kimliyini soruşdu. Oğlan dedi ki, bəs mənim atam elə bu obadandır, adı da filankəsdir, işi əydiyi üçün buradan köçüb, qürbətdə öldu.

Ev sahibi onun ruhuna bir "Fatihə" surəsi oxuyandan sonra ayağa durub o biri evə keçdi. Vaxtilə qonşusunun ona bağışladığı qazanı qızılla doldurdu, gətirib oğlana verdi. Oğlan təəccüblə soruşdu:

– Ay əmi, bu qədər də səxavət, qıyım olar?

Ev sahibi dedi:

Əzizim mis qıyana,
Qurbanam mis qıyana.
Qızıl-gümüş qıyaram,
Vaxtında mis qıyana.

## TUĞLA HƏQİQƏT...

Toyun şirin vaxtı idi. Bəyi tərifə gətirmişdilər. Gecədən xeyli keçməsinə baxmayaraq aşıq tərifi qurtarmaq bilmirdi. Qız-gəlin təzə gəlini də özləri ilə götürüb camaata qarışmış, toyxananın dal tərəfinə vurulmuş xalça-palazın arasından məclisə baxırdı.

Bəy otağında təkcə yengəlik edən ağbirçək Qızlarxanı qarı qalmışdı. Onu yuxu tutmuş, başını təzə asılmış gəlin pərdəsinin ayağına qoyub yatmışdı.

Birdən başqa kənddən toya gəlmiş, lakin peşəkar oğru olan bir kişi içəri girdi, aranı xəlvət, qarını yatmış görüb otağa əl gəzdirdi; gəlin üçün alınmış ipək paltarları, qızıl-gümüşü gecə ikən götürüb aralıqdan çıxdı.

Bir qədərdən sonra tərif qurtardı, qız-gəlin bəy otağına qayıtdı. Hamı gəlini içəri salıb getdi. Bu vaxt gəlin baxıb gördü ki, paltarları və qızılları yoxdur. Səs düşdü, kənd bir-birinə dəydi, dedilər: avadanlığı Qızlarxanı qarı özü oğurlayıb. Qarı nə qədər and içib, aman elədisə də, ona qulaq asan olmadı. İş beləcə yengə arvadın üstündə qaldı.

Tezliklə, məhərrəmlik təziyəsi başlandı. Belə vaxtlarda molla tuğ gəzdirir və itmiş şeylərin yerini deyirdi. İtiyə düşmüş ailə tuğ gəzdirən mollaya əhvalatı danışdı və oğrunu tapmasını xahiş etdi.

Molla tuğu götürüb gəzdirdi və tuğla birlikdə Qızlarxanının üstünə gəldi. Arvad ha and içdi, heç kim inanmadı. Daha tuğ yalan deməyəcəkdi ki…

Oğurluq Qızlarxanının boynuna gəldi: indi əvvəllər şübhəli olanlar da inandı.

Aradan üç il keçdi. Avadanlığı aparmış oğru öz kəndlərində bərk xəstələndi və ölüm ayağında ağsaqqalları çağırıb dedi:

– Üç il bundan əvvəl mən toy gecəsi Qubalı kəndindən qızıl və paltar gətirmişdim. Oğurluq bir qoca arvadın üstünə qoyulub. İndi ölürəm, həmin avadanlıq boxçasıynan sandıqdadır, açın, gözüm görə-görə aparıb yiyəsinə qaytarın, o qoca arvaddan halallıq alın.

Avadanlığı Qubalıya gətirdilər. Camaata səs düşdü. Hamı Qızlarxanı qarıya gözaydınlığı verdi. Amma o, dedi:

– Siz mənə yox, o dügələbaz mollanın oynatdığı bir parça dəmirə inandınız. İndi görürsüz ki, tuğ yalan deyib. Mən bundan sonra belə dinə etiqad etməyəcəyəm. Bir Allah ki, üç il həqiqəti açmaya, məni rüsvay eləyə, mən nə onun namazını qılacağam, nə orucunu tutacağam, nə də ona "var" deyəcəyəm.

Qarı ölənə kimi belə də elədi. O vaxtdan həmin kənddə tuğa inanan yoxdur.

## GƏLİN QUŞU

Mərcanı təzəcə gəlin otağına gətirmişdilər. Qız-gəlin gəlin pərdəsini asıb qızı onun dalında oturtdular. Mərcanı yengəyə tapşırıb özləri toyxanaya yüyürdülər.

Mərcan rahat nəfəs aldı: "Allah, sənə şükür. Yaxşı ki, Mehdiqulu bəy mənə nə evdə, nə də bura gətiriləndə toxunmadı. And içmişdi ki, qoymaram Rüstəmə qismət olasan. Şükür ki, düşündü, ağla gəldi". Qız elə bunu fikirləşirdi ki, Mehdiqulu bəy içəri soxuldu, yengənin ağzına dəsmal bağlayıb yerə yıxdı, əl-ayağını sarımağa başladı. Mərcan çit pərdənin dalından bunu görür və eşidirdi. Qız nə edəcəyini bilmədi, əlacı, ümidi hər yerdən kəsilmişdi. Dedi:

– Allah, məni quş elə, uçum, bu zalımın əlinə düşüb rüsvay olmayım.

Qız o saat dönüb bir quş oldu və pırr eləyib açıq pəncərədən uçub getdi.

O vaxtdan gəlin kimi bəzəkli olan o quşa "Gəlin quşu" deyirlər.

## KƏMALƏDDİN DAĞI, İNCƏBEL YASTANASI

Köçəri elatlar yaylağa qalxırmış. Bir kasıb kişinin gözəl bir qızı var imiş. Bu qız zərif əndamlı, incə belli bir gözəlmiş. Hamı ona İncəbel deyərmiş. Bu qızın Kəmaləddin adlı bir sevgilisi varmış. El yaylağa qalxanda Kəmaləddin İncəbeli götürüb qaçır. Bunlar dağın üstündə bir dəstə quldura rast gəlirlər. Quldurlar Kəmaləddini sicimlə daşa bağlayır, qızı əlindən alıb yola düzəlirlər. Qız çox ağlayır, yalvarırsa da, ona qulaq asmırlar. Qızı quldurun birinin tərkinə mindirirlər. Qız görür ki, yox, əli hər yerdən üzülüb. Odur ki, ucadan ağlayıb deyir:

Su gəldi arxa haray.
Töküldü çarxa haray.

Yağı məni aparır,
Çağırram arxa, haray.

Kəmaləddin qızın səsini eşidir, ha güc vurur, sicimi qıra bilmir, əlacı kəsilir, ucadan deyir:

Əzizinəm, başa mən,
Kipriyə mən, qaşa mən.
Yarım əlimdən getdi,
Nöş dönmədim daşa mən?

Elə bu bayatını deyəcəyin, oğlan dönüb bir dağ olur. İncəbel bir də dala baxır, görür ki, bəs oğlanın yerində bir dağ əmələ gəlib. O saat işi başa düşür, deyir:

– Allah, məni yarımdan ayırma. O necə, mən də elə.

Bunu deyən kimi İncəbel torpaq olub atdan yerə tökülür, dərəni doldurur.

O vaxtdan o dağa Kəmaləddin, o yastanaya İncəbel deyilir.

## MƏLƏK BULAĞI

Mələk çox gözəl-göyçək bir qız idi. Özü də yetim idi. O kənddə Nəsib adında bir oğlanı sevirdi. Yaxın vaxtlarda toyları olacaqdı. Nəsib güc-bəla ilə pul toplayıb, toy elədi. Qonşu kəndin sahibi Mürsəl bəy də toya gəlmişdi.

Gəlin gələn vaxtı atdan düşürdüləndə nə təhər oldusa, Mürsəl bəy onu gördü. O, qıza aşiq oldu. Öz yanındakı yoldaşlarına dedi ki, gərək mən o qıza sahib olam. Yoldaşları çox dedi, bu az eşitdi.

Axşam oldu. Nəsibi tərif etmək üçün toyxanaya gətirdilər. Aşıq elə birinci kəlməni demişdi ki, bəy yerindən qalxıb Nəsibi güllə ilə vurub öldürdü. Qarışıqlıq düşdü. Bəy aradan çıxdı və fürsətdən istifadə edib qızı da evinə apardı. Mələk çox ağladı-yalvardısa da, nəticəsi olmadı. Bəy onu buraxmadı. İki-üç gündən sonra yığıncaq elədi. Çalan-çağıran gəldi. Mələyi geyindirib pərdənin dalında oturtdular.

Mələk bir bəhanə ilə yengə arvadla evin dalına çıxdı. Orada arvaddan soruşdu:

– Ay nənə, Nəsib necə oldu?

Arvad cavab verdi ki, bəs Nəsibi yumamış, kəfənə tutmamış, pallı-paltarlı basdırdılar.

Mələk ağlaya-ağlaya dedi:

– Ay Allah, axar bulaq olaydım, axıb Nəsibin qəbrinə töküləydim.

Qız bu sözü deyən kimi dönüb bulaq oldu.

O vaxtdan bəri həmin bulağa "Mələk bulağı" deyirlər.

## QANLI GÖL

Qədirin övladı olmurdu. Gözəl, cavan arvadı Mina ilə razılaşıb Saray adlı bir gəlinlə evləndi. Bunlar çox mehriban dolanırdılar. Ay keçdi, il dolandı, Sarayın bir oğlu oldu, adını Murad qoydular. Mina da, Saray da Muradı göz bəbəyi kimi qoruyurdu. İllər ötdü, Uşaq böyüyüb yeddi yaşına çatdı. Bir gün Mina gölə paltar yumağa getdi. Murad da ondan əl çəkməyib getdi. Orada Minanın başı paltara qarışdı, bir də sərvaxt olub gördü ki, uşaq yoxdur. Çox çağırdı, hər yanı axtardı – uşaq yoxa çıxmışdı. Onda Mina başa düşdü ki, uşaq göldə batıb. Haray-həşir saldı. Səsə əri

yetişdi. Uşağın batdığını eşitcək, Minanın üstünə atılıb onu boğmağa başladı:

– Namərdin qızı, deməli, axırı ki, günülüyünü bildirdin, balamı öldürdün.

Mina nə illah elədisə də, kişinin əlindən çıxa bilmədi. Qədir onu boğa-boğa gölün yanına çəkdi və itələyib suya saldı. Mina suda boğulub öldü. Bu vaxt haraya Saray yetişdi. O, Minanı suya batan görüb özünü gölə atdı. Lakin üzmək bilmədiyi üçün o da suya boğuldu.

O vaxtdan bəri bir gündə üç qan eləyən o gölə "Qanlı göl" deyirlər.

## DOST

Bir xanın Firuz adlı bir sərkərdəsi var idi. Xan onunla bərk dost idi. Bir gün bu xanın torpaqlarına basqın oldu. Vuruşma zamanı Firuz öldürüldü, xeyli ərazi əldən getdi. Xan çox fikir eləyirdi. Vəzir soruşdu:

– Ey xan, de görüm, nəyin fikrini çəkirsən, əldən gedən torpaqların, yoxsa Firuzun?

Xan dedi:

– Əldən getmiş torpaqları geri qaytarmaq mümkündür, əldən getmiş dostu isə yox. Firuz mənim dostum idi. Dost isə oxuyub öyrəndiyin vaxt – müəllim, dərdini, sirrini demək istəyəndə – ürək, arzularını yerinə yetirmək üçün — lələ, təhlükəli vaxtlarda – etibarlı qalaça, xəstələnib yatağa düşəndə – həkim, dar gündə – köməkçi, əlin aşağı olanda – xəzinə, göz yaşın axanda – dəsmaldır. Firuz mənim belə bir dostum idi. Bunun müqabilində əldən getmiş torpaqlar üçün dərd çəkməyə dəyərmi?

## TƏPƏLƏR

Ərəblər bu yerlərə hücum etmişdilər. Onların qoşunu əhalini soyub-talayır, incidib-öldürürdü. Yerli əhali bunların əlindən cana doymuşdu. Nəhayət, camaatın qəzəbi coşdu; el birləşdi, igidlər silah götürdü, gecə ikən ərəblərin düşərgəsinə hücum etdilər. Ərəblərin hamısını öldürdülər. Ölənləri üç topa üst-üstə qalaq vurdular, səhərə kimi hər topanı ayrıca torpaqlayıb təpə düzəltdilər.

O vaxtdan onlara "Təpələr" deyilir.

## DOST DOSTUN GÖZÜNDƏ YAŞAYIR

Əlibala adlı öir şəxs uzun müddət Nuru adlı birisi ilə dostluq etdi. Sonra belə oldu ki, Nuru köçüb başqa şəhərə getdi. Onlar uzaqdan-uzağa olsa da, bir-birini əvvəlki kimi sevir, dostluq edirdilər.

Bir gün Əlibala evdə oturmuşdu, həyətdən qonşusu onu səslədi:

– Ay Əlibala, gəl birlikdə çay içək.

Əlibala:

– Gəlirəm, – deyə ayağa dururdu ki, dostu Nuru yadına düşdü. Ayaq üstə dayanıb xəyalən Nuru ilə danışmağa başladı. Əvvəl ürəyində, sonra isə bərkdən danışırdı. Sən demə, qonşu gözləməkdən yorulub qapıya gəlibmiş, Əlibalanın öz-özünə danışmağını görüb dayanıb qulaq asırmış. Axır qonşu dözə bilməyib dedi:

– Əlibala, kimiynən danışırsan?

Əlibala elə bil yuxudan ayıldı. Fikri dağıldı, dedi:

– Dostum Nuru ilə.

– Məgər sən Nurunu görürdün? – deyə qonşu təəccübləndi.

– Bəli, hətta səni gördüyümdən aydın görürdüm, – deyə Əlibala cavab verdi.

– Əlibala. Adam da uzaqda yaşayan adamı görə bilərmi? – deyə qonşu soruşdu.

Əlibala ah çəkib dedi:

– Qonşu, dost dostun gözünün içində yaşayır. Gözünü açdınmı – onu görürsən.

## SARA

Mahmud adlı bir kişi Qacarın bir əsgərini öldürdüyü üçün onu boğazdan asılmağa məhkum etdilər. Sabahı gün asacaq idilər. Bunun Sara adlı bir qızı var idi. Qız olduqca gözəl, ağıllı, namuslu idi və atasını da çox istəyirdi.

Sara atasının saxlandığı yerə gəlib qapıçıya yaxınlaşdı və dedi:

– Al mənim bütün qızıllarımı, atamı burax, qaçıb getsin.

Qapıçı bunun qənirsiz gözəlliyinə aşiq olub dedi:

– Mənə qızıl gərək deyil, özün gərəksən. Əgər özün səhərə kimi mənimlə qalsan, atanı buraxaram.

Sara çox yalvardı, qapıçı yola gəlmədi. Sara gördü ki, gecə keçir, əlacsız qalıb razılaşdı. Qapıçı qapını açıb kişini buraxdı.

Mahmud kişi uzaqlaşandan sonra Sara dedi:

– Hə, indi məni öldür, de ki, atasını qaçırdanda vurdum. Amma sən deyənə razı olan deyiləm.

Qapıçı çox yalvardı, Sara razı olmadı. Axırda qapıçı onu vurub öldürdü.

## ÇANAQLI BAĞA

Bir gözəl gəlin evdə teştin içində çimirmiş. Birdən görür ki, qayınatası içəri girdi. Gəlin həyasından səsini çıxara bilmir. Yanındakı başqa bir teşti üstünə çəkir, yavaşca deyir:

– İlahi, sən özün məni bu rüsvayçılıqdan xilas elə.

Həmin dəqiqə teştlər dönüb qın olur, gəlinin üstünü örtür və gəlin çanaqlı bağaya çevrilir.

## DƏDƏGÜNƏŞ

Xaqaninin əmisi Kafiyəddin Ömər Osman oğlu məşhur alim – həkim olmuş, yerli əhalini pulsuz-pənəsiz müalicə etmiş, hamının hörmətini qazanmışdı. Onun əli çox yüngül, şəfalı, dərmanı düşərli olurmuş. O, günəşin müalicəvi xüsusiyyətini təbliğ edir və ondan müalicə vasitəsi kimi istifadə edərmiş.

Bu alim şəxs ölərkən onu özünün iqamətgahının yaxınlığında, gün düşən bir yamacda dəfn edirlər. Onun dəfn edildiyi yerə xalq "Dədəgünəş", yəni "günəşin atası" adını verir.

Sağlığında insanların xəstəliklərinin çarəsini tapmış Ömər Osman oğlu öləndən sonra da xalq onun qəbrindən şəfa almaq üçün bura – qəbri üstünə gəlmişdir. Sonralar bu məqbərə dini pir kimi qiymətləndirilir və "Dədəgünəş" piri adlandırılır.

1937-ci ildə Ömər Osman oğlunun gözəl memarlıq abidəsi olan məqbərəsi pir kimi dağıdılır. Lakin onun uçurulmuş xarabalığına indi də ziyarətə gedənlər vardır.

Əsl alimin – həkimin qəbrini ziyarət etmək qəbih iş deyil.

## ZARAFAT ZƏRİF OLMALIDIR

Lənkəranda Rizvan və Müslü adlı iki dost yaşayırdı. Hər ikisi çox zarafatcıl idi, bir-birini də hədsiz istəyirdilər. Amma zarafatdan sınan deyildilər. Zarafatla bir-birinin çayına duz, istiot, dərman, xörəyinə torpaq, daş, dəmir xırdası, qurd və s. atardılar.

Bir gün nahar vaxtı Rizvan Müslümün evinə gəlir. Müslum onun çayına tökmək üçün əl atıb rəfdəki stəkanda olan pis qoxulu dərmanı götürür. Ondan bir-iki damcı çaya töküb Rizvana verir. Rizvan çayı içən kimi ölür.

Sən demə stəkandakı maye zəhər imiş.

## ZÜLEYXAYLA İSLAM

Dərbənd valisi İslam Züleyxa adlı bir gözələ aşiq olub, onu zorla alıb evinə gətirmişdi. Züleyxanın isə İslamdan zəhləsi gedirdi. O, valinin nəzərindən düşmək və onu özündən kənar etmək üçün ac-susuz qalıb arıqladı, əl-üzünü yumadı ki, çirkin görünsün, cırıq paltar geydi ki, dilənçiyə oxşasın, saçını daramayıb özünü divanəyə bənzətdi, sarımsaq yedi, üstünə pis qoxulu şeylər sürtdü ki, İslam ondan uzaq dursun.

Hamı Züleyxadan üz döndərdi, amma İslam onu daha artıq sevməyə başladı.

İş belə olduqda Züleyxanın anası ona dedi:

– Sən özünü bu pis kökə salmaqla ancaq başqalarının nəzərindən düşürsən. İslam isə səni sevdiyi üçün nə cür şəklə düşsən də, səndən üz döndərməyəcək, çünki onun eşqi həqiqidir, sənin zahirini deyil, batinini sevir.

## LOĞMAN

Bir məclisdə pis xasiyyətli adamlardan söz düşdü. Hərə öz tanıdığı pis xasiyyətlilərdən danışdı. Loğman da bir nəfərin adını çəkdi.

Dedilər:

– Ey Loğman, amma o şəxs səni çox istəyir, həmişə səni tərifləyir.

Loğmanın üzü bulud kimi tutuldu, çox bikef oldu.

Dedilər:

– Ey Loğman, niyə bikef oldun?

Dedi:

– Gör məndə necə pis xasiyyətlər var ki, elə bir adam məni sevir. Əgər yaxcşı olsaydım, pis məni sevməzdi. İnsan ancaq öz xasiyyətinə uyuşan adamı sevə bilər.

## QIZLAR QUŞU

Üç gözəl-göyçək, namuslu-ismətli qız gediş-gəliş yolundan uzaq bir yerdə xırdaca dağ gölündə çimirdi. Birdən üç nəfər cavan oğlan gölün sahilinə gəlib çıxdı. Onlar qızların göldə çimdiyini görüb onların paltarlarını götürdülər. Qızlar gölün lap ortasına kimi aralanıb dedilər:

– Amandır, qardaşlar, siz Allah, paltarımızı yerə qoyun, özünüz də çəkilib gedin, qoyun çıxıb geyinək, evimizə gedək.

Oğlanlar cavab verdi ki, elə o qaydada qırağa çıxın, onsuz da biz sizi buraxası deyilik. Gəlin qırağa, bir qədər vaxt keçirək, sonra geyinib gedərsiniz. Qızlar çox yalvardı,

oğlanlar qulaq asmadı. Qızların əlacı əksildi, Allaha yalvardılar:

– Xudaya, bizi quş elə, bu daşa dönmüşlərin əlindən qurtar!

O saat qızlar quş olub uçdu, oğlanlar da daş olub suyun qırağında qaldı.

O vaxtdan həmin quşlara "Qızlar quşu" deyilir.

## ÇIRAĞI SÖNƏN KİŞİ

Bir kişinin cavan oğlu qəflətən ölmüş, gözəl gəlini ilə tək qalmışdı. Gəlin, qayınatasına çox böyük ehtiramla yanaşır, qulluğunda dururdu. Beləliklə, bir müddət keçdi. Gəlini çox istəyənlər oldusa da, getmədi.

Bir gün gecədən xeyli keçmiş kişi yerindən durub gəlinin yerinə girdi. Gəlin oyandı və yalvarmağa başladı ki, sən mənim atamsan, gəl məni rüsvay eləmə. Kişi qulaq asmadı, zorla öz məqsədinə nail olmaq istədi. Onda gəlin dedi:

– Heç olmazsa, çırağı söndür, qoy qaranlıq olsun, üzüm üzünü görməsin.

Kişi razılaşmadı. İşi belə görən gəlin hirsindən boğula-boğula dedi:

– İlahi, məni bu rüsvayçılıqdan qurtar!

Gəlin o saat quş oldu, pırıltı ilə uçdu, qanadı ilə vurub çırağı söndürüb, uçub getdi.

O vaxtdan sonra o kişi ölənə kimi hər gün axşam çıraq yandırır və hər gün də həmin quş gəlib qanadı ilə vurub onun çırağını söndürürdü.

# SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

**Əfsanə və rəvayətlər**

*Gavuryaran.* Söyləyənləri: İbadova Roza, Ağayev Əbülhəsən və Rəhimov Xeyransa (Qazıməmməd rayonu, Tava kənd sakinləri), 1957-ci il.

*Ağamurad yeri.* Söyləyəni: Quliyev Hacı, 76 yaşında (Şamaxı rayonu), 1949-cu il.

*Dördlər piri.* Söyləyəni: İsmayılova Gülyaxa, 86 yaşında (Şamaxı rayonu, Ağdərə kəndi), 1949-cu il.

*Güllübatan.* Söyləyicilər: Xudaverdiyev Mustafa, 69 yaşında (Göyçay rayonu, Qaraməryəm kəndi), Nuralıyeva Xeyransa, 75 yaşında (Göyçay rayonu, Qaraməryəm kəndi), 1950-ci il.

*Ağlayan dağ.* Söyləyəni: Səməndərov Mehdi, 82 yaşında (Mərəzə rayonu, Nabur kəndi), 1949-cu il.

*Yetimlər.* Söyləyəni: Osmanov Sahib, 81 yaşında (Qonaqkənd rayonu, Zöhrabkənd kəndi), 1949-cu il.

*Sənəm bulağı.* Söyləyəni: Səfiyev Şahgəldi, 87 yaşında (Qonaqkənd rayonu, Xaltan kəndi), 1949-cu il.

*Qanlı qaya.* Söyləyəni: Səlimov Abbasalı, 86 yaşında (Mərəzə rayonu, Hilmili kəndi), 1957-ci il.

*Lalə əfsanəsi.* Söyləyəni: Quliyev Hacı, 76 yaşında (Şamaxı rayonu),1949-cu il.

*Şəhidlər.* Söyləyəni: İbadov Rəşid, 84 yaşında (Mərəzə qəsəbəsi), 1949-cu il.

*Dəli pilpilə.* Söyləyəni: Xasməmmədova Gülyetər, 77 yaşında (Şamaxı rayonu, Quşçu kəndi).1950-ci il.

*Zöhrab qalası.* Söyləyəni: Qarayeva Yaxşıxanım, 82 yaşında (Qonaqkənd rayonu, Zöhrabkənd kəndi), 1949-cu il.

*Qırxlar gölü.* Söyləyəni: Əbdülsəlimov Əbdülvahab, 76 yaşında (Quba şəhəri), 1957-ci il.

*Diri qəbristanı.* Söyləyəni: Kərbəılayi Niyaz İbrahimov, 88 yaşında (Şamaxı rayonu), 1959-cu il.

*Qız daşı.* Söyləyəni: Kərbəlayi Müslüm Mirzəyev, 90 yaşında (Şamaxı şəhəri).1957-ci il.

*Canlı divar.* Söyləyəni:İsmiyeva Nurxanım,72 yaşında (Şamaxı şəhəri).1960-cı il.

*Səfi qazmağı.* Söyləyəni: Kərbəlayi Murad Cəfərov, 81 yaşında (Ağsu qəsəbəsi), 1959-cu il.

*Yeddi qurban.* Söyləyənlər: Hüseynova Bəsti, 68 yaşında (Sabirdad rayonu), Yusifov Hüseynağa, 74 yaşında (Sabirabad rayonu), 1963-cü il.

*Nazlı əfsanəsi.* Söyləyənlər: Səməd Eyvazov, 87 yaşında (İsmayıllı qəsəbəsi), Əziziova Gülnisə, 75 yaşında (İsmayıllı qəsəbəsi),1960-cı il.

*Göyün qəzəbi.* Söyləyəni: Ağayeva Sima, 71 yaşında (Bakı şəhəri), 1950-ci il.

*Salxım söyüd.* Göyçay, 1958-ci il.

*İsgəndərlə dul arvad.* Bakı şəhəri, 1950-ci il.

*Səməndər əfsanəsi.* Söyləyəni: Qurbanov Ziyəddin, 58 yaşında (Salyan rayonu), 1952-ci il.

*Dəfnə yarpaqları.* Söyləyəni: Dadaşov Ağamirzə, 60 yaşında (Salyan rayonu), 1952-ci il.

*Oğul piri.* Mərəzə rayonu, Ərəbşahverdi kəndi. 1948-ci il.

*Qarı körpüsü.* Qazıməmməd rayonu, Qubalı Baloğlan kəndi. 1948-ci il.

*Koroğluyla Kür.* Söyləyəni: Ələsgərova Qəmzə, 65 yaşında (Sabirabad rayonu), 1957-ci il.

*Axundlar.* Söyləyəni: Seyfullayev Səfər, 59 yaşında (Quba şəhəri), 1949-cu il.

*Zəncirli dağ.* Söyləyəni: Qazıyev Sadıq, 63 yaşında (Qonaqkənd qəsəbəsi),1949-cu il.

*Hatəm.* Söyləyəni: Mədədov Əhməd, 68 yaşında (Bakı şəhəri), 1950-ci il.

*İsgəndərin meymunlarla davası.* Söyləyəni: Ağayev Şərəfalı, 74 yaşında (Bakı şəhəri), 1950-ci il.

*Natəvanla ceyran.* Söyləyəni: Məmmədov Mirzəağa, 61 yaşında (Şuşa şəhəri), 1958-ci il.

*Ara qılınc.* Qazıməmməd rayonu, Tağılı kəndi, 1950-ci il.

*Daş oğlan.* Söyləyəni: Öмərov Dadaş, 82 yaşında (Quba şəhəri), 1949-cu il.

*Mustafa xan.* Söyləyəni: Gülalıyeva Nisə, 76 yaşında (Şamaxı şəhəri), 1951-ci il.

*Haramı dağı.* Qazıməmməd rayonu, Şorbaçı kəndi. 1950-ci il.

*İsgəndərlə Dara.* Bakı şəhəri, 1950-ci il.

*Apardı sellər Sarayı.* Söyləyəni: Əliyeva Minəbəyim, 74 yaşında (Şamaxı şəhəri), 1951-ci il.

*Şah İsmayılla bağban.* Əslən Ərdəbildən olanlardan toplanıb (Şamaxı şəhəri), 1951-ci il.

*Qazıyanan.* Söyləyəni: Vəliyev İsabala, 76 yaşında (Şamaxı şəhəri), 1962-ci il.

*İsgəndərlə falçı.* Söyləyəni: Kərbəlayi Şahbala Həsənov, 81 yaşında (Bakı şəhəri), 1950-ci il.

*Atlar.* Qonaqkənd rayonu, Xaltan kəndi, 1948-ci il.

*Məryəm noxudu.* Qazıməmməd rayonu, Cəngən kəndi, 1952-ci il.

*Qaçaq Nəbinin kəndliyə ev tikməsi.* Qubadlı rayonu, Əfəndilər kəndi, 1960-cı il.

*Diri baba.* Mərəzə rayonu, Nəriman kənd kəndi, 1949-cu il.

*Qazının əməli.* Saatlı rayonu, Qıraqlı kəndi, 1963-cü il.

*Pir Hüseyn.* Qazıməmməd rayonu, Qubalı Baloğlan kəndi, 1949-cu il.

*İki ana.* Söyləyəni: Davudov Soltan, 58 yaşında (Bakı şəhəri), 1950-ci il.

*Qanlı qala.* Söyləyəni: Miriyev Misirxan, 69 yaşında (Dərbənd şəhəri), 1961-ci il.

*Cavanşir.* Ağsu rayonu, Cavanşir kəndi, 1948-ci il.

*İsgəndərin qarıdan vergi alması.* Söyləyəni: Rəcəbova Xeyrənsə, 72 yaşında (Bakı şəhəri), 1948-ci il.

*Yazılı daş.* Söyləyəni: Quliyev Hacı, 60 yaşında (Şamaxı şəhəri), 1957-ci il.

*Dəli dağ.* Mərəzə rayonu, Qurbançı kəndi, 1952-ci il.

*Maral gölü. Yengəyanan.* Söyləyəni: Osmanov Osman, 70 yaşında (Qusar şəhəri),1962-ci il.

*Qırx qızlar.* Söyləyəni: Hüseynov Hüseynağa, 68 yaşında (Bakı şəhəri), 1949-cu il.

*Kimin əli gözəldir?* Söyləyəni: Rəhimova Ayxanım, 74 yaşında (Göyçay rayonu), 1957-ci il.

*İsgəndərin Şirvana gəlməsi*

Söyləyəni: Qəribova Suma, 66 yaşında (Şamaxı şəhəri), 1951-ci il.

*İsa-musa quşu.* Ağsu rayonu, Cuğurlu kəndi, 1948-ci il.

*Dəyirmançı bulağı.* Şamaxı şəhəri, Padar elatı, 1947-ci il.

*Allahu-əkbər dağı.* Şamaxı şəhəri, Kolanı elatı, 1947-ci il.

*Füzuliylə Xızır.* Söyləyəni: Səfərov Hacıqulu, 74 yaşında (Şamaxı şəhəri), 1951-ci il.

*Düzlük yaxşı şeydir.* Söyləyəni: Qurbanova Ziyarət, 64 yaşında (Şuşa şəhəri), 1958-ci il.

*Keşmədin dərəsi.* Şamaxı rayonu, Qələybuğurt və Keşmədin kəndləri, 1951-ci il.

*Kəklik. Gəlin qalası.* Mərəzə rayonu, Nabur kəndi, 1949-cu il.

*Şeyx Zahid piri.* Səlyan rayonu, Noxudlu kəndi, 1949-cu il.

*Yeddi məzar.* Söyləyəni: Hüseynova Ağabəyim, 61 yaşında (Şamaxı şəhəri, Şərəbil kəndi), 1950-ci il.

*Şexeyubla Pərnaz.* Söyləyəni: Səfərov Ağabala, 70 yaşında (Şamaxı şəhəri), 1950-ci il.

*Məcnun Gülşən bağında.* Söyləyəni: Fərhadov Yaqub, 88 yaşında (Göyçay rayonu), 1958-ci il.

*Hacıbaba bulağı.* Duvannı rayonu, Ceyildağ qəsəbəsi, 1958-ci il.

*Şirinlə Şəhərin görüşməsi.* Söyləyəni: Mirzəyeva Nənəxanım, 69 yaşında (Şuşa şəhəri), 1958-ci il.

*Adsız qəhrəman.* Söyləyəni: Məlikov Paşa, 78 yaşında (Şamaxı şəhəri), 1951-ci il.

*Deşik daş.* İsmayıllı qəsəbəsi, 1959-cu il.

*Sofi qayası.* Qonaqkənd qəsəbəsi, 1948-ci il.

*Şapurla Fərhad.* Söyləyəni: Əzizov Vahid, 76 yaşında (Göyçay rayonu), 1958-ci il.

*Bələk piri.* Şamaxı şəhəri, 1962-ci il.

*Şah Abbasla tacir.* Söyləyəni: Hacı İsa Musayev, 90 yaşında (Şamaxı şəhəri), 1951-ci il.

*Abbas Səhhətlə xəstə.* Söyləyəni Məşədi Nəsir Hacıyev, 78 yaşında (Şamaxı şəhəri), 1962-ci il.

*Bütün insanlar qardaşdılar.* Söyləyəni: İsmayılov İsmayıl, 69 yaşında (Şamaxı şəhəri),1962-ci il.

*Yaxşı qonşu qardaşdan irəlidir.* Söyləyəni: Nağıyeva Töhfə, 61 yaşında (Ağsu şəhəri), 1949-cu il.

*Bəhram şahın başdaşı.* Bakı şəhəri, 1950-ci il.

*İldırım qayası.* Qazıməmməd rayonu, 1950-ci il.

*Teyyibə.* Söyləyəni: Abbasov Əliağa, 70 yaşında (Bakı şəhəri), 1950-ci il.

Qazıməmməd rayonu, Qubalı Baloğlan kəndi, 1949-cu il.

*Qız daşı. Molla yeri.* Qazıməmməd rayonu, Tava kəndi, 1951-ci il.

*Şəhid qəbri.* Ağsu rayonu, Cavanşir kəndi, 1948-ci il.

*Ananın qərarı.* Söyləyəni: Hüseynov İbrahim, 86 yaşında (Şamaxı şəhəri), 1963-cü il.

*Məhəbbətin gücü.* Söyləyəni: Zəkiyeva Mayaxanım, 81 yaşında (Göyçay rayonu), 1968.

*Namussuz yaşamaqdansa ölüm yaxşıdır.* Söyləyəni: Hüseynov İbrahim, 88 yaşında (Şamaxı şəhəri), 1963-cü il.

Söyləyəni: Məşədi Sadıq Rzayev, 91 yaşında (Kürdəmir şəhəri), 1952-ci il.

*Ələmlər.* Söyləyəni: Osmanov Osman, 70 yaşında (Qusar şəhəri), 1962-ci il.

*Bəhramın sağaldılması.* Söyləyəni: Məşədi Ağabala Rzayev, 89 yaşında (Şamaxı şəhəri), 1947-ci il.

*Qara göl.* Mərəzə rayonu, Qurbançı kəndi, 1952-ci il.

*Murad quşu. Ərəstunla kəniz.* Qazıməmməd rayonu, Nəvahı kənd qocalarından yazıya alınıb, 1951-ci il.

*Teymurlənglə Kəmaləddin Şirvani. İgid ölər, adı qalar.*

Söyləyəni: Ağayev Mirhüseyn, 64 yaşımnda (Şamaxı şəhəri),1947-ci il.

*Hüseyn daşı.* Söyləyəni: Qədirova Zeyvə, 82 yaşında (Dərbənd şəhəri),1961-ci il.

*İsgəndər Zülqəreynlə Şirvan şahı.* Söyləyəni: Quliyev Hacı, 60 yaşında (Şamaxı şəhəri), 1964-cü il.

*Zərqələm təpəsi.* Dərbənd şəhəri, 1951-ci il.

*Nağaraxana.* Söyləyəni: Kərbəlayi Qasım Əsədov, 82 yaşında (Şamaxı şəhəri),1950-ci il.

*Mollabatan.* Söyləyəni: Qasımova Nisəxanım, 89 yaşında (Xaçmaz şəhəri), 1963-cü il.

*Mis qazan.* Söyləyəni: İsrafilov Gülmirzə, 54 yaşında (Mərəzə rayonu, Qurbançı kəndi), 1952-ci il.

*Tuğla həqiqət.* Qazıməmməd rayonu, Yanıq Qubalı kəndi, 1948-ci il.

*Gəlin quşu.* Söyləyəni Səfərov Niyazalı, 74 yaşında (Xaçmaz şəhəri), 1963-cü il.

*Kəmallədin dağı, İncəbel yastanası.* Qazıməmməd rayonu, Tava kəndi, 1947-ci il.

*Mələk bulağı.* Söyləyəni: Zahidov Ziyad, 68 yaşında (İsmayıllı qəsəbəsi), 1957-ci il.

*Qanlı göl.* Söyləyəni: Əfəndiyev İslam, 79 yaşında (Dəvəçi şəhəri), 1950-ci il.

*Dost.* Söyləyəni: Cəfərova Bikə, 64 yaşında (Dəvəçi şəhəri), 1950-ci il.

*Təpələr.* Qazıməmməd rayonu, Tava kəndi, 1950-ci il.

*Dost dostun gözündə yaşayır.* Söyləyəni: Məlikov Ağaverdi, 80 yaşında (Göyçay rayonu), 1958-ci il.

*Sara.* Söyləyəni: Səfiyev Saray, 73 yaşında (Şuşa şəhəri), 1958-ci il.

*Çanaqlı bağa.* Söyləyəni: Baxşıyeva Sonaxanım, 71 yaşında (Sabirabad rayonu), 1951-ci il.

*Dədəgünəş.* Şamaxı rayonu, Dədəgünəş və Çağan kəndləri, 1960-cı il.

*Zarafat zərif olmalıdır.* Söyləyəni: Zeynalov Əliqulu, 62 yaşında (Səlyan rayonu), 1960-cı il.

*Züleyxayla İslam.* Söyləyəni: İsmayılov İsmayıl, 69 yaşında (Şamaxı şəhəri), 1962-ci il.

*Loğman.* Söyləyəni: Qarayeva Gülxanım, 84 yaşında (Göyçay rayonu),1958-ci il.

*Qızlar quşu.* Ağsu rayonu, Çuğurlu kəndi, 1948-ci il.

*Çırağı sönən kişi.* Söyləyəni: Quliyev Hacı, 60 yaşında (Şamaxı şəhəri), 1964-cü il.

## SON SÖZ

Cəfərzadələrin folklor aşinalığı hamıya məlumdur. Özlərinin də dəfələrlə qeyd etdikləri kimi, folklor məhəbbəti, folklorçuluq anaları, nənəm Böyükxanım Cəfərzadənin südü ilə onların canına, qanına hopub.

1974-75-ci illərdə Böyükxanım nənəmdən "Arzu-Qəmbər" dastanı maqnitafon lentinə yazmışdım. Sonralar rəhmətlik, folklorçu-alımimiz, professor Sədnik Paşayev həmin audioyazı əsasında ondan toplayıb yazıya aldığı dastanı tərtib kitabına daxil edib xalqımıza çatdırdı.

Son illərdə də Cəfərzadələrin folklor toplularını, eləcə də folklor tədqiqatlarını kitab halında dərc etməyə çalışmışıq. Əzizə Cəfərzadə "Folklor araşdırmaları" (2020), Məmməd Cəfərzadə "Dənizdən damlalar" (2020), Əhməd Cəfərzadə "Yaralı könül" (2017), Əzizə və Əhməd Cəfərzadələrin toplayıb yazıya aldıqları "Nanaylar" (2021) kitabları da bu qəbildəndir. Amma bu üç şəxsin arxivlərindəki folklor materialları, folklor və aşıq ədəbiyyatına aid tədqiqatlar çox böyük həcmdədir. Onu bir neçə kitabla əhatə etmək qeyri mümkündür.

Bu sizə təqdim olunan kitab da dayım Əhməd Cəfərzadənin gənc yaşlarından başlayaraq topladığı, lakin öz sağlığında nəşr etdirə bilmədiyi folklor materiallardandır. Bu kitaba daxil edilmiş bütün folklor materialları Əhməd Cəfərzadənin orijinal əlyazmasından yığılmışdır. Kitabda 122 əfsanə, rəvayət vardır ki, bunlardan 19-u "Şirvan folk-

loru anotologiyası"[1] (Bakı, 1994) və 40-ı (10 əfsanə 1-ci kitabdan) "Azərbaycan folkloru anotologiyası, XI kitab, (Şirvan folkloru)" [2] kitabına daxil olunub. Beləliklə, sizə təqdim olunan bu kitabda 122 əfsanə və rəvayətlərdən 73-ü ilk dəfə çap edilir.

2021-ci ildə Əzizə ananın 100 illiyi tədbiri və kitablarının yeni nəşri ilə əlaqədar AMEA Folklor İnstitutu əməkdaşları ilə görüşlərimiz, eləcə də yubileylə əlaqədar konfranslarda, dərc olunmuş kitab və məqalələrdə, yazılmış və yazılan dissertasiyalarda bir daha folklorçularımızın Cəfərzadələr ocağına, onun folklor toplularına isti münasibətinin şahidi oldum. Gülsümxanım Hasilovanın "Əzizə Cəfərzadə və folklor" (2021) monoqrafiyası həmin qəbildən olan böyük tədqiqatlardan biridir. Ümid edirəm ki, bu dərc etdirdiyimiz yeni kitab da folklorçularımız üçün yeni, dəyərli qaynaq olacaq.

Bu gün bu kitab folklorçu alimimiz, filologiya üzrə fəlsəfə doktoru Tacir Səmiminin tərtib və redaktorluğu, ön sözü, eləcə də qardaş dəstəyi ilə işiq üzü görür. Ona bu kitab üzərindəki zəhmətinə, Cəfərzadələr və onların yaradıcılığına məhəbbətinə görə təşəkkür edirəm. Kitabın korrekturası və tərtibatını aparmış Vüsal Abiyevə də minnətdarlığımı bildiriəm.

---

[1] Şirvan folkloru anotologiyası // Toplayanı və tərtib edənləri: Əhməd Cəfərzadə, Seyfəddin Qəniyev. Red. Əhməd Cəfərzadə. Bakı: 1994. – 118 s.

[2] Azərbaycan folkloru anotologiyası, XI kitab, (Şirvan folkloru) // Toplayanı: Seyfəddin Qəniyev, tərtib edənlər: H.İsmayılov, S.Qəniyev. Red. Hüseyn İsmayılov. Bakı: Səda, 2006. – 444 s.

## MÜNDƏRİCAT

Ön söz (Tacir Səmimi) ........ 3
Gavuryaran........ 16
Ağamurad yeri ........ 17
Dördlər piri ........ 19
Güllübatan........ 20
Ağlayan dağ........ 23
Yetimlər ........ 25
Sənəm bulağı........ 28
Qanlı qaya ........ 29
Lalə əfsanəsi........ 31
Şəhidlər........ 32
Dəli pilpilə........ 33
Zöhrab qalası ........ 35
Qırxlar gölü........ 36
Diri qəbristanı........ 37
Qız daşı........ 38
Qız qalası........ 40
Canlı divar........ 43
Səfi qaznağı........ 44
Yeddi qurban ........ 45
Nazlı əfsanəsi........ 46
Göyün qəzəbi........ 48
Salxım söyüd........ 49
İsgəndərlə dul arvad........ 51
Səməndər əfsanəsi........ 52
Dəfnə yarpaqları........ 53

Oğul piri ........ 54
Qarı körpüsü ........ 56
Koroğluyla Kür ........ 57
Axundlar ........ 58
Zəncirli dağ ........ 59
Hatəm ........ 60
İsgəndərin meymunlarla davası ........ 63
Natəvanla ceyran ........ 65
Araqılınc ........ 67
Daş oğlan ........ 68
Mustafa xan ........ 70
Haramı dağı ........ 71
İsgəndərlə Dara ........ 72
Apardı sellər Sarayı… ........ 74
Şair Allahiylə Mustafa xan ........ 77
Şah İsmayılla bağban ........ 79
Qazıyanan ........ 81
İsgəndərlə falçı ........ 82
Atlar ........ 84
Məryəm noxudu ........ 86
Qaçaq Nəbinin kəndliyə ev tikməsi ........ 87
Diri Baba ........ 87
Qazının əməli ........ 88
Pir Hüseyn ........ 93
İki ana ........ 94
Qanlı qala ........ 95
Cavanşir ........ 96
İsgəndərin qarıdan vergi alması ........ 97
Yazılı daş ........ 99

Dəli dağ ... 100
Maral gölü ... 101
Yengəyanan ... 102
Qırx qızlar ... 103
Kimin əli gözəldir? ... 104
İsgəndərin Şirvana gəlməsi ... 105
İsa-Musa quşu ... 106
Dəyirmançı bulağı ... 107
Allahu əkbər dağı ... 108
Füzuliylə Xızır ... 109
Düzlük yaxşı şeydir ... 110
Keçmədin dərəsi ... 110
Kəklik ... 111
Gəlin qayası ... 112
Şeyx Zahid piri ... 113
Yeddi məzar ... 114
Şıxeyiblə Pərnaz ... 115
Məcnun gülşən bağında ... 116
Hacıbaba bulağı ... 117
Şirinin Şəkərlə görüşməsi ... 118
Adsız qəhrəman ... 120
Deşik daş ... 121
Sofi qayası ... 122
Şapurla Fərhad ... 123
Bələk piri ... 126
Şah Abbasla tacir ... 129
Abbas Səhhətlə xəstə ... 130
Bütün insanlar qardaşdır ... 130
Yaxşı qonşu qardaşdan irəlidir ... 131

Bəhram şahın başdaşı ........ 133
İldırım qayası ........ 134
Teyyibə ........ 135
Qız daşı ........ 137
Molla yeri ........ 138
Şəhid qəbri ........ 139
Ananın qərarı ........ 140
Məhəbbətin gücü ........ 142
Namussuz yaşamaqdansa ölüm yaxşıdır ........ 144
Ələmlər ........ 145
Bəhramın sağaldılması ........ 147
Qara göl ........ 149
Murad quşu ........ 151
Ərəstunla kəniz ........ 152
Teymurlənglə Kəmaləddin Şirvani ........ 153
İgid ölər, adı qalar… ........ 154
Hüseyn daşı ........ 156
İsgəndər Zülqərneynlə Şirvan şahı ........ 158
Zərqələm təpəsi ........ 159
Nağaraxana ........ 161
Mollabatan ........ 162
Mis qazan ........ 163
Tuğla həqiqət… ........ 165
Gəlin quşu ........ 166
Kəmaləddin dağı, İncəbel yastanası ........ 167
Mələk bulağı ........ 168
Qanlı göl ........ 169
Dost ........ 170
Təpələr ........ 171

Dost dostun gözündə yaşayır........................................ 171
Sara ................................................................................. 172
Çanaqlı bağa ..................................................................... 173
Dədəgünəş......................................................................... 173
Zarafat zərif olmalıdır ..................................................... 174
Züleyxayla İslam ............................................................... 174
Loğman .............................................................................. 175
Qızlar quşu ........................................................................ 175
Çırağı sönən kişi ................................................................ 176
Söyləyicilər haqqında məlumat....................................... 177
Son söz (Turan İbrahimov) .............................................. 185

# ATALARIN ÖZÜ ÖLSƏ DƏ, SÖZÜ ÖLMƏYİB

**(Folklor örnəkləri: rəvayətlər və əfsanələr)**

**Kompüter və dizayn: Vüsal Abiyev**
**Texniki redaktor: İlkin Qurbanlı**

**Yığılmağa verilmişdir: 24.05.2022**
**Çapa verilmişdir: 8.07.2022**
**Şərti çap vərəqi: 12**
**Tiraj: 200**

**SkyG NPM-də**
**hazır diapozitivlərdən çap olunmuşdur**

# ATALARIN ÖZÜ
# ÖLSƏ DƏ,
# SÖZÜ ÖLMƏYİB

